**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**A.A.BAKIXANOV adına TARİX İNSTİTUTU**

**NƏRGİZ ƏLİYEVA**

# ORTA ƏSRLƏRDƏ AZƏRBAYCAN ALİMLƏRİNİN ELMİ ƏLAQƏLƏRİ VƏ TƏDRİS FƏALİYYƏTİ

**Bakı-2015**

Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına
Tarix İnstitutu Elmi Şurasının qərarı ilə çap olunur.

Layihənin rəhbəri və
elmi redaktor: **Yaqub Mahmudov**
*Əməkdar elm xadimi,*
*AMEA-nın müxbir üzvü,*
*Dövlət Mükafatı laureatı*

**Nərgiz Əliyeva.** Orta əsrlərdə Azərbaycan alimlərinin elmi əlaqələri və tədris fəaliyyəti. Bakı: «Turxan» NPB, 2015. -168 s.

*Kitabda Azərbaycan alimlərinin Yaxın Şərq və Mərkəzi Asiyanın müxtəlif mədəniyyət mərkəzlərində elmi fəaliyyəti və qarşılıqlı elmi əlaqələri, təhsil müəssisələri və tədris üsullarından bəhs olunur. Burada ilkin təhsil ocaqları, azərbaycanlı alimlərin müdərris kimi fəaliyyət göstərdikləri müxtəlif tədris ocaqlarından, o cümlədən Azərbaycanda fəaliyyət göstərmiş mədrəsələr və xanəgahlar haqqında məlumat verilir. Kitabda Xilafətin 30-dan artıq mədrəsəsi və orada tədrislə məşğul olmuş azərbaycanlı müdərrisin fəaliyyətindən bəhs edilir. Əsərdə azərbaycanlı alimlərə dərs demiş görkəmli təhsil xadimləri və tədris müəssisələrini ziyarət etmiş alimlərlə bağlı materiallar da öz əksini tapmışdır.*

$$Ə\frac{0301140200-030}{(TNP)\ 2015}$$

© Nərgiz Əliyeva, 2015
© AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu, 2015

*"İnsan öldükdə,üç əməli xaricində bütün əməllərinin savabı kəsilər: verdiyi sədəqə, öyrətdiyi elm və arxasından dua edən xeyirli övlad"*

***(Hz. Peyğəmbərin hədislərindən)***

# GİRİŞ

Ərəb-islam fütuhatından sonra Böyük İpək Yolu üzərində yerləşən Azərbaycanı Xilafət dövləti ilə bağlayan ticarət əlaqələri ilə yanaşı mədəni əlaqələri də genişlənmişdi. Xilafət ölkələrində İslam amilinin aparıcı olması bu əlaqələrin genişlənməsinin başlıca səbəbi idi. İslamın gücü idi ki, müsəlman ölkələrində tarix siyasət, yaxud siyasi hakimiyyət məhvərində deyil, din məhvərində öyrənilirdi. Hətta islamda tarix sözü ilk dəfə müsəlman təqviminin Peyğəmbərin (s.a.s.) hicrəti əsasında qəbul edilməsi ilə işlədilmişdir. Hicrətdən 17 il keçəndən sonra xəlifə Ömər ibn əl-Xəttab (13-23/634-644) müsəlman təqviminin qəbul edilməsini zəruri saymış və əmr etmişdir ki, bu təqvim 622-ci ilin 16 təmmuz-iyulundan, yəni Peyğəmbərin (s.a.s.) Məkkəni tərk edərək Mədinəyə yola düşdüyü gündən başlasın[1].Əgər islamdan qabaq tarix, Quranda da verildiyi kimi, peyğəmbərlərin tarixi kimi başa düşülürdüsə, islamda o, alimlərin tarixi kimi öyrənilmişdir. Müsəlman tarixçiləri islam mədəniyyətinin tarixini məlik və əmirlərin həyat yolu əsasında deyil, alimlərin fikri əsasında öyrənirdilər, çünki alimləri peyğəmbərin varisi hesab edirdilər[2]. Xətib Bağdadi, əd-Dəraqutni, əl-Hakim Əbu Abdulla, İbn Makula, Əs-Səmani, İbn Nöqtə, İbn əs-Sabuni, əs-Siləfi, İbn Xəlliqan, əz-Zəhəbi, İbn Əbi Useybiyə, əl-Cavzi, əl-Qifti,Yaqut əl-Həməvi, əs-Safadi və digər alimlərin əsərləri elm adamları ilə bağlı yazıl-

---

[1] İslam: tarix, fəlsəfə, ibadətlər. Bakı, 1994, s. 328-29.
[2] Həsənli Hacı Sabir. İslam mədəniyyətində elm, Bakı, 1998, s. 27.

mışdır. Bu əsərlərdə Yaxın və Orta Şərqin elm və din daşıyıcıları olan ziyalıları kimi azərbaycanlıların da islam mədəniyyətinin yaranması və inkişafındakı rolu, onların müxtəlif elm mərkəzlərinə səfərləri, oradakı fəaliyyətləri göstərilir.

Azərbaycan tarixşünaslığında orta əsrlər coğrafi əsərlərin böyük əksəriyyətinin və bir sıra tarix və mədəniyyətə aid mənbələrin məlumatı öyrənilmişdir. Azərbaycan tarix elmində şəhərlərin tarixinin, xüsusilə, ölkənin simasını müəyyənləşdirən görkəmli elm, mədəniyyət və təhsilin inkişafında rolu olmuş ziyalıların həyat və fəaliyyəti, onların Xilafət bölgələri alimləri ilə elmi-mədəni əlaqələrinin, tədris fəaliyyətinin öyrənilməsi qənaətbəxş deyildir. Orta əsrlərin ərəbdilli yazılı mənbələrindəki Azərbaycanın görkəmli simaları və onların ölkənin elmi-mədəni həyatında oynadıqları rol haqqında hələ də bizim oxucu kütləsi üçün naməlum və öyrənilməmiş xeyli mühüm məlumat vardır. Akademik Z.Bünyadov haqlı olaraq göstərirdi ki, orta əsrlər Azərbaycan ziyalılarının Yaxın və Orta Şərq dövlətlərinin ictimai və mədəni həyatının müxtəlif sahələrində elmi və ictimai-siyasi fəaliyyətləri o qədər çoxcəhətlidir ki, onlar haqqında hətta kiçik bir məlumat belə, sözsüz ki, bizim o dövrün tarixi və mədəniyyəti haqqında biliyimizi artırır[1]. Xətib Bağdadi[2], İbn ən-Nədim[3], Hakim Nişapuri[4], İbn əl-Qifti[5], İbn Makula[6], əs-Səmani[7], İbn Nöqtə[8], Əbu Tahir əs-Siləfi[9], İbn əs-Sabuni[10], İbn

[1] Буниятов З.М. Новые материалы о видных деятелях Азербайджана в эпоху средневековья (статья третья) // Изв. АН Аз. ССР, Серия истории, философии и права, 1980, № 2, с. 59.
[2] Xətib ibn Əbu Bəkr əl-Bağdadi. Tərixu Bağdad, Qahirə, 1938.
[3] İbn ən-Nədim Məhəmməd ibn əbu Yaqub. Fihrist. Misir, 1348.
[4] Hakim Nişapuri. İ'dəd əş-Şeyx Kamil Məhəmməd Uveyda. Beyrut, 1961.
[5] İbn əl-Qifti Cəlaləddin. Tərix əl-üləma bi-əxbar əl-xukəma. Leypsiq, 1903.
[6] İbn Makula. Əl-İkməl fi raf'il-irtiyəb an mu'xəlif va-l müxtəlif fil-əsmə va-l kunə va-l ənsab. Beyrut, 1990.
[7] Əs-Səmani Əbu Səad Əbdülkərim ibn Məhəmməd. Əl-Ənsab. Beyrut, 1998.
[8] İbn Nöqtə. Ət-Taqyiid li-məarifət ruvat əs-sunən val məsənid. Nəşru Yusif əl-Hud. Beyrut, 1998.
[9] Əs-Siləfi Əbu Tahir. Mu'cəm əs-Səfər. www.mostafa com.
[10] İbn əs-Sabuni. Kitab təkmilət ikməlil-ikməl fi-l-ənsab va-l əsma' va-l əlqab. Beyrut, 1990.

Xəlliqan[1], İbn Əbi Useybiyə[2], İbn əl-Qaysarani[3], İbn əl-Cavzi[4], Əbülfəllah əl-Hənbəli[5], İbn əl-Əsir[6], Yaqut əl-Həməvi[7], İbn əl-Fuvati[8], əl-Əskəlani[9], əz-Zəhəbi[10], İbn Qutlubuğa[11], İbn Səad əl-Bəsri[12], Hacı Xəlifə[13], əs-Suyuti[14] və digər ərəbdilli müəlliflərin əsərlərində Azərbaycanın elm adamları, onların təhsil və tədris fəaliyyətləri haqqında maraqlı məlumatlar verilmişdir. Bu əsərlərdə elmli şəxslər digərlərindən fərqləndirilmiş, böyük nüfuzu olan alimlər yüksək dəyərləndirilmişlər. Peyğəmbərin (s.a.s.) hədisində deyildiyi kimi, elm öyrənənlər haqqında deyilir: "Elm öyrənənin ruzisini Allah-Təala özü verir."

Qeyd etmək lazımdır ki, Azərbaycan tarix elminin müasir səviyyəsi tələb edir ki, tədqiqat və maraq dairəsini genişləndirməklə daha dərinlərə nəzər salaq, ərəb-islam fütuhatından sonrakı ilk əsrlərdə Azərbaycan xalqının bu və ya digər dərəcədə bağlı olduğu millətlərin xəzinəsində gizlənmiş ziyalılarımız haqqında məlumatları üzə çıxaraq. Bu baxımdan Xiafət tərkibində yaşayıb yaradan müxtəlif millətlərin ərəb dilindəki əsərlərindən faydalanaraq hər bir yeni məlumatın üzə çıxarılması irəliyə doğru yeni addımdır.

---

[1] İbn Xallikan. Kitabu vəfayət əl-ə'yən va ənbə'əz-zaman. Beyrut, 1998.
[2] İbn Əbu Useybiyə. Uyun əl-ənbə' fi tabaqat əl-atıbbə. Misir, 1299.
[3] İbn əl-Qaysarani. Əl-Mu'təlif val Muxtəlif. Beyrut, 2001.
[4] İbn əl-Cavzi. Əl-Muntəzəm li İbn əl-Cavzi. Heydərəbad, 1938-1940.
[5] Əbülfəllah əl-Hənbəli. Şəzərat əz-zəhəb fi əxbar mən zəhəb lil muərrix əl-fəqih əl-ədib Əbifəllah Abdulhayy ibn əl-İbad. Beyrut.
[6] İbn əl-Əsir. Əl-Lulab fi təhzib əl-Ənsab. Qahirə, 1357.
[7] Yaqut əl-Həməvi. Mu'cəm əl-Üdəba. Nəşru Marqolius. 1907-1937; Mu'cəm əl-Buldən. Beyrut, 1977; Əl-Muştərik vad'an va-l muftarik suq'an. Vyana, 1846.
[8] İbn əl-Fuvati.Təlxis məcm'ə əl-ədəb fi mu'cəm əl-əlqab. Lahor, 1934.
[9] Əl-Əskəlani Əbu Həcər. Əl-İsər bi-məarifət ruvat əl-Əsar. Beyrut, 2009.
[10] Əz-Zəhəbi Şəmsəddin. Kitab təzkiratil-huffaz. Heydərabad, 1955-1956.
[11] İbn Qutlubuğa Zeynəddin Qasim. Tərixu-t-təracim fi təbaqati-l-hənəfiyyə. Bağdad, 1962.
[12] İbn Səad Məhəmməd ibn Səad ibn Məni' əl-Həşimi əl-Bəsri. Ət-Təbaqat əl-kubra. Beyrut, 1997.
[13] Hacı Xəlifə. Kəşf əz-zunun. Dər Səadə, 1301.
[14] Əs-Suyuti Cəlaləddin Əbdürrəhman İbn Əbu Bəkr. Nuzum əl-'iqyən fil-ə'ayənil-ə'ayən. Nyu-york, 1927.

Bəşər tarixinə nəzər salınarsa, görmək olar ki, heç bir cəmiyyət və ya dövlət özünün təhsil, elm və tərbiyə sahələrini diqqətdən kənara qoymamışdır. Lakin fərq yalnız tarix boyu yaranmış təhsil və tədris müəssisələrinin formaca bir-birindən fərqlənməsidir. Məzmunca isə eyni missiyanı yerinə yetirmişlər. Təhsil vermək missiyası, Azərbaycan ziyalılarının orta əsrlərdə hansı elm ocaqlarında elmi biliklərə yiyələnməsi də monoqrafiyada öz əksini tapır.

# I FƏSİL

# AZƏRBAYCAN ALİMLƏRİNİN YAXIN ŞƏRQ VƏ MƏRKƏZİ ASİYANIN MƏDƏNİYYƏT MƏRKƏZLƏRİNDƏ ELMİ FƏALİYYƏTİ VƏ QARŞILIQLI ELMİ ƏLAQƏLƏRİ

## 1.1. Şamla əlaqələr

Vahid islam dövlətində birləşən xalqlar mənəvi birlik hiss etdikcə ərəb dili və mədəniyyəti sivil aləmdə üstünlük təşkil etməyə başladı. Belə nəhəng bir dövləti birləşdirə bilmiş təsir qüvvəsi təkcə siyasətdə deyil, həmçinin dil və intellektual sahədəki maneələrin dağıdılmasında da özünü göstərirdi. İslamın yayıldığı ilkin dövrlərdə Ərəb Xilafətində birləşmiş xalqların əvvəllər ərəb dilinə marağı Quran və Quranla bağlı ədəbiyyatın öyrənilməsi idisə, sonralar ərəb dilinin yayılma sferası daha da genişlənir. Artıq yeni bir faktor ilk plana çəkilir. Azərbaycanın Yaxın və Orta Şərq ölkələri ilə siyasi-iqtisadi əlaqələri əhəmiyyətli dərəcədə artmağa başlayır. Professor Əli Rəcəbli göstərir ki, dövrün kufi sikkələrindən ibarət Xilafət sikkə tapıntıları, Əməvilər və Abbasilərin, eləcə də Abbasilər imperiyasına daxil olan dövlətlər və sülalələrin – Tahirilər, Samanilər, Əmman vəcihiləri, Fars Səffariləri, Təbəristan, Ziyarilər, Əlililər, Əndərabə əmirləri, İşhidilər və başqalarının dirhəmlərindən ibarət dəfinələrin tapılmasını beynəlxalq Güney-Qüzey ticarətinin tarixi coğrafiyası fonunda uyğun dönəmdə Azərbaycanın xarici əlaqələrinin miqyas və panoramasını ğöz önündə canlandırır.

İslam fütuhatından sonrakı ilk mərhələdə azərbaycanlıların ərəblərlə əlaqələri siyasi müstəvidə baş tuturdu. Hələ Əməvilərin hakimiyyətə gəldikləri ilk illərdə Albaniya hakimi Cavanşir 667

və 670-ci illərdə siyasi məsələlərlə bağlı Dəməşqə Xəlifə Müaviyənin sarayına getmişd[1]. Müaviyə "ölkənin canişinlərindən heç birinə göstərmədiyi böyük bir cəlal ilə onu qəbul etmişdi"[2]. Cavanşirin 667-ci ildə baş tutmuş ilk səfərindən sonrakı üç ildə Arran əhalisi hər hansı xarici hücumlardan xilas olmuşdu. Üç ildən sonra (670-ci ildə) Xəlifə Müaviyə yenidən Cavanşiri Dəməşqə dəvət edir. Bu görüşdən məqsəd Xilafət ilə Bizans arasındakı danışıqlarda Cavanşirin vasitəçi rolu oynaması olmuşdur. Yenə də Alban tarixçisinin məlumatına görə Xəlifə Cavanşirə hədiyyələr verərək Sünik knyazlığını ona tabe etdi və onu məcbur edirdi ki, Atrpatakanın hakimiyyətini də öhdəsinə götürsün. Bu təklifi rədd edən Cavanşir Xəlifədən xahiş etdi ki, onun ölkəsi üzərinə düşən vergini yüngülləşdirsin. Xəlifə buna razı oldu və əmr etdi ki, vergi yükü üçdə bir yüngülləşdirilsin[3].

Daha sonra ərəb qəbilələlərinin ölkədə yerləşdirilməsi bu əlaqələrin inkişaf etdirilməsinə təkan verdi. Məscidlərin inşası yerli əhali arasında ərəb dili və ərəb kitab mədəniyyətinin yayılması ilə yanaşı Xilafətdə birləşmiş ölkələr arasında mədəni əlaqələrin rüşeymlərinin cücərməsinə şərait yaradırdı. Plan həlli Dəməşqdəki Əməvi məscidinə yaxın olan, 733-cü ildə Dərbənddə tikilən Cümə məscidi Azərbaycanda müsəlmanların tikdirdiyi məlum olan ilk məscidlərdən biri olmuşdur. "Dərbəndnamə"nin məlumatına görə 733-34-cü ildə Əməvi sərkərdəsi Məsləmə ibn Əbdülməlik Dərbənddə olan Came məscidindən başqa daha yeddi məhəllə məscidi tikməyi əmr etdi. Bunların arasında Dəməşq məscidi də var idi. Bu isə Dəməşqdən olan bir çox əhalinin burada yerləşdirilməsi ilə əlaqədar idi. Onlar yerli camaat arasında ərəb dili və ərəb kitab mədəniyyətinin yayılmasında yaxından iştirak edir. Xüsusilə Quran və onun təfsiri, eləcə də ərəb dilinin qrammatikasina aid olan kitabların yayılmasına kömək edir-

[1] Bünyadov Z.M. Azərbaycan VII-IX əsrlərdə. Bakı, 1965, s. 77.
[2]Мовсес Каганкатватци. История Агван. СП.б., 1861, с. 157-158.
[3] Yenə orada, s. 160.

dilər[1]. Bu isə eyni zamanda müsəlmanlarla yerli əhali arasında mədəni ədaqələrin yayılmasına da kömək edirdi.

Qeyd etmək lazımdır ki, Ərəb fəthlərindən əvvəl də, yəni Sasanilər dövründə ərəblərlə əlaqələr mövcüd idi. Ənuşirvan Azərbaycan ərazisinə, o cümlədən Dərbənddə yollara nəzarət etmək üçün Suriya, Mosul və əl-Cəzirədən olan ərəblərin buraya göndərilməsi haqqında XIV əsr astronom və coğrafiyaşünası əl-Cuzcani məlumat verərək yazırdı: "Onların nəsilləri burada qalmışdır, onlar ərəb dilində danışırlar"[2].

Azərbaycanın Xilafət tərkibində birləşmiş ölkələrlə siyasi və iqtisadi əlaqələrlə yanaşı, inkişaf edən ticarət, və onun ardınca bu ölkələrin xalqları arasında mədəni əlaqələrin artması bir ünsiyyət vasitəsi kimi ərəb dilinin geniş yayımasına təkan verdi, Bu isə öz növbəsində elmi əlaqələrin əhəmiyyətli dərəcədə şaxələnməsinə imkan yaratdı. Xilafət ölkələri xalqlarını ideoloji cəhətdən birləşdirən böyük qüvvə isə yeni din – islam dini idi.

Xilafət ölkələrində islam formalaşdıqca şəhər və vilayətlərə, əsasən də mədəniyyət mərkəzlərinə bu xalqların, o cümlədən azərbaycanlıların uzunmüddətli səfərləri yaradıcılıq və təhsil formalarına çevrilməyə başlayır. Artıq azərbaycanlı ziyalı Xilafətin müxtəlif mədəniyyət mərkəzlərində başqa xalqların nümayəndələri ilə görüşüb diskussiya apara bilirdi.

Əldə etdikləri elmi bilikləri sayəsində getdikcə daha da məşhurlaşan Azərbaycan ziyalılarının sədası müxtəlif mədəniyyət mərkəzlərindən gəlirdi. Xilafətin ilk təhsil ocağının öncül alimlərindən Əbu Bəkr ibn Səadaveyh əl-Bərdəinin (v.e. 354/966) Nişapur, Mavəraənnəhr, Xorasan, İraq, Şam və Şaşdan[3], fəzilətli imam Əbu Turab Əbdülbaqi ibn Yusif əl-Marağinin (v.e. 492/ 1098) Bağdad, Nişapur, Damğan, Mərv, Nuqan, İsfahandan, fə-

[1]Vəlixanlı N.M. Ərəb xilafəti və Azərbaycan. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1993, s. 72.
[2] А.Р.Шихсаидов. Когда и как насаждался в Дагестане ислам. Махачгала, 1962. с. 33.
[3] Əs-Səmani, I c., s. 328.

zilətli alim kimi sədaları gəlirdi[1].“Maliku-n-nühat” (“Qrammatiklərin başçısı”) kimi şöhrət tapmış, əslən Urmiyadan olan Əbu Nəzar əl-Həsən əs-Safinin adına Dəməşqdə məscid açılması haqqında İbn əl-Əsakirinin, Gəncəli alim İbrahim ibn Məhəmmədin fəzilətləri barədə məşhur ərəb alimi Əbülhəsən əd-Daraqutninin (918-995), naxçıvanlı Xodadad ibn Asimin məşhur bağdadlı şeyx İbn Makulanın şeyxi olması haqqında əs-Səmaninin məlumatı Xilafətin mədəniyyət mərkəzlərində azərbaycanlı alimlərin qazandıqları nüfuzdan xəbər verir.

Xilfətin nəhəng mədəniyyət mərkəzlərinə, o cümlədən Qahirə, Dəməşq, Nişapur, Buxara, Bağdad,İsgəndəriyyə, Şaş və s.şəhərlərə səfərlər edən azərbaycanlı alimlərdən bir çoxu eyni zamanda hər hansı cərəyanın tərəfdarı olurdular.Bu din daşıyıcılarından olan Azərbaycan ziyalılarının bir çoxu Yaxın və Orta Şərq, o cümlədən Suriyanın Dəməşq, Hələb, Homs şəhərlərində təhsil almış, bəziləri orada qalaraq müxtəlif tədris müəssisələrində dərs demişlər. Xüsusilə, Səlibçilər və monqollar üzərində qələbə Misir və Suriyanın müsəlman mədəniyyəti mərkəzi kimi əhəmiyyətini artırmışdı[2]. Ona görə də azərbaycanlı alimlərdən bəziləri monqolların hücumu vaxtı bu ölkələrə mühacirət etmişlər. Görkəmli azərbaycanlı ziyalılardan bir çoxu sığınacaq tapdıqları və sonradan bəziləri üçün ikinci vətənə çevrilən bu ölkələrdə özlərinə iş yerləri tapıb fəaliyyət göstərmiş, yerli alimlərlə qaynayıb qarışaraq adlı sanlı şəxslərə çevrilə bilmişlər.

Belə mərkəzlərdən biri Bağdad, Qahirə, Nişapur, Buxara, İsgəndəriyyə kimi şəhərlərlə yanaşı məşhur məğribli səyyah İbn Cubeyrin “Şərqin cənnəti” və “İslam ölkələrinin üzüyü” adlandırdığı Dəməşq şəhəri idi[3].

[1] Əs-Səmani, Kitab əl-ənsab V c., s. 130.
[2] Халидов А.Б. Книжная культура // Очерки истории арабской культуры V-XV вв. Москва, 1982, с. 68.
[3] Nəcdə Xəmaş. Əl-asru-l-islamiyyu hattə nihayəti-l-ahdi-l-məmluki / Əş-Şam asımətu əs-səqafəti-l-islamiyyəti. Diməşq, 2008, s. 140.

Lakin, bəzən, ziyalılarımız məcburən yeni vətən seçdikləri ölkələrdə layiq olduqları qiymətlərini ala bilmirdilər. Taleyin qisməti elə gətirmişdi ki, əsli Xoydan olan, ilahiyyat və fəlsəfə sahəsində gözəl əsərləri olan fəzilətli alim qazı Şəmsəddin Suriyaya gedən alimlər arasında olmuşdu. Şamda lazımınca qiymətləndirilməyən alim yalnız Dəməşq mədrəsəsində repetitorluq etmişdir. O, h. 640/1240-cı ildə cavan ikən vəfat etmişdir.[1]

Dəməşq Universitetində təhsil almış İbn əs-Sabuni xəbər verirdi ki, Əbül-Qasım ibn Ruvaha əl-Ənsari kimi alim şeyx Azərbaycanın Şirvan bölgəsindən olan Əbül Həsən əl-Müfəddidin tələbəsi olmuşdur.[2] Əbül-Həsən ona qiraətdən dərs demişdi.

İbn əs-Sabuninin özünün Dəməşqdə mühazirələrini dinlədiyi digər azərbaycanlı ziyalı h.560/1164-cü ildə anadan olmuş Əbu Şəfa Xəlil ibn Əhməd ibn Xəlil ət-Təbrizi 655/1257-ci ildə vəfat edənə qədər burada qalaraq fəaliyyətini davam etdirmiş, Dəməşqdə,sufilərin qəbirstanlığında dəfn edilmişdir.[3]

Bəzən hədis axtarışı üçün uzaq məsafələr qət edərək səyahətlərə çıxan alimlər axırıncı qərar tutduqları ölkədə vəfat edərkən orada dəfn edilirdilər. Əsli Azərbaycandan olan Əbu Əhməd Zəki ibn əl-Həsən ibn İmran əl-Beyləqani h. 582/ 1186-cı ildə Dəməşqə gəlmiş, orada hədislər söyləmişdi. Şafii məzhəbli Əbu Əhməd ilahiyyat alimi, həm də tacir olmuşdu. Fəzilətli fəqih kimi tanınan alim bu elmi, İbn əl-Xətib kimi tanınmış İmam Əli Abdulla Məhəmməd ibn Ömərə öyrətmişdi. Əl-Beyləqani haqqında oxucularını məlumatlandıran İbn əs-Sabuni Dəməşqdə olarkən onun mühazirələrini dinlədiyi haqqında məlumat verir[4]. H.636/1238-ci ildə Yəmənə gedən alim 676/1277-ci ildə Ədəndə vəfat edir[5].

[1] Буниятов Дж.З. Материалы из сочинений Закарии ал-Казвини об Азербайджане // Известия АН Азербайджанскаой ССР. Серия истории, филасофии, права № 3, 1976, с. 53.

[2] İbn əs-Sabuni. Kitəbu Təkmiləti İkməlil-İkməl bi İbn əs-Sabuni. İraq, 1377/1957, s. 316.

[3] Yenə orada, s. 55.

[4] Yenə orada, s. 144.

[5] Əl-Əsnəvi. Ət-Tabaqat əş-şafiiyyə, I c., Bağdad, 1390, s. 279; Bünyadov Z.M. Azərbaycan Atabəylər dövləti. Bakı: Elm, 1985, s. 231.

Şamda yüksək vəzifə tutmuş şəxslərdən biri də "hikmət elmlərində zəmanəsinin yeganəsi, şəriət işlərində dövrünün görkəmli alimi, tibbin əsaslarının bilicisi" Şəmsəddin Xoylu olmuşdur[1]. Misridən sonra Şamda baş qazı vəzifəsini tutmuş azərbaycanlı alim 7 şaban 637 (2 mart 1240-cı) ildə vəfat etmiş və Qasiyun dağının ətəyində dəfn olunmuşdur.

Digər bir Şəmsəddin ləqəbli şəxsiyyət xosrovşahi nisbəli alimin də adı Şamla hallanmışdır. Şəmsəddin əl-Xosrovşahi Təbriz yaxınlığında Xosrovşah adlı yerdə anadan olmuşdur. Şama səyahət etdiyi vaxt Sultan əl-Məlik ən-Nasir Salahəddin Davud ibn əl-Məlik əl-Muəzzəmin xidmətində olmuşdur. Sonra Dəməşqə gəlmişdi. Dəməşqdə olarkən onunla görüşən İbn Əbi Useybiyə onun fəzilətləri haqqında məlumat verərək məqsədyönlü olmasını, şirin kəlamını, iti zəkasını qiymətləndirmişdi. Firuzabadlı Şəmsəddin də ömrünün sonuna yaxın, 652-ci ilə qədər Dəməşqdə qalmış, Qasiyun dağının ətəyində dəfn olunmuşdur[2].

Hədis tələbi ilə Şama səyahət edən azərbaycanlılar burada hədis toplayaraq nəql etmişlər. Sufi Əbülfəz Əbdülvahid ibn Bəkr əl-Varasani[3] belələrindən idi.

Əs-Səmani Şamla əlaqəsi olmuş Əbu Məhəmməd Cəfər ibn Məhəmməd ibn Haris əl-Maraği haqqında da maraqlı məlumat verir. Əbu Məhəmməd hədis öyrənmək üçün ən çox səyahət edən, ən çox hədis toplamaqda ad çıxarmışdı. Altmış ildən çox əli ilə hədis yazmış və ölənədək yazmaqda davam etmişdir. Bu işdə ən düz və ən dəqiq adam idi. Əs-Səmani əl-Hakim ən-Nişapurinin "Nişapur tarixi" əsərinə əsaslanaraq yazır ki, Əbu Məhəmməd əl-Maraği Şamda olarkən yazdığı əsərləri orada qalmışdı. Bu onu göstərir ki, alim Şamda uzun müddət qalmış, əsərlərini də orada yazmışdır. 356/966-cı ildə Nişapurda vəfat edərkən Cəfər əl-Marağinin yaşı 80-dən çox idi[4].

[1] İbn Əbi Üseybiyə. Uyun əl-ənba fi tabəqat əl-ətibba. I-II, Misir, h.1299, s. 355; Məmmədov Z.C. Azərbaycanda XI-XIII əsrlərdə fəlsəfi fikir. Bakı, 1978, s. 76.
[2] İbn Əbi Üseybiyə. Uyun əl-ənba fi təbəqat əl-ətibba, Beyrut, 1998, s. 600-601.
[3] Əs-Səmani. Ənsab, V c., s. 442.
[4] Yenə orada, s. 131-132.

H. 339(950)-ci ildə İsfahana gəlmiş Məkki ibn Bəndər əz-Zəncani, Misir və İraqla bərabər Şamda da çox sayda hədis yazmışdır[1].

Vaxtilə müqəddəs ocağın şeyxi olmuş Əbu Abdulla Hüseyn ibn Əhməd ibn Məhəmməd əz-Zəncani Şam və Misir əhlindən olan bir qrup adama istinadən hədis nəql etmişdir. Hörmətli, bilikli, zahid olan Məhəmməd əz-Zəncanidən adamlar xeyir-dua alırdılar. Hətta ona paxıllıq edən bir nəfər Məkkə əmirinə demişdi: “Adamlar əz-Zəncaninin əlini qara daşdan çox öpurlər”.

Azərbaycanlı alimlərin Dəməşqlə əlaqəsi haqqında bəhs edən müəlliflərdən biri də məşhur hafizlərdən olan Əbu Tahir Əhməd ibn Məhəmməd əs-Siləfi əl-İsfahani (478/1085-576/1180) olmuşdur. İbn əs-Sabuni öz təhsil illəri barədə yazarkən əs-Siləfidən ilk mənbə kimi istifadə edir.O yazir: Dəməşqdə və Qahirədə mühazirələrini dinlədiyim alim-şeyxlər Əbülqasım ibn Ruvaha və Əbul-Həsən Əli ibn Cubara əl-Kindidən aşağıdakı məlumatı almışam: “Əl-Hafiz Əbu Tahir əs-Siləfi əl-İsfahani bizə belə bir əhvalat danışıb: “Şirvanda kəramət sahibi olan və əz-Zərəndi kimi tanınan qazı Əbül-Qasım əl-İsfahani varid olanda Əbu Bəkr Əhməd əl-Həmədani öz fətvasından əl çəkdi və dedi: “O bunda məndən üstündür”. Əs-Siləfi bu sözləri Şirvanda Əbül-Həsən əş-Şirvanidən eşitdiyini yazır. Əs-Siləfi bu məlumatı özünün “Mu′cəm əs-səfər” əsərində də qeyd etmişdir[2].

Adı Dəməşqlə bağlı azərbaycanlı alimlərdən biri də əl-Həsən ibn Əbül-Həsən əs-Safi olmuşdur. Əslən Urmiyadan olan Əbu Nəzar qrammatik idi. “Maliku-n-nühat” (“Qrammatiklərin başçısı”) kimi şöhrət tapmış bu alim üçün Dəməşqdə məscid açılmış, o orada dərs demişdi. İbn əl-Əsakirin məlumatından istifadə edən Yaqut əl-Həməvi “Mu′cəm əl-Buldən” əsərində onun 10-a yaxın əsərinin adını çəkir[3]. Onun əsərləri arasında müxtəlif mövzularda, o cümlədən qrammatika, şeir, qiraət elmi, fiqh, dinin əsasları haqqında kitablar əsas yer tutur.

---

[1] Əs-Səmani. Ənsab, III c., s. 187.
[2] Əs-Siləfi. Mu′cəm əs-səfər, № 958. www.mostafa.com, s. 158.
[3]Əliyeva N. Yaqut əl-Həməvi və Azərbaycan. Bakı, 1999, s. 206.

Şam bölgəsindəki alimlərin hədis məclisləri digər müsəlman alimləri kimi, azərbaycanlıların da cəm olduqları yerlərdən idi. Azərbaycanlı ziyalılardan ilahiyyatçı alim Məkki ibn Əhməd Səadaveyh əl-Bərdəi[1], Miməz şəhərinin qazısı olmuş Əbu İshaq əl-Ənsari[2], bərdəli Səid ibn Əmr ibn Əmmar Əbu Osman əl-Əzdi[3], mənşəyi Səlmasdan olan Musa ibn İmran ibn Musa ibn Hilal[4], mənşəyi Naxçıvandan olan Əhməd ibn Hicaf Əbu Bəkir əl-Azəri ən-Nəşavi[5] və başqaları hədis toplamaq üçün Dəməşqi ziyarət edənlər arasında olmuşlar. Onlar burada o dövrün tanınmış mühəddislərindən Əbu Zur'a əd-Diməşqi (ö.281/894)[6], Əhməd ibn Uşeyr, Yəhya ibn Talib əl-Əkkab, Əbu-d-Dəhdah kimi tanınmış mühəddislərdən hədis öyrənmişlər. Azərbaycanlı ziyalılar hədisləri dinləməklə yanaşı hədis hafizləriylə müzakirələr də aparırdılar. 433/1041-42-ci ildə Dəməşqdə təşkil olunan belə məclislərin birində Məhəmməd ibn Abdulla ibn Bəndər əl-Mərəndi əslən Bağdaddan olan əd-Darəqutni, İbn Şahin, Əbu Həfs əl-Kinəni və başqaları haqqında söhbət açmışdır[7].

Suriyaya ziyarət edərkən burada məskunlaşıb fəaliyyət göstərən azərbaycanlı alimlərdən bəzisi hətta Dəməşq şəhərinin adını da öz nisbələrinə daxil etmişlər. Əslən Gəncədən olan İsmayıl ibn Əli İbrahim əl-Cənzəvi (ö.588/1192) ikinci nisbə kimi əd-Diməşqi nisbəsi ilə də tanınmışdır[8]. O, Bağdadda Əbu-l-Bərəkət Hibbətullah əl-Buxari kimi böyük alimlərin yanında təhsil almışdır.

Azərbaycanlıların Suriyada yaşayıb fəaliyyət göstərdikləri ikinci böyük şəhər Hələb olmuşdur. Əbu Bəkr Məhəmməd ibn Bərəkə əl-Bərdəi kimi alimə öz həmyerlisi Musa ibn İmran əs-

---

[1] Əliyeva N. Yaqut əl-Həməvi və Azərbaycan. Bakı, 1999, , s. 215
[2] Yaqut əl-Həməvi. Mu'cəm əl-Buldən. Beyrut, 1977, V c., s. 245.
[3] Yenə orada, I c, s. 382.
[4] Yenə orada, II c., s. 239.
[5] Yenə orada, V c., s. 278.
[6] M.Yaşar Kandemir. Ebu Zur'a ed-Dimaşki. İslam ansiklopedisi. İstambul, 1994, 10-cu cildi, s. 272-273.
[7] Yaqut əl-Həməvi. Mu'cəm əl-Buldən. Beyrut, 1977, V c., s. 110.
[8] Yenə orada, II c., s. 172.

Səlmasiyə (v.e.380//990) elm öyrətmək məhz Hələb şəhərində nəsib olmuşdu[1]. Təbrizdə h. 613(1216)-cı ildə doğulan digər azərbaycanlı muqri (Quran oxuyucusu) Məhəmməd Əbdülkərim ibn Əli ət-Təbrizi də Hələbə köçərək orada fəaliyyət göstərən ziyalılardan sayılır[2].

Azərbaycan ziyalıları Şam şəhərlərində Dəməşq və Hələb şəhərləri ilə yanaşı Homsdan olan alimlərlə də təmasda olmuşlar. Səmərqənd şəhərində şərəfinə imla məclisi qurulan bərdəli alim Əbu Bəkr Məkki ibn Əhməd orada məlumat verdiyi alimlər arasında homslu əl-Abbas ibn Cabir adını çəkərək ondan hədis nəql etmişdir[3]. Qeyd etmək lazımdır ki, Şam şəhərlərində fəaliyyət göstərən şeyxlər bəzi azərbaycanlıların bir alim kimi yetişməsində böyük rol oynamışlar. Ədəbiyyat və qrammatika sahəsində tam biliyə malik, dilçilik sahəsinin imamlarından sayılan mükəmməl dil bilən Nizamiyyə mədrəsəsində dilçiliyin tədrisi kafedrasına və oradakı kitabxanaya başçılıq etmiş böyük dilçi Əbu ZəkəriyyəYəhya ibn Əli ibn Məhəmməd ibn Həsən ibn Bistam əş-Şeybani ət-Təbrizi Bağdadda uzun müddət Nizamiyyə mədrəsəsində dərs demişdir. Əs-Səmani onun hədis sahəsindəki fəaliyyətini də qeyd edir[4]. Onun bir alim kimi formalaşmasında müqri Əbül-Əla Əhməd ibn Abdulla ibn Süleyman, Əbülfəth Səlim ibn Əyyub ər-Razi, Əbülqasim ər-Raqqi, Əbdülkərim əs-Səyyari və digər şamlıların böyük rolu olmuşdur[5].

Tarixçi coğrafiyaşünas alim Yaqut əl-Həməvinın Xətib Təbrizi haqqında maraqlı məlumatı vardır. O yazır: “Nağıl edirlər ki, gənc Xətib Təbrizinin Əbul-Əlanın yanına səfər etməsinin səbəbi belə olub. O, Əbu Mənsur əl-Əzhəri əl-Məərrinin “Kitab əl-Təhzib fi-l-luğə” əsərini əldə edir. Kitabı torbaya qoyub çiyninə ataraq Təbrizdən əl-Məərrəyə aparır. Onun minik tutmaq üçün pulu yox idi. Kürəklərindən axan tər kitabı isladır. Bu nüsxə

[1] Yaqut əl-Həməvi. Mu'cəm əl-Buldən. Beyrut, 1977, II c., s. 239.
[2] İbn Həcər əl-Əskalani. Əd-Durər, IV c., s. 142.
[3] Əs-Səmani, Ənsab I c., s. 328.
[4] Yenə orada, s. 469.
[5] Yenə orada.

Bağdadın kitabxanalarından birində mövcuddur. Hadisədən xəbəri olmayanlar ona baxdıqda suya düşdüyünü zənn edirlər. Halbuki, o, yalnız Xətibin təridir[1].

Xətib Təbrizi müəllimi Əbul-Əla əl-Məərri ilə arasında olmuş bir əhvalatla müəlliminin hafizəsinin itiliyini heyranlıqla xatırladır. Xətib Təbrizi müəllimi haqqında belə deyirdi: "Bir dəfə Məərra ən-Nu′manda Əbul-Əlanın məscidinə onun yanında oturub onun təsnifatında bəzi şeyləri onun üçün oxuyurdum". Mən onun yanında iki il idi qalırdım, ölkəmin əhlindən heç kimi bu vaxt ərzində görməmişdim. Bu zaman məscidə qonşularımdan bəzisi namaz qılmaq üçün daxil oldu, mən onları gördüm, onları tanıdım, sevincdən dəyişdim. Əbul-Əla mənə dedi: Sənə nə oldu? Mən ona danışdım ki, iki ildən bəri idi ki, ölkəmin əhlindən bir kəsi görmürdüm, indi qonşumu gördüm. O mənə dedi: Qalx və onunla danış! Mən dedim: Əlimdəki işimi qurtarım, sonra. O isə dedi: Qalx, mən səni gözləyəcəm. Durdum, "əl-Azərbiyyə" dilində onunla çox danışdım. İstədiyim şeylər haqqında ondan soruşdum. Mən qayıdıb onun yanında oturarkən o mənə dedi: Bu hansı dildir? Dedim: Bu Azərbaycan əhalisinin dilidir. O isə dedi: Mən bu dili bilmirdim və başa düşmürdüm, Lakin deyilənləri hafizəmdə saxlamışam. Sonra dediklərimizi sözbəsöz qaytardı. Həmyerlim çox heyrətləndi və dedi: Başa düşmədiyin şeyi necə yadda saxlamaq olar!"[2]

Bu məlumat "əl-Azərbiyyə" dili və suriyalı alimin hafizəsinin itiliyi haqqında xəbər verirsə, digər tərəfdən azərbaycanlı alimin Məərrə ən-Numanda fəaliyyətini göstərir. Beləliklə, Yaxın və orta Şərq xalqları ilə yanaşı azərbaycanlı alimlərin aparıcı qüvvələrinin bir hissəsinin formalaşmasında digər mədəniyyət mərkəzləri iə yanaşı qaynar elmi - mədəni həyatı ilə fərqlənən Şam şəhərlərinin böyük rolu olmuşdur. Azərbaycandan olan alimlər buradakı alimlərlə qaynayıb-qarışmış, Şamdan olan məşhur şəxslərdən dərs almış, bir tərəfdən orada elmi potensialını artırmış, onlardan öyrənmış, digər tərəfdən orada yaşayıb fəaliyyət

[1] Yaqut əl-Həməvi. Mu′cəm əl-Buldən, I c., s. 13.
[2] Yaqut əl-Həməvi. İrşad əl-Ərib. VII c, Misir, 1925, s. 173-174.

göstərən ziyalılarla ədəbi və dini baxışlar haqqında müxtəlif mühazirələrlə çıxış etmiş, elmi mübadilələr etmiş, bəziləri isə orada məskunlaşaraq fəaliyyətini davam etdirmişdir.

## 1.2. Bağdadla əlaqələr

X-XII əsrlərdə islamın mərkəzi olan Bağdad şəhərində kənardan gəlmə alim və şairlərin ədəbi söhbətlərə, yığıncaqlara dəvət edilməsi adət şəklini almışdı. Bağdadın xəlifələri, vəzirləri və digər yüksək mənsəb sahibləri alim və şairləri məclislərinə dəvət etməklə onlara özlərinin ilahiyyat, ədəbiyyat və şeir sənəti sahəsində biliklərinin nümayiş etdirmələrinə imkan verirdilər. Belə açıq mühazirələr üçün hətta məscidlər də istifadə olunurdu. Məscidlərlə yanaşı görkəmli şəxslər məclislər təşkil edirdilər. Hədis bilicilərindən olan Əhməd ibn İbrahim ibn Musa ibn Abdulla əl-Cənzinin atası Əbu Əmr ibn Mundaverhini məclisinə gətirməsi haqqında əs-Səmaninin məlumatı vardır [1].

Bağdada köçərək burada fəaliyyət göstərən alimlər arasında öz nüfuzuna, elmi dünyagörüşünə və səviyyəsinə görə digələrlərindən seçilən alimlər az deyildi. Onlardan Məhəmməd ibn Uşeyr (Aşir ?) ibn Məruf Əbu Bəkr əş-Şirvani (ö. 547/1152) haqqında məlumat verən əs-Safadi onu dövrünün Hibbətullah ibn Mübarək ibn əs-Sakti kimi görkəmli alimi ilə yanaşı qoyur[2].

Digər tərəfdən qeyd etmək lazımdır ki, bu alimin yetişməsində digər alimlərlə yanaşı Şirvan ziyalılarının böyük rolu olmuşdur. Əs-Sübki qeyd edir ki, Əbu Bəkr əş-Şirvani dövrunun digər alimləri ilə yanaşı Şirvan alimlərindən elm öyrənmişdir [3].

---

[1] Əs-Səmani. Kitab əl-Ənsab. Leyden, 1912, v. 21; Yaqut əl-Həməvi. Mu'cəm əl-Buldən, II c., s.172.

[2] Буниятов З.М. Новые материалы о видных деятелях Азербайджана в эпоху средневековья (статья третья) // Изв.АН Аз.ССР, Серия истории, философии и права, 1980, № 2, с. 61; Takiəddin əs-Sübki. Təbaqat əş-Şafiiyyə əl-kubra. IV c. Qahirə, s. 149.

[3] Буниятов З.М. Новые материалы о видных деятелях Азербайджана в эпоху средневековья (статья третья) // Изв.АН Аз.ССР, Серия истории, философии и права, 1980, № 2, с. 61; Takiəddin əs-Sübki. Təbaqat əş-Şafiiyyə əl-kubra. IV c. Qahirə, s. 149.

Məhz bu şəhərdə əslən Qəbələdən olan "əl-Qəbəli" adı ilə tanınan Əbu Bəkr Məhəmməd ibn Ömər əs-Suğri digər alimlər haqqında məlumat vermişdir. Yaqut əl-Həməvi əlavə olaraq məlumat verir ki, indi o qocalmışdır[1]. Bu məlumat Yaqutun qəbələli alimlə Bağdadda iki dəfə görüşməsi haqqında danışmağa əsas verir.

IX əsrin ortaları - X əsrlərdə tərəqqi dövrünü keçirərək artıq X-XII əsrlərdə xüsusi çəkisi artmış Bağdadda Nizamiyyə mədrəsəsinin yaranması azərbaycanlı alimlərin də Bağdadla əlaqəsinin artmasına səbəb olmuşdu.

### 1.3. Misirlə əlaqələr

Misirdə doğulub böyümüş Yusif ibn Məhəmməd ibn Yusif əl-Ərdəbili orada da vəfat etmişdi. Əs-Siləfi yazır ki, o əslən azərbidir. Yusif əl-Ərdəbili Zəkəriyyə əl-Buxaridən, fəqih əş-Şüveyh əl-Urməvidən və müqri Nəsr ibn Əbdüləziz əş-Şirazidən hədis söyləmişdir. Əs-Siləfinin məlumatına görə onun atası Misir qazısı idi. Onunla əs-Siləfi arasında şeirlə (mənzum) yazışma olmuşdu [2].

Azərbaycanlı ziyalılardan bir çoxu Misir diyarına təsəvvüf təriqəti ilə əlaqədar gəlmişdi. Təkcə alimlərinin çoxsaylı olması ilə fərqlənən Urmiya şəhərindən sufi alim Əbu Abdulla əl-Hüseyn əl-Urməvi, Xəlil ibn Osman ibn Xəlil əl-Urməvi əl-Məkki, əsgər qazısı olmuş Şərif Şəmsəddin əl-Urməvi əl-Mısri (v.e. 1252) Misirdə yaşamış, orada hədislər tədris etmişdir. Quran əhlindən olan urmiyalı Xəlil isə şeyxlərlə görüşərək onlardan faydalanmış, sonra Əskəlana səfər edərək orada bir müddət qalandan sonra Damyata getmiş, orada da h. 530-cu ildə vəfat etmişdi[3]. Şərif əl-Urməvi isə zadəgan nümayəndəsi olub əsgər qazısı vzifəsində çalışmışdır[4].

Dəməşqdə 1228-ci ildə anadan olmuş şafii Şihabəddin Əbu Abdulla Məhəmməd əl-Xoyi elmin bütün sahələrində bilikli bir

---

[1] Yaqut əl-Həməvi. Mu'cəm əl-Buldən. IV c., s. 307.
[2] Əs-Siləfi. Əbu Tahir Mu'cəm əs-Səfər / www.mostafa.com, s.253.
[3] Əs-Siləfi. Əbu Tahir Mu'cəm əs-Səfər / www.mostafa.com, s.253, № 212.
[4] Tərbiyət M. Danişməndani Azərbaycan. Bakı: Azərnəşr, 1987, s. 433.

alim olmuşdur. Digər əsərlərindən savayı iyirmi elm haqqında böyük bir kitab yazmışdır. Şihabəddin Qudsdə, Məallədə, Bəhənsəda qazı vəsifəsində fəaliyyət göstərmiş, sonra isə Misirə gələrək baş qazı vəzifəsində çalışmışdır. Onun haqqında deyilmişdir: Əgər Allah tərəfindən Xoylunun Dəməşqə gəlməsi yazılmasaydı, bizdən elm sahibi çıxmazdı [1].

Babu-l-əbvab sakini, tacir Əbulfəth Əhməd ibn Səid ibn Həmdan Fariqi Misirdə olarkən əs-Siləfi ilə görüşmüş, ona Əbunnami Sədəqə ibn İbrahim Tənəvvuxi əl- Məərrinin söylədiyi şeir haqqında danışmışdır. Əs-Siləfi qeyd edir ki, Tənəvvuxi əl- Məərri bu şeiri Şirvanda olarkən söyləmişdir[2]. Şeir Nizamülmülk haqqındadır. Şeirdə deyiIir:"Nizam Əbu Əli bütün aləmin rəhbəri, dinin imamı idi. Onu zülmlə öldürməklə insanlar üçün gündüz gecəyə döndü. Onlar sadəcə bu böyük şeyxi öldürmədilər, əslində bütün camaatı və İslamı öldürdülər". Bizim üçün maraqlı məqam həm də Tənəvvuxi əl-Məərrinin bu şeiri Şirvanda olarkən söyləməsidir. Bu, Şirvanın o dövrdə şeir məclislərinin təşkil olunduğu, şeir yarışmalarının keçirildiyi məkan kimi, mədəniyyət mərkəzlərindən biri olduğunu bir daha təsdiqləyir.

Əslən Cənubi Azərbaycanın Xunəc şəhərindən mənşəyini götürmüş Əfzələddin əl-Xunəci ilk təhsilini vətənində almış, orada işləmiş və sonralar bir çox ölkələri gəzmiş, nəhayət, Misirdə məskulaşmışdı. O, ehramlar diyarında həm dövlət işlərində çalışmış, ictimai-siyasi məsələlərlə məşgul olmuş, həm də yaradıcı alim və möhtərəm müəllim kimi özünü tanıtmışdir[3]. Ömrünün son çağlarında Misirin baş qazısı vəzifəsini tutmuşdur. Orta əsr müəllifləri onun müəllimlik fəaliyyətini yüksək qiymətləndirmişlər. O, ciddi elmi axtarışda olmuş, dərin bilik əldə etmiş, dünyəvi elmlərdə yetkinləşmiş, zəmanəsinin nadir şəxsiyyəti sayılmışdır. Bu fikir təkidlə bir sıra mənbələrdə irəli sürülmüşdür[4]. Əfzələddin əl-Xunəcinin müasiri, onunla Qahirədə h. 652-ci ildə (1254) görüşmüş İbn Əbi

[1] Tərbiyət M. Danişməndani Azərbaycan. Azərnəşr, 1987, s. 435-436
[2] Əs-Siləfi. Əbu Tahir Mucəm əs-Səfər. , www Mostafa com, s. 15
[3] Z.Məmmədov. Azərbaycan fəlsəfəsi tarixi."Şərq-Qərb" nəşriyyatı, Bakı, 2006, s. 192
[4] Yenə orada.

Useybiyə onun bir çox sahələrdə işlədiyini, sonda Misirdə "qadı əl-qudat" kimi yüksək vəzifədə bulunduğunu vurğulayır[1].

### 1.4. Nişapur, Buxara, Mərv, Şaş və Məvəraunnəhrlə əlaqələr

Orta Asiyanın Xilafət tərkibinə daxil olması ilə onun Uzaq Şərq, Cənubi Asiya və Şərqi Avropa ölkələri ilə əlaqələri zəifləyir[2]. Azərbaycanda da belə proseslər baş verir.Xilafət tərkibinə daxil olan Azərbaycanın bəzi olkələrlə əlaqələrinin zəifləməsi, Orta Asiya və Kiçik Asiya ölkələri ilə olan əlaqələrinin sıxlaşması ilə müşayət olunur.Ticarət əlaqələrinin[3]ardınca elmi əlaqələr özünə yol açır. Ərəb fəthlərindən sonra Xilafət tərkibinə daxil olan bu ölkələrlə əlaqələr daha da genişlənir.

Orta əsr mənbələrində Azərbaycan şəhərlərindən Nişapura gələrək Müsəlman renessansının inkişafında rolu olmuş bir sira alimlərimizin fəaliyyəti barədə məlumat verilir. Nişapurda inşa edilən darüssünnədə bərdəli alim Əbu Bəkr Məkki ibn Əhməd Səadaveyh əl-Bərdəinin (v.e.h. 394/1003) şərəfinə imla məclisi təşkil edilmişdi. Bərdəli alimlərdən Əbu Bəkr Əbdüləziz əl-Bərdəi (v.e. 323/934-935) isə hədis dalınca Xilafətin müxtəlif bölgələrinə, o cümlədən Dəməşq, Mosul, Rabat, Misirə, Nissa ilə bərabər Nişapura da səfərlər etmişdir[4].

Əbu Məhəmməd Cəfər ibn Məhəmməd ibn Haris əl-Maraği (h. 321-356/938-966) Nişapura gəlmiş, 60 ildən çox hədis yazmış və vəfat edənədək yazmaqda davam etmişdir. Əl-Marağinin yaradıcılığı haqqında onun nəql etdiyi hədisləri şəxsən dinləmiş nişapurlu əl-Hakim Əbu Abdulla məlumat vermişdir[5].

---

[1] İbn Əbi Useybiyə. Uyun əl-ənbiyə fi təbaqati-l-ətıbbə. Beyrut, 1998.

[2] Толстов С.П.Периодизация древней истории Средней Азии. КСИИМК, XXVIII, М., 1949,с.18.

[3] AMEA Milli Azərbaycan Tarixi Muzeyinin kolleksiyasında olan Azərbaycan ərazisindən tapılmış və üzərində mixi yazısı olan Kiçik Asiya ölkələrindən gətirilmə qab, habelə şüşədən bəzək və məişət əşyaları da Azərbaycanın Kiçik Asiya ölkələri ilə hələ qədimdən geniş ticarət əlaqələrinin olmasını təsdiq edir.

[4] Yaqut əl-Həməvi. Mu'cəm əl-Buldən. I c., s.378; Əliyeva N.Yaqut əl-Həməvi və Azərbaycan, s.217.

[5]əs-Səmani, Ənsab, V c., s. 131.

Təhsil aldıqdan sonra hədis toplamaq üçün Dəməşq, Bağdad, Tripoli, Misirdən sonra 330(942)-ci ildə Nişapura da səfər edən Məkəyyu ibn Əhməd ibn Səadaveyh əl-Bərdəi orada qərarlaşaraq 20 il qalmışdı. 20 ildən sonra isə 350(965)-ci ildə Mavəraunnəhrə hədis səfərinə getmişdi. Burada hədis imlası üçün dərnək yaratmışdı.

Əs-Siləfi Xoy şəhərinin sakinlərindən Xoş Baş kimi tanınan Əbülhəsən Əli ibn Əbi Bəkr ən-Nişapuri əs-Siləfiyə ustad Əbu Osman İsmayıl ibn Əbdürrəhman ən-Nişapuri haqqında bilgi vermişdi. Əbu Osman Nişapurda böyük sufi şeyxi Əbu Səid Fəzlulla ibn Əbulxeyr əl-Meyhəni ilə birlikdə bir saat söhbət etmişlər. Bu vaxtı onlar Sərxəsdə görüşdükləri şeyx Əbu Əli Zahir ibn Əhmədin söylədiyi hədisi xatırlayırlar. Bu hədisə görə "dünya sevgisi hər bir günahın başlanğıcıdır". Ustadın söylədiyi başqa hədislər də onları zənginləşdirmişdi. Xoş Baş təmkinli, sinli bir şeyx olmuşdur. Əs-Siləfi bu sətirləi yazarkən o artıq dünyasını dəyişmişdi.

Azərbaycan ziyalılarından bir çoxu Bağdadda Nizamiyyə mədrəsəsində təhsil aldıqdan sonra bir sıra bölgələrə səfərlərə çıxmışlar.Hakim ibn İbrahim əd-Dərbəndi əl-Lakzi müsəlman qanunlarını əl-Qəzalidən öyrənəndən sonra Buxaraya getmiş və 538(1143-44)-cü ildə vəfat edənə qədər orada qalmışdır[1].

Əs-Səmaninin vətəni və zəngin kitabxanalarını, Yaqut əl-Həməvinin təriflədiyi Mərv şəhərinə Əbülqasim Mahmud əl-Bərzəndi ət-Tiflisi (v.e.h. 505/1111)-ci ildən sonra) səfər etmişdir. O, buradakı hədis məclisində həmyerlisi Əbu Bəkr Tayyib ibn Əhməd əl-Qəzairi əl-Əbyəverdi ilə birlikdə digər həmyerliləri beyləqanlı Əbülməaliyə istinadən hədis nəql etmişdir[2].

Bəzən Azərbaycan ziyalılarından bəzilərinin xoş olmayan sədaları da uzaq şəhərlərdən gəlirdi. Qazı Əbu Bəkr Əbdürrəhman ibn Məhəmməd ibn Ələviyyə əl-Əbhəri Şaşda şəriət məhkəməsi-

---

[1] Yaqut əl-Həməvi.Mu'cəm əl-Buldən, II c., s.394; Əliyeva N.Yaqut əl-Həməvi və Azərbaycan, s. 218.

[2] Əs-Səmani.Ənsab, I c., s. 120.

nə rəhbərlik etmişdir. Əs-Səmani qeyd edirdi ki, Xəlilin qulamı Əhməd ibn Məhəmməd ibn Qalib əl-Bəsriyə və Əbdüssəməd ibn Fəzl əl-Bəlxiyə istinadən hədis nəql etmişdir. Xorasan valisi İsmayıl ibn Əhmədə istinadən münkər hədislər nəql edirdi. Bu hədisləri uydurmaqda ittiham olunurdu. Qəncar onu xatırlayaraq demişdir: "Əl-Əbhəri Buxarada yaşamışdır. Xorasanda şikayətlərə baxan idarəyə rəhbərlik edirdi. Yalançı idi". 342 (1059)-ci ildə Şaş sarayında vəfat etmişdir.

Beləliklə, azərbaycanlı alimlər Xilafət bölgələrinə aşağıdakı səbəblərlə getmişdilər:

1. Elmi dünyagörüşlərini artırmaq üçün;
2. Elm mərkəzlərində yaşayıb-yaratmaq, fəaliyyət göstərmək üçün;
3. Tatarların hücumundan qorunmaq üçün;
4. Kasıblıq onlardan bəzilərinə ruzi axtararaq ölkələri dolaşmağa məcbur etmişdi.

### 1.5. Azərbaycanda ərəb alimlərinin elmi görüşləri

Ərəb müəllliflərі islamı yaymaq üçün Azərbaycana gəlmiş bir sıra sərkərdələrin fəaliyyəti haqqında da məlumat vermişlər. Onlardan Xəlifə Ömərin və Xəlifə Osmanın hakimiyyəti illərində sərkərdə olmuş Hüzeyfə ibn əl-Yəmən (v.e.36/656) Nihavənd savaşından bir il sonra 22/642-ci ildə Azərbaycana hücum edib onlarla sülh müqaviləsi bağlayan ilk sərkərdə idi. Hüzeyfə həm də Məhəmməd peyğəmbərin (s.a.s.) 14 ən yaxın səhabələrindən biri olmuşdur. Hz. Peyğəmbər və Xəlifə Ömər haqqında hədislər söyləyən bu sərkərdə-valinin əl-Buxari və Müslimin hədislər toplusunda 225 hədisi vardır.

Onlardan Bukeyr ibn Abdulla Muğana [1], Suraka ibn Əmr [2] Dərbəndə (Babul-Əbvaba)[3], Əbdürrəhman ibn Rabiə əl-Bəhili

[1] Ət-Təbəri, IV c., s. 157; İbn əl-Əsir,III c.,s. 29.

[2] **Qeyd:** Zu-n-Nur adlı sərkərdə haqqında məlumat verən İbn Makula yazır ki, Suraka ibn Əmrə Zu-n-Nur deyirlər. Seyf ibn Ömər demişdir: "Ömər (r.a.) Suraka ibn Əmri Baba göndərəndə onu Zu-n-Nur da adlandırmışdı. Surakanın vəfatından sonra Əbdürrəhman ibn Rabiə onun yerinə keçdi, Ömər (r.a.) onu bu işə təsdiq etdi ( İbn Makula. İkməl. III c., s.390).

[3] Ət-Təbəri, IV c., s.155; İbn əl-Əsir, III c., s. 28

Azərbaycanın şərq sərhədlərinə [1], Həbib ibn Məsləmə isə Tiflisə[2] islamı yaymaq üçün göndərilmişdi. Vali-sərkərdələr yeni ərazilə-ri öyrənmək, müsəlmanlığı təbliğ etmək, islam dininin mahiyyə-tini yerlərdə camaata başa salıb öyrədə bilməsi, o cümlədən fəth olunmuş ərazidə islam qayda-qanunlarının tətbiqinə nəzarət et-mək üçün döyüşçülərlə birlikdə elm adamları –hafiz, qarelər (Quran oxuyanlar) və tərcüməçilər gətirirdi. Bəzən sərkərdələrlə yerli əhali arasında bağlanan müqavilənin təsdiqi də onların öh-dəsinə düşürdü. Bu ziyalılar dövrün sayılıb seçilən tanınmış simalarından sayılırdı.

Azərbaycanda islamı yaymağa gəlmiş Bükeyrin Muğan əha-lisi üçün yazdığı amannaməyə əş-Şammax ibn Dirar, ər-Rusaris ibn Cunədib və Hamələ ibn Cüveyyə şahidlik etmişdir. "Onlar-dan əş-Şəmmax (h. 24/644) görkəmli şair olmaqla bərabər mü-səlmanların bir çox hərbi yürüşlərində iştirak etmiş və öz şeirlə-rində onların hünər və fədakarlığını vəsf və tərənnüm etmişdir. O, Muğan uğrunda döyüşdə həlak olmuşdu[3]. Ər-Rusaris ibn Cu-nədib və Hamələ ibn Cuveyyə əl-Kinəni ərəblərin sayılan, nüfuz-lu şəxslərindən olmuşlar. Ət-Təbəriyə görə əl-Kinəni Xəlifə Ömərin göstərişi ilə İran şahı ilə danışıqlar aparmaq üçün təşkil edilən heyətin tərkibində iştirak etmişdir. Azərbaycan valisi Mər-van ibn Məhəmmədi yürüşlərdə müşayiət edən Nuh ibn Saib əl-Əsədi və Əbdürrəhman ibn Fulan əl-Haulani isə islam təlimini və Quranı təbliğ edənlərdən olmuşdur. Mərvan ibn Məhəmməd Xəzər xaqanını məğlub edərkən bu ziyalılar onunla birlikdə ol-muş və xaqana islam və Quranın mahiyyətini başa salmışlar[4].

Bəzən əsgərlər arasında Quranın düzgün oxunması barədə mübahisələr gedirdi. Belə mübahisələrin gələcəkdə baş vermə-

---

[1] Ət-Təbəri, Tarix ər-rüsul va-l-mülük. IV c., s.158; İbn əl-Əsir, III c., s. 29

[2] Yenə orada.

[3] Ət-Təbəri. Tərix ər-rüsul va-l-müluk. Azərbaycanın ərəb işğalları dövrü tarixinə aid çıxarışlar / Ərəbcədən tərcümə edən, ön söz, qeyd və şərhlərin müəllifi Cabir İsgən-dərli // Qaynaqlar. Bakı: Nurlan, 2005, s.141.

[4] Куфи Ахмад ибн Асам. Книга завоеваний. Пер.: З.Буниятова. Баку: Элм, 1981, с. 52.

məsi üçün Ərminiyə və Azərbaycanla müharibə vaxtı sərkərdə Hüzeyfə ibn əl-Yəmən Mədinəyə gedərək, Quranın yeni tam və əsaslı şəkildə cəm edilməsi xahişi ilə Xəlifə Osmana müraciət etmişdi[1]. Hüzeyfə ona demişdi: "Ya Əmirə-l-Möminin! bizim dinimizdə olan bu şər`i məhv et ki, Qurana qarşı mübahisəli fikirlərin artaraq yəhudi və xristianların mübahisəsinə bənzəyən mübahisələr yaranmasın[2].

XI əsin sonu – XII əsrin əvvəllərində də islam və onun qayda-qanunları haqqında tövsiyə və təlimat vermək üçün imam və xətiblərdən müxtəlif yerlərə göndərilmişdir. Şirvanşahlardan Fəxrəddin Fariburz oğlu əl-Ədudu qumıqlar üzərində hakim təyin edərkən dəvət etdiyi xətib və imamdan bu işdə istifadə etmişdir [3].

Müsəlman tarixçiləri islam mədəniyyətinin tarixini məlik və əmirlərin həyat yolu əsasında deyil, alimlərin fikri əsasında öyrənirdilər, çünki alimlər peyğəmbərin varisi hesab edilirdilər[4]. Təsadüfi deyil ki, Xətib Bağdadi, əd-Darəqutni, əl-Hakim Əbu Abdulla, İbn Makula, Əs-Səmani, İbn Nöqtə, İbn əs-Sabuni, Əbu Tahir əs-Siləfi, İbn Xəlliqan, İbn Əbi Useybiyə, əl-Cavzi, əl-Qifti,Yaqut əl-Həməvi, İbn əl-Fuvati və digər alimlərin əsərlərindəki məlumatların çoxu elm adamlarının həyat və fəaliyyəti ilə bağlıdlr. Bu müəlliflərdən bəziləri azərbaycanlı ziyalıları ilə ya onların vətənlərində, ya da bölgələrin mədəniyyət mərkəzlərində görüşərək əlaqə saxlamış, gələcək elmi işlərində, onların həyat və yaradıcılıqları haqqında əsərlərində məlumat vermişlər. Bu əsərlərdə Yaxın və Orta Şərqin elm və din daşıyıcıları olan ziyalıları kimi azərbaycanlıların da islam mədəniyyətinin yaranması və inkişafındakı rolu, onların müxtəlif elm mərkəzlərinə səfərləri, elmi əlaqələri, oradakı fəaliyyətləri göstərilir.

[1] İbn Şammə əl-Müqəddəsi. Kitab əl-Murşid əl-vaciz. Ankara, 1982, s. 48.
[2] Остроумов Н.П. Исламоведение. Коранъ. Ташкент, 1912, с.77-78.
[3] Бейлис В.М.Масуд ибн Намдар. Сборник рассказов, писем и стихов. Факсимиле текста, предисловие и указатели В.М.Бейлиса.М.: Наука, 1970, с.41.
[4] Həsənli Hacı Sabir. İslam mədəniyyətində elm, Bakı, 1998, s.27.



***Həririnin məqamətindən seçmələr.***
*Rəssam Yəhya əl-Vasiti. Bağdad, 1237-ci il.*

İlk hicri əsrlərdə yaşayan mühəddislər isnadın önəmli olduğunu vurğulamış və hədisi ilk mənbədən götürmək üçün hədis ədəbiyyatında "rihlə" kimi məlum olan hədis səfərlərinə çıxmışlar. Belə ki, Onlar Rəsulallahın (s.a.s) əshabından bəzi rəvayətləri eşitmələrinə baxmayaraq, öz dediklərinə görə narahat olur, bu rəvayətləri gedib o səhabənin öz dilindən öyrənməyə cəhd edirdilər. Yuxarıda qeyd olunan ərəbdilli müəlliflərin bir çoxu həm də mühəddis kimi hədis səfərlərini yazıya almış, səfər etdikləri şəhərin elmi dini həyatı haqqında, tədris müəssisələri, yerli alimlərlə görüş və diskussiya apardıqları məclislər və s. haqqında bilgi vermişlər.

"Əsmə' ət-tabi'in" ("Tabiilərin adları") əsərinin müəllifi məşhur ərəb təqlidçi alim-geneoloqu Əbülhəsən əd-Darəqutni (918-995) azərbaycanlı alimlərlə yaxın əlaqələr saxlamış, onlar haqqında bilgilər vermışdir. Əbülhəsən əd-Darəqutni azərbaycanlı mühəddislərdən gəncəli İbrahim ibn Məhəmmədu-l-Cənzi (gəncəli-N.Ə.) ilə birlikdə hədislər yazmışdır. O, İbrahim əl-Cənzinin şafii məzhəbi üzrə fiqhi öyrənməsini, kamal sahibi olmasını xəbər verir. Onunla təmasda olan Əbülhəsən informasiyanı yazarkən, o artıq ölkəsinə getmişdi. Sonralar da İbrahim əl-Cənzi ilə əlaqəsini üzməyən əd-Darəqutni onun ölüm xəbərini aldığını yazır[1].

Şeyx Əbu Tahir əs-Siləfi (1085-1180) əl-İsfahani Azərbaycanla bağlı, onun şəhərlərinə səfərləri vaxtı gördüklərini qələmə alan ərəbdilli müəlliflərdən biridir. Əs-Siləfinin böyük nüfuzu idi ki, Fatimi xəlifəsi əz-Zahir əl-Ubeydi h.546/1151-ci ildə İsgəndəriyyədə tikdirdiyi mədrəsəni idarə etmək səlahiyyətini ona vermişdir (11, s.543)[2]. Əs-Siləfi həm də hədis dalınca uzun müddətli səfərlərə çıxması ilə məşhur olmuşdur. Onun səfəri on illərlə davam etmişdir. Bu alim-şeyxin xilafətin müxtəlif bölgələrinə səfərləri onun "Mu'cəm əs-Səfər"("Səfərlər toplusu") adlı əsərin-

[1]İbn-Makula. Əl-İkməl, II c., s.127
[2]Əbdülhadi Məhbubə. Əl-hərəkə əl-elmiyyə fi miəti-l-xəmisəti əl-hicriyyəti və əsəru nizam əl-mülk. Bağdad, 1962-1963, s. 543.

də əks olunmuşdur. Digər müəlliflərdən fərqli olaraq əs-Siləfi də İbn Makula kimi təkcə Cənubi Azərbaycana deyil, həmçinin Araz çayından şimala, Arran və Şirvana da səyahət etmişdir. Onun, xüsusilə, Gəncə, Şirvan, Bab əl-Əbvab, Səlmas alimləri haqqında başqa mənbələrdə olmayan qiymətli məlumatları vardır. Əs-Siləfi Azərbaycanın mədəniyyət mərkəzlərinə səyahəti vaxtı görüşdüyü şeyxlərdən hədis toplamaqla yanaşı özü də onlara hədis öyrətmişdir.

### 1.5.1. Ərəb alimləri Şirvanda

Şirvan alimlərinin formalaşmasında mühüm amil olan elmi mühit bir neçə Şirvanşahlar nəslinin elmi- mədəni fəaliyyəti sayəsində yaranmışdı. Şirvanşahlar elm və mədəniyyətə ətraflı dəstək verməklə məşhur olmuşlar[1]. Şirvan, xüsusilə, Şirvanşah I Fariburz (1063- 1096) və onun vəziri Baha əd-Din Kamal əl-Mülk Əbül-Fərəc Məhəmməd ibn əl-Hüseyn əl-Kakuyinin* dövründə (XI əsrin sonlarında) "torpağına göylərin həsəd aparıldığı" çiçəklənən bir diyara çevrilmişdi[2]. Şirvanşah və onun vəziri təhsilli şəxslərə himayəçilik edirdilər. I Fariburzun sarayında ərəb dilində mədhiyyələr yazan şairlər toplanmışdı. Onların arasında ərəb şairi Əbu İshaq İbrahim ibn Osman ibn Abbas əl-Əşbihi əl-Kəlbi əl-Qəzzinin (441-524/ 1049-50-1129-30) bu diyara səyahət etməsi ərəbdilli poeziyanın ənənəvi janrlarının, əs-Siləfi (h.478/1085- 576/1180) kimi sufi şeyx alimin Şirvana ziyarəti isə bu diyarda fiqh və sufilik, eləcə də hədis elmi geniş yayıldığını göstərir. Əs-Siləfinin Şirvana səyahətindən əsas məqsəd hədis toplamaq, orada yaşayıb-yaradan hafizlər, ilahiyyatçı alimlər,

---

[1]Dorn B. Versuch eyner Geschichte der Schirvanschahe, Mem. De I Ac., IV serie, sc. pol. hist. ph, N, p. 552; Mehrəliyev E.Q. Şirvan Elmlər Akademiyası (X-XIII əsrlər), Bakı: Çaşıoğlu, 2000, s. 11.

*Məsud ibn Namdar onu vəzir oğlu və nəvəsi kimi qələmə verir (Бейлис В.М. Масуд ибн Намдар. Сборник рассказов, писем и стихов. Факсимиле текста, предисловие и указатели В.М.Бейлиса. М.: Наука, 1970, л.13а.)

[2]Бейлис В.М. Масуд ибн Намдар. Сборник рассказов, писем и стихов. Факсимиле текста, предисловие и указатели В.М.Бейлиса. М.: Наука, 1970, v. 13 b; Bünyadov Z.M. Azərbaycan Atabəyləri dövləti (1136-1225) Bakı: Elm, 1984, s. 142.

mühəddislər, qarelər, vaizlər barədə eşitdiklərini dəqiqləşdirmək, onların həyat və yaradıcılığı, inamı haqqında yeni məlumat əldə etmək olmuşdur[1]. Şirvan elmi mühitinin əsas iştirakçıları yerli alimlər idilər. Onlardan biri şirvanlı vaiz Əbülhəsən Əli ibn Əhməd Əli əl-Mufaddid haqqında əs-Siləfi və ona əsaslanan İbn əs-Sabuni (anadan olub h.604 /1207) məlumat verir. O yazır: «Hafiz əbu Tahir əs-Siləfi (Allah ona rəhmət eləsin) "Mucəm əs-Səfər" əsərində əl-Mufaddid əş-Şirvanini xatırlayaraq yazır ki, o, həqiqətən Şirvanın şəhərləri və ona yaxın yerlərdə məşhur sinli bir şeyx olmuşdur. O, dövrünün ən yaxşı vaizlərindən hesab edilirdi. Şirvanın "dər əl-məmləkəti" olan Yəzidiyyədə hörməti vardı. O, əl-Hüseyn ibn Mənsur əl-Həllacın xəbərlərini toplamışdır. Onun haqqında bizə Bağdadda onu dinləmiş bir nəfər rəvayət etmişdir. Sonra Şirvanda onunla görüşüm vaxtı bu ("Xəbərlər") haqda ondan öyrəndim». Bizim bəzi təfsirlərimizdə onun haqqında xatırlanıb"[2]. Digər tərəfdən Dəməşq Universitetində təhsil almış İbn əs-Sabuni bildirirdi ki, Əbül-Qasım ibn Ruvaha əl-Ənsari kimi şeyx alim Azərbaycanın Şirvan bölgəsindən olan Əbül-Həsən əl-Müfəddidin tələbəsi olmuşdur[3]. Bu, Şirvanın özündə elmi mühitin yüksək səviyyədə olmasından xəbər verirdi.

"Əxbaru-l-Həllac" («Həllacın xəbərləri"nin) müəllifi kimi tanınan vaiz, qəssas Əli ibn Əhməd əs-Şirvani haqqında məlumatı digər orta əsr ərəb müəllifi İbn Həcərin "Lisən əl-Mizən" əsərində də verilir. Bu müəllif də əs-Siləfinin Şirvanda olması və Əli ibn Əhməd əs-Şirvani ilə görüşü haqqında yazır.

Şirvanşah I Fariburz kimi Mənuçöhr də filosof, şair və alimlərin qayğısına qalırdı. Bu işin icrasına nəzarəti vəzirlərindən biri olmuş Əmin əd-Din əl-Əxrasiyə həvalə etmişdi. Fələki Şirvani bu vəzirin Şirvandakı filosof, həkim, astroloq, şair və ənənəçilərə

[1] Əliyeva N.A. Əbu Tahir əs-Siləfi və Şirvanın bəzi görkəmli şəxsiyyətləri // Azərbaycan Tarixi Muzeyi – 2006, Bakı: Elm, 2006, s. 27.
[2] Əliyeva N.A. İbn əs-Sabuni Azərbaycanın orta əsr görkəmli şəxsiyyətləri haqqında // Azərbaycan Tarixi Muzeyi-2002. Bakı: Elm, 2002, s.323.
[3] İbn əs-Sabuni.Kitab təkmilət ikməlil-ikməl fi-l-ənsab va-l əsma' va-l əlqab. Mustafa Cavadın nəşri. İraq, 1377/1957, s. 316.

hamilik etməsindən bəhs edir[1]. Xaqani Şirvani Fələki və digər Şirvan şairləri kimi şirvanşah Mənuçöhrü mədh etmişdir. III Mənuçöhr şairlərdən Xaqaniyə saysız-hesabsız mükafat və hədiyyədən başqa hər il 30 min dirhəm məvacib verirdi.

Mənuçöhr vəfat edəndən sonra elm və incəsənətə hamiliyi davam etdirən Axsitanşah (ö.1188-1194-cü illər arasında) onun yerinə keçdi. Bu Şirvanşaha 1188-ci ildə Nizami Gəncəvi də özünün "Leyli və Məcnun" poemasını ithaf etmişdi. S.Aşurbəyliyə görə bu poema Şirvanşah Axsitanın sifarişi ilə yazılmış və Axsitan ona mövzunu sifariş etmiş və poemanı fars dilində yazmağı, lakin ərəb dili elementlərini işlətməyin vacib olduğunu vurğulamışdı[2]. Sevgi haqqında Şərqdə məşhur olan bu poema Azərbaycanın XII əsr romantik poeziyasının zivəsi hesab edilirdi. Nizaminin yaradıcılığı Şərqin bir sıra ölkələrinə - Hindistan, Orta Asiya, İraq, Türkiyə ədəbiyyatına təsir göstərmişdi. Şərqin görkəmli farsdilli şairlərindən Əmir Xosrov Dəhləvi, (1253-1325), Əbdürrəhman Cami (1414-1493), Özbək şairi Əlişir Nəvai (1441-1501), Azərbaycan şairi Məhəmməd Füzuli (1498-1556) və digərləri onun "Xəmsə" əsərini təqlid edən əsərlər yazmışlar. Nizaminin "Leyli və Məcnun" əsərinə isə bir sıra Şərq dillərində 40-dan artıq nəzirə yazılmışdır.

Nizami Gəncəvi bütün ömrü boyu Gəncədən çıxmayaraq burada yazıb yaratmışdır. Mənbələrin məlumatına görə şair sufi dairələrində və əxi təşkilatları ilə yaxından əlaqə saxlamışdır. Qeyd etmək lazımdır ki, dinlə bid'ət arasında gedən açıq mübarizənin çox vaxt ağır faciələrə gətirib çıxarması X əsrdə Bəsrədə yaranmış "İxvan əs-Səfa" cəmiyyətini gizli fəaliyyət göstərməyə məcbur edirdi. "İxvan əs-Səfa" mövcud dinlər arasında mahiyyətcə fərq qoymur, habelə göstərirdilər ki, insanlar öz etiqadında sərbəst olmalıdır. Həmin mütəfəkkirlərə görə elmi biliklərə və yüksək əxlaqi keyfiyyətlərə yiyələnməklə mə'nən "saflaşmaq", kamilləş-

[1] Aşurbəyli S. Şirvanşahlar dövləti. Bakı: 1997, s.160.

[2] Ашурбейли С.Б. Экономические и культурные связи Азербайджане с Индией в средние века.Б., Элм, 1990, с. 91.

mək mümkündür. Bu cəmiyyətə Mərkəzi Asiya, Suriya, İran və başqa yerlərlə birlikdə Azərbaycandan olan elm adamları da toplanmışdı. Onun üzvləri riyazi və təbiət elmlərini, psixika məsələlərini, ilahiyyatı və dini-hüquqi elmləri əhatə edən risalələr (nəsihətnamə) yazmışdılar[1]. Bu risalələr İbn Sinada hələ uşaq ikən maraq oyatmışdı. Onun tələbəsi olmuş Əbu Übeydulla əl-Cuzcaninin məlumatına görə İbn Sinanın atası ismaili idi və hökümət işlərindən azad vaxtlarında "İxvan əs-Səfanın risalələri"ni oxuyardı; İbn Sinanın özü də uşaqlıqda onu tez-tez oxuyardı. Tədqiqatçılardan bəzilərinin ehtimalına görə, "İxvan əs-Səfanın risalələri" Nizami Gəncəvinin ilham mənbəyi olmuşdur[2]. Tarixi mənbələrdə bu cəmiyyətin üzvlərindən yalnız dörd nəfərin adı çəkilir ki, bunlardan da biri Əbülhəsən Əli ibn Harun əl-Zəncanidir.

Mötəzili cərəyanı IX əsrin birinci yarısında Azərbaycanda da geniş yayılmışdı. Xariciliyin nümayəndəsi Bərdədən çıxmış alimlərimizdən Əbu Bəkr Məhəmməd ibn Abdulla əl-Bərdəi (350/961) də mötəzili idi. İbn ən-Nədimin ( X əsr ) müəllifi olduğu "Əl-Fihrist" kitabı onun mötəzilə məzhəbinə mənsubiyyətini bildirən ilk mənbədir[3]. Mütəfəkkirlə şəxsən tanış olan İbn ən-Nədim onu h.340/951-952-ci ildə gördüyünü yazır. Əbu Bəkr əl-Bərdəi ilə söhbətindən onun mötəzili olmasını aydınlaşdıran İbn ən-Nədim əsərində bərdəli alimin əsərlərinin də adını çəkir[4]. Biblioqraflardan İbn ən-Nədimlə birlikdə Xətib Bağdadi (1002-1071) və İbn Həcər (1372-1449) digər bir azərbaycanlı alimi – Əbülhəsən Əhməd ibn Ömər ibn Abdulla əl-Bərdəini mötəzili cərəyanının görkəmli nümayəndəsi kimi təqdim etmişlər. Ərəb müəlliflərinin əsərlərində qeydə alınan məşhur mötəzililərdən Əbu Əli Məhəmməd əl-Cubbai haqqındakı məlumat nəcib və görkəmli alim-mütəkəllim Əbülhəsən əl-Bərdəidən götürülmüşdür.

---

[1] Məmmədov Z.C. Azərbaycanda XI-XIII əsrlərdə fəlsəfi fikir. Bakı: Elm, 1978, s.33.
[2] Закузаде А.К. Состояние философии на Ближнем Востоке в эпоху Низами/Низами Гянджеви // Материалы научной конференции, посвященной жизни и творчеству поэта (3-6 июня 1947 г.) Б.: Изд-во АН Аз.ССР, 1947, с.115.
[3] Məmmədov Z.C. Azərbaycanda XI-XIII əsrlərdə fəlsəfi fikir. Bakı, Elm, 1978, s.20.
[4] İbn ən-Nədim, s.237.

Xaqani Şirvani (1126-1199) yeni şahın yeni seçdiyi paytaxt Bakıda qərarlaşır. Saray şairi kimi qəbul edilən Xaqani uzun illər özünün şairlik yaradıcılığının bir qolunu Axsitan, onun ailəsi və saray əyanlarına mədhiyyə formalı şeirlər yazmaqla məşğul olmuşdur. Bu tip şeirlər şairin divanının xeyli hissəsini təşkil etsə də, gələcək nəsillər üçün yadda qalan hissə onun Şirvanşah və saray əyanlarına yazdığı həcvləridir. Şairin daha sonrakı dövr yaradıcılığında digər hakimlərə həsr etdiyi qəsidələr əsas yer tutur. Xaqaninin Şirvanın süzereni atabəy Qızıl Arslana (1186-1191), Şərqi İranın əzəmətli sultanı Xarəzmşah Təkəş (1172-1200) və digər dövlət başçılarına, o cümlədən, Bizans imperatoru İohan Komnenin qardaşı Kiprin hökmdarı İsak Komnenə[1] həsr etdiyi qəsidə Azərbaycanın beynəlxalq əlaqələrinin öyrənilməsində rolu vardır.

Əsir Əxsikerti (ö.1212) Xaqani ilə görüşüb deyişmək üçün Fərqanədən Şirvana yola düşmüşdür. Xaqani 1194-1199-cu illər arasında Təbrizdə vəfat etmiş, Söhrab adlı şəhər yaxınlığındakı qəbristanlıqda "şairlər məqbərəsi"ndə dəfn edilmişdir. Burada ondan əvvəl Beyləqani (1198) və bir az sonra Zahir Fəryabi və digərləri dəfn edilmişdir.

### 1.5.2. Ərəb alimləri Gəncədə

Azərbaycan ziyalılarının müsəlman elmləri sahəsindəki xidmətləri, onların elmi potensialı alimlərin Azərbaycandakı islam mədəniyyəti mərkəzlərini ziyarət etmələrinə səbəb olmuşdu. Bu mərkəzlərdən biri Gəncə idi. Arranda hökmranlıq edən Şəddadilər sülaləsinin paytaxtı Gəncə artıq X əsrin 70-ci illərindən Bərdəni geridə qoyaraq çox keçmədən Arranın ən iri şəhərinə çevrilir. Bu şəhər artıq Böyük Səlcuqilərin üç ən böyük şəhəri (Mərv,

[1] İsaq Komnen Kipri 1182-1191-ci illər arasında idarə etmişdir. Sonra burada Komnenlərin hakimiyyəti ləğv edilmişdi. Buna səbəb hərbi zadəgan xaçpərəstlərin adada özlərinin xüsusi xristian krallığının yaradılması olmuşdur. Krallığa 1489-cu ilə qədər Luzinyan sülaləsi başçılıq etmişdir. Bax: Крымский А.Е. Персидская литература.., с.149.

Nişapur və İsfahan) ilə yanaşı böyük şəhərlər sırasına daxil olur[1].

Gəncə mədəni sahədə də böyük nailiyyətlər qazanmağa başlayır. Elmin müxtəlif sahələrində, xüsusilə ilahiyyat və hədis elmi sahəsində çalışan azərbaycanlı alimlərin sayı getdikcə çoxalırdı. Xüsusilə IX-X əsrlərdə hədis elmi ilə məşğul olanların sayının daha artdığından, X əsrdə fəaliyyət göstərmiş, Dərbənddə Xilafət torpaqlarını xəzərlərin hücumlarından qorumağa qadir olan çox güclü qarnizon da Suriyadan köçürülmüş əsgərlərdən təşkil olunmuşdu.

Səlcuqlar dövründə islam aləmində ictimai-siyasi əlaqələrlə yanaşı dini-mədəni əlaqələr daha da fəallaşır.. XI əsrdə Gəncəni ziyarət edən alimlərin də sayı artmışdı. Ərəbdilli müəlliflərdən bəziləri şəhərə səfər edərək onun məscidi, kitabxanası, tədris müəssisələri, burada təşkil olunan hədis məclisləri, yerli alimlərlə görüş və müzakirə apardıqları məclislər və s. haqqında bilgi vermişlər.

Artıq XII əsrdə Şirvanşahlarla bərabər Eldəgizlərin də beynəlxalq miqyasda mövqeyi güclənir, ölkənin siyasi-iqtisadi və mədəni əlaqələri genişlənirdi. Qərbin və Şərqin böyük ticarət mərkəzlərini birləşdirən karvan yolları Azərbaycandan keçib gedirdi. Azərbaycan şəhərlərindən bir çoxu, o cümlədən Gəncə strateji əhəmiyyətə malik tranzit məntəqə sayılırdı.

Xilafət bölgələrinin alimləri arasında Azərbaycanın digər şəhərləri ilə yanaşı Gəncəyə də səfər etmiş və bu şəhəri sərhəd şəhəri kimi qeyd edən şeyx Əbu Tahir əs-Siləfi əl-İsfahaninin (1085-1180) adını xüsusi qeyd etmək lazımdır. O, dövrünün nüfuz sahiblərindən olmuşdur. Fatimi xəlifəsi əz-Zahir əl-Ubeydinin 1151-ci ildə İsgəndəriyyədə tikdirdiyi mədrəsənin idarə etmək səlahiyyətini ona verməsi onun böyük nüfuzu sayəsində idi[2]. Azərbaycanla yaxından bağlı olan bu çox görkəmli şəxsiyyətin müəllimləri arasında İlkiyə əl-Hərrasi ilə bərabər Xətib Təbrizinin də adı çəkilir. Əs-Siləfi hədis dalınca uzun müddətli

[1]Sümer Faruk. Eski tüklerde şehercilik. Ankara, 1994.

[2]Əbdülhadi Məhbubə. Əl-Harakə əl-'ilmyyə fi miət əl-xəmsiyyə əl-hicriyyə va əsəru-n-nizamulmulk. Bağdad. 1942/43, s.543.

səfərlərə çıxması ilə məşhur olmuşdur. Onun səfəri on illərlə davam etmişdir. O,Şirvan, Bab əl-Əbvab, Səlmas, Naxçıvanla bərabər Gəncəyə də səfər etmiş, orada çoxsaylı hafizlər, zəmanəsinin tanınmış şeyxləri ilə görüşərək fikir mübadiləsi aparmışdır[1]. Bu alim-şeyxin Xilafətin müxtəlif bölgələrinə səfərləri onun "Mu′cəm əs-Səfər"("Səfərlər toplusu") adlı əsərində əks olunmuşdur[2]. Müəllifin "Mu′cəm əs-Səfər" əsərində Gəncə və gəncəli alimlər haqqında başqa mənbələrdə təsadüf olunmayan qiymətli məlumatlar vardır. Əs-Siləfi, hədis toplamaq arzusu ilə səyahət edərkən dövrünün çoxsaylı tanınmış şəxsləri ilə görüşmüşdür[3]. Hədis toplamaq niyyəti əs-Siləfini Misirdən Yaxın və Orta Şərq, o cümlədən Azərbaycanın bəzi şəhərlərini ziyarət etməsinə səbəb olmuşdu. Bu şəhərlər arasında müəllif Gəncəni xüsusi olaraq qeyd edir. O, Gəncədə olarkən bu şəhəri ziyarətə gəlmiş bir çox alimlərlə görüşmüş, onlardan bəzilərinin nəql etdikləri hədisləri dinləyərək səyahəti vaxtı görüşdüyü şeyxlərdən hədis toplamaqla yanaşı, özü də onlara hədis öyrətmişdir.

Elm mərkəzi kimi Gəncə həm də sufi şeyxlərin toplaşaraq hədis məclislərində fəaliyyət göstərdikləri şəhərlərdən olmuşdur. XI əsrin əvvəllərində Nişapurda yaranmış müxtəlif şaxəli sufilər məktəbinə məşhur şeyx Əbu Səid əl-Meyhani (ö.440/1048-49) başçılıq edirdi[4]. Demək olar ki, o dövrün bütün görkəmli sufiləri bu və ya digər dərəcədə həmin məktəblə bağlı olmuşlar. Azərbaycan və Azərbaycan sufiləri ilə də yaxından bağlı olmuş həmin şeyxin təsəvvüf haqqındakı əsəri Azərbaycan sufiləri üçün rəhbər rolunu oynamışdır. Onun "Kitəbu-t-Təsəvvüf" adlı əsəri B-612 sayı ilə AMEA M.Füzuli adına Əlyazmaları İnstitutunda saxlanılır. Əs-Siləfi özünün qeyd etdiyi kimi yaşıdı olan həmin şeyxin (Əbu Səid Əbü-l-Xeyr əl-Meyhaninin-*N.Əliyeva*) nəvəsi Əbülqasım əl-Meyhani ilə yaxın olmuşlar. Əs-Siləfinin yazdığına görə, bu iki

[1] İbn Xallikan. Kitabu Vəfayət əl-əyan va ənbə`u-z-zaman. I c., Qahirə, 1981, s.31.
[2]İbn Makula. əl-Əkməl fi rəf`ul-irtiyab an əl-mutəlif vəl-muxtəlif fil-əsmaəl-kunə vəl-ənsab, Beyrut, 1990.
[3]İbn Xallikan. Kitabu vəfayət əl- ə'yən va ənbə' əz-zaman. Beyrut, 1998, s. 121.
[4]Бертельс Е.Э.Очерк истории персидской литературы. Л.,1928, s.54.

şəxs arasında sıcaq münasibət olmuşdur. Onlar Bağdadda bir yerdə toplaşır, bir yerdə həccə gedirdi. Əbülqasim əl-Meyhani əs-Siləfinin qiraətlərini Məkkə, Kufə, Bağdadla yanaşı Azərbaycanın bir çox şəhərlərində, o cümlədən Gəncədə dinləmişdir [1].

Gəncənin alimləri arasında qazı Tahir əl-Cənzinin (gəncəli-N.Ə.) xüsusi yeri olmuşdur. Əs-Siləfi "Gəncə şəhərinin əyanlarından olan qazı Tahir əl-Cənzinin fiqh və ədəb elmində fəzilətini xüsusi vurğulayır. Tahir əl-Cənzi Əbülqasim Əli ibn Əbdürrəhman ən-Nişapuri və həmyerlisi Əbülfəz Şaban ibn Əli ibn Məhəmməd əl-Bərdəi haqqında məlumat vermişdir. Əbülfəz əl-Bərdəi onun fiqh üzrə müəllimi olub. X əsrdə bərdəli nisbəsilə məşhur olan alimlərin bir qismi müxtəlif dini mərkəzlərə səfər edərək o yerlərdə qalıb fəaliyyətlərini davam etdirir, digərləri öz vətənində qalıb elmin sirrini həmvətənlərinə öyrədirdilər. Çox guman ki, Əbülfəz Şaban ibn Əli də bu qəbil alimlərdən olmuşdur.

Gəncəni ziyarət edən alimlər arasında öz dovrünün tanınmış simalarından sayılan İbn Makulanı (1030-1082) da qeyd etmək lazımdır. Ərəb ədəbiyyatı tarixində mavlə, böyük əmir, alim, tarixçi, ədib, hafiz, tənqidçi, nəssəbə (genealogiya ilə məşğul olan alim – N.Ə.) kimi məşhur olan Əbu Nəsr Əli ibn Hibbətullah ibn Makula (1030-1082) Bağdadda vəzirlər, qazılar yetişdirən hörmətli, sayılıb-seçilən bir ailədə doğulmuşdur. Bir çox mənbələrdə onun Azərbaycanla bağlı adı çəkilir. O, Bağdadda olarkən azərbaycanlı şafii fəqihi, hədis ravisi dövrün nəhəng alimlərindən Əbu İshaq əş-Şirazinin tələbəsi Bədilibn Əli əl-Bərzəndi İbn Makulanın özünün şeyxlərinə hədis nəql etmişdir [2]. İbn Makula Gəncə səfəri zamanı ziyarət etdiyi yerlər arasında Gəncə məscidi və kitabxanasının adını çəkir. Yuxarıda adı çəkilən Gəncə qazısı Tahir əl-Cənzinin məlumatına əsaslanan əs-Siləfi yazır: "Sultan və vəziri Nizamülmülk Arraniyyəyə (ola bilsin ki, Gəncədəki came məscidi belə adlanırdı – N.Ə.) çatanda İbn Makula da

---

[1] Əs-Siləfi Əbu Tahir Əhməd bin Məhəmməd. Mucəm əs-Səfər. www.al-mostafa.com. №550.

[2] İbn Makula. əl-İkməl fi rəf`il-irtiyab an əl-mu'təlif vəl-muxtəlif fil-əsma va-l kunə va-l ənsab. Beyrut, 1990, I c., s. 218-219.

buranı ziyarət edənlər arasında idi”[1]. Bu məsciddə o, iki rükət namaz da qılmışdı.

Gəncədəki kitabxanada İbn Makula Gəncə kitabxanasının mühafizi naxçıvanlı Xodadad ibn Asim ən-Nəşəvi ilə görüşmüş, burada onun hədislərini dinləmişdir[2]. “Kitab əl-Ənsab” əsərinin müəllifi əs-Səmani (1113-1167) naxçıvanlı Xodadad ibn Asimi bağdadlı hafiz İbn Makulanın şeyxi kimi təqdim edir. Yeri gəlmişkən qeyd edək ki, Xodadadın İbn Makula kimi tanınmış şəxsiyyətin şeyxi hesab edilməsi naxçıvanlı alimin böyük nüfuzunun olmasını göstərir. İbn Makulanın özü Xodadad haqqında məlumat verərək göstərir ki, o, Bağdadda və başqa şəhərlərdə hədis nəql etmişdir. İbn Makula onun hədis nəql edərkən istinad etdiyi alimlər kimi Əbu Nəsr Əbdülvahid ibn Hübeyrə əl-Qəzvini, əl-Həsən ibn Əli, Əbu Müslim Əbdürrəhman ibn Ğəzv əl-Əttar ən-Nihavəndi, Şüeyb ibn Saleh ət-Təbrizini göstərir. İbn Makulanın yazdığı kimi, naxçıvanlı şeyxin nəql etdiyi hədisləri isə İbn Makula Gəncədə olarkən ondan dinləmə yolu ilə öyrənmişdi[3]. Bu isə bir daha mədəniyyət mərkəzlərində mövcud olan hədis evlərinin Gəncədə də fəaliyyət göstərməsi ilə yanaşı, Xilafətin digər mədəniyyət mərkəzləri alimlərinin Gəncədəki fəaliyyətini göstərir.

Coğrafiyaşünas səyyah-tarixçi Yaqut əl-Həməvinin məlumatına görə, ərəb və fars dillərində zəngin kitab fondlarından biri də Gəncədə yerləşmişdi. Belə kitab fondları olan kitabxanalar bütün arzu edənlər üçün açıq olurdu. Bura gələnlər qiraət və kitabların üzünü köçürməklə məşğul olurdular. Kənardan gələnlərə mürəkkəb və qələm verirdilər, elmin müxtəlif sahələrində işləyən alimlər isə maaşla təmin olunurdu. Belə kitabxanalarda məşhur alimlər iştirak edir, onların disputları təşkil edilirdi [4].

---

[1] Əs-Siləfi Əbu Tahir Əhməd bin Məhəmməd. Mu'cəm əs-Səfər. www.al-mostafa.com, № 398.

[2] Əbdülkərim əs-Səmani. Kitab əl-Ənsab. Beyrut. 1998, V c., s. 387-388.

[3] İbn Makula. əl-İkməl fi rəf`il-irtiyab an əl-mu'təlif vəl-muxtəlif fil-əsma va-l kunə val-ənsab, Beyrut, 1990, VI c., s. 289.

[4]Халидов А.Б. Арабские рукописи и арабская рукописная традиция. М., Наука, 1985, с.192.

Əs-Səmaninin məlumatından aydın olur ki, İbn Makula burada Gəncə kitabxanasının mühafizi Əbülfəzl Xodadad ibn Asim ən-Nəşəvinin hədislərini dinləmişdi[1]. Bu fakt Yaqut əl-Həməvinin (1178-1179/1227) məlumatının dəqiqləşdirilərək Gəncə kitabxanasının hələ İbn Makulanın yaşadığı dövrdə (XI əsrdə) və bəlkə də ondan əvvəlki dövrdə fəaliyyət göstərməsini təsdiq edir. Bundan əlavə İbn Makula və Əbu Tahir əs-Siləfi kimi sufi alim şeyxlərin Gəncəni ziyarət etməsi, İbn Makulanın Gəncədə əs-Səmaninin "İbn Makulanın şeyxi" kimi təqdim etdiyi naxçıvanlı Əbülfəzl Xodadad ən-Nəşəvi ilə görüşərək fikir mübadiləsi etməsi bu şəhərin elmi mühitində sufiliyin önəmli rol oynamasını göstəməklə yanaşı Gəncə kitabxanasının mühafizinin böyük nüfuz sahibi olmasını göstərir.

Gəncə şəhəri bir çox görkəmli şəxsiyyətlər yetirmişdir. Nizami Gəncəvi kimi bir düha Gəncədə yazıb-yaratmışdır. XI əsrin sonlarında yaşayıb fəaliyyət göstərmiş Azərbaycanın böyük şairlərindən Qətran Təbrizi dəfələrlə Gəncədə olmuşdur. Ola bilməz ki, belə yüksək səviyyəli ziyalıları olan şəhərin elmi-mədəni mühitinin göstəricilərindən biri olan təhsil müəssisələri olmasın. Gəncədə bir çox alimin harada təhsil alması sualı bir çox tarixçiləri düşündürmüşdü. "Gənclik illərini kitablara sərf etmiş" Məsud ibn Namdar harada təhsil almışdı, Gəncədə Nizamiyyə tipli mədrəsələr mövcud olmuşdurmu? Bu fikir Məsud ibn Namdarın məcmuəsinin faksimilesini nəşr edən və ona geniş müqəddimə yazmış prof. V.Beylisi də düşündürmüşdü, lakin, faktın yoxluğu üzündən o, bu suala cavab tapa bilməmişdi [2]. Əbu Tahir əs-Siləfinin (1085- 1180) "Mu'cəm əs-səfər" əsərinin tədqiqi yeni faktı əldə etməyə imkan verdi. Əs-Siləfi bu əsərindəAzərbaycan və onun bir çox şəhərləri, o cümlədən Gəncə və onun Nizamiyyə mədrəsəsi haqqında məlumat verir. Səlcuqlar dövründə müdər-

[1] Əbdülkərim əs-Səmani. Kitab əl-Ənsab. Beyrut. 1998, V c., s. 387-388.

[2] Бейлис В. Сочинения Масуда ибн Намдара как источник по истории Аррана и Ширвана нач. XII в. и памятник средневековой арабской литературы. Автореферат диссертации на соискание ученой степени доктора исторических наук. Баку, 1975.

rislər mədrəsələrin baş müəllimləri hesab edilirdi. Onlar sultanlar və vəzirlər tərəfindən təyin edilirdi. Nizamülmülk vəzirliyi dövründə müdərrisləri özü təyin edirdi. Sultan Səncərin (1096-1157) də müdərrisləri təyin etdiyi məlumdur[1]. Gəncədəki mədrəsədə qazı Əbu Abdulla Məhəmməd ibn Əli ibn Məhəmməd ət-Təbəri kimi müdərris fəaliyyət göstərmişdir. "Parlaq zəkalı" bu şəxs oradakı təhsilə rəhbərlik etmişdir. Əbu Abdulla ət-Təbəri həmin mədrəsədəki tədrisə rəhbərlik edərkən yaxşı işləmiş, onun idarəçilik qabiliyyəti daha da artmışdı" [2].

Gəncədə Nizamülmülkün onun atası üçün tikdirdiyi mədrəsədə müdərris vəzifəsində çalışmışdır. Şeyx əs-Siləfi"Mu′cəm əs-Səfər" əsərində qeyd edir ki, Gəncədə olarkən "Öz zəkası ilə işıq saçan" Əbu Abdulla Məhəmməd ibn Əli Məhəmməd ət-Təbəri onu öz şeirlərində tərənnüm etmişdi. Gəncəli müdərris əs-Siləfiyə onu tərənnüm edən şerini oxumuşdu.

Xilafətin mədəniyyət mərkəzlərində yaradıcılıqla məşğul olmuş azərbaycanlı ziyalıların bəzilərinin həyatlarının müəyyən hissəsi da vətənləri ilə bağlı olmuşdur. XII əsrin ərəbdilli ədibi əslən Gəncədən olan Əbu Həfs Ömər ibn Osman ibn Şüeyb əl-Cənzinin (v.e. 1155-ci ildə Mərvdə) Nişapurda Nizamülmülkün oğlu Fəxrülmülkün (v.e.1106-cı ildə) uşaqlarına dərs deməsi gəncəli müdərrisin tədris işində mahir ustad olduğunu göstərir. Fəzilət sahibi, dindar, xoş rəftarlı bu ədib Bağdadda qaldığı müddətdə böyük alimlərlə, o cümlədən Əbülmüzəffər əl-Əbivərdi ilə dostlaşaraq ondan elm öyrənmişdi. Əbu Həfs Ömər ədəb elminin sirlərini dərindən mənimsəmək niyyəti ilə Bağdaddan sonra Həmədanda da bu alimin yanında təhsilini davam etdirmişdir. Sərxəsdə Əbu Həfslə görüşən əs-Səmani onun özündən eşitdiyi şeirlərindən parçalar yazmışdır. Əbu Həfs Bağdadda təhsil aldıqdan sonra vətəni Gəncəyə dönmüş, sonra isə ikinci dəfə Bağdada qayıtmış, yetmiş yaşında vəfat etmişdir. L.Orucova və Z.Şıxalibəy-

[1]Mehmet Altay Köymen. Alp Arslan ve zamanı, Ankara, 1983.

[2]Əs-Siləfi Əbu Tahir Əhməd bin Məhəmməd. Mu′cəm əs-Səfər. www.al-mostafa.com. №1177.

li yazır ki, bir çoxlarına görə Ömər ibn Osman əl-Cənzi Nizami Gəncəvinin dayısı olmuşdur [1].

Xilafət alimləri Gəncəyə gəldiyi kimi əsli Gəncədən olan alimlər də Yaxın və Orta Şərq şəhərləri, o cümlədən Bağdad və Dəməşqdə elmi fəaliyyətlərini davam etdirmişlər. Onlardan Əslən Gəncədən olan İsmayıl ibn Əli İbrahim əl-Cənzəvi (ö.588/ 1192) məskunlaşdığı Dəməşq şəhərinin adını da özünə ikinci nisbə kimi qəbul edərək, həm də "əd-Diməşqi" nisbəsi ilə də tanınmışdır[2]. O, Bağdadda Əbul- Bərəkət Hibbətullah əl-Buxari kimi böyük alimlərin yanında təhsil almışdır.

Səlcuq dövrünün mənəvi mühitini səciyyələndirən xüsusiyyətlərdən biri o idi ki, yerli alimlər səlcuq aristokratiyasına mühüm təsir göstərə bilirdi (4, c.48). Nizamülmülk kimi vəzirləri və bəzi dövlət məmurlarını bu qəbildən hesab etmək olar. Yerli feodalların mənafeyini müdafiə edən səlcuqların sünnü məzhəbində olmasına baxmayaraq onlar şiə və sünnülər arasında münaqişələrin dinc yolla həllində böyük rol oynayırdılar. Onların hakimiyyəti o dərəcədə güclənmişdi ki, hətta məşhur Nizamülmülk özünü hökmdarın şəriki hesab edirdi[3]. Ortodoksal islamın bərqərar olması yönündə də onun özü və oğlu nümunə göstərirdi. Ərəbdilli bioqrafik müəlliflərdən İbn Makula (ö. 1095) bu şəxsiyyətin Azərbaycanın bir çox şəhərlərində təşkil olunmuş hədis məclislərində iştirakı və hədislər söyləməsi barədə belə yazırdı: Nizamülmülk Qivaməddin Qiyasəddövlə vəzirlər vəziri Əbu Əli əl-Həsən ibn Əli ibn İshaq Tusda anadan olmuş, bir çox mühəddislərin söylədikləri hədisləri dinləmiş, özü də Mərvdə, Nişapurda, Reydə, İsfahanda, Bağdadda, bütün Xorasanda, Arranın Bərdə və Beyləqan və digər şəhərləri ilə yanaşı Gəncədə də hədis nəql etmişdir.". Nizamülkün yanında təşkil olunan hədis məclislərin-

[1] Оруджева Л.М., Шихалибейли З.Е. Развитие арабской филологии в Азербайджане. Баку, Нурлан, 2004, с. 25

[2] Məmmədəliyev V. M. Bəsrə qrammatika məktəbi. Bakı: ADU, 1983, s. 172.

[3] Бертельс Е.Э. Великий Азербайджанский поэт Низами. Баку,изд-во Аз ФАН, 1940, с. 13.

də Azərbaycandan olan hədis biliciləri iştirak edirdi. Belə məclislərin birində hafiz İshaq İbrahim ibn Əzhər əl-Mərəndnin hədis nəql etməsi barədə İbn Makula məlumat verərək yazırdı: "əl-Mərəndi şeyxdir, onu Nizamülmülkün qapısında atasından, onun da Əbu Səid ibn əl-Ərabidən hədis nəql etdiyini gördüm[1] .

Dini mövzularla bağlı mübahisələr Səlcuqlar dövründə də davam edirdi. 1122-ci ildə Tiflisi tutan çar David şəhərin müsəlman əhalisinə bir sıra güzəştlər vermişdi. Dini ibadətləri icra etmək yenə də şəhərdə icra oluna bilərdi. Tiflis şəhərində müsəlman əhalisinin təhqirinə yol verməmək üçün şəhərdə donuz kəsmək qadağan edilmişdi. Şəhərdə gürcü hökmranlığı dövründə ərəb əlifbası ilə yazılmış sikkələr kəsilirdi. Burada Allahın adı çəkiləndən sonra Məhəmməd peyğəmbərin (s.a.s.) adı yad edilirdi. David və onun oğlu Demetre Tiflisdə came məscidini ziyarət etmiş, xütbə və Qurana qulaq asmışdı. O, gəlmə tacirlər üçün karvansara, zahid dərviş-sufilər, şairlər üçün evlər tikmiş, təqaüdlər kəsmişdi. David xüsusilə müsəlman ilahiyyatçıları arasında baş verən ehtiraslı mübahisələrə maraq göstərirdi. O, Gəncə şəhərinin qazısı ilə Quranın əbədi olması barədə söhbətə qoşulmuşdu[2].

Azərbaycanın Bərdə, Gəncə, Təbriz, Naxçıvan, Xoy, Urmiya, Mərənd, Uşnu, Bərzənd, Dərbənd, Sərav, Miyanə, Varsan, Bərdic, Beyləqan, Miməz kimi şəhərlərindən çıxan və özlərinə yüksək mövqe və şöhrət qazandıran ziyalılarımızla tanışlıq bu şəhərlərdə mədəni həyatın inkişaf səviyyəsini müəyyənləşdirməyə imkan verir. Əbu Tahir əs-Siləfi kimi alim şeyxlərin isə Gəncə ziyarətində yerli alimlərlə görüşərək elmi mübadilə aparması yerli mədəni mühitin abu-havasından xəbər verir. Digər tərəfdən XII-XIII əsrlərə aid arxeoloji qazıntılar zamanı Beyləqanda və Gəncədə şirvanşahlar, Əhər məlikləri və gürcülərlə yanaşı Kiçik

[1] İbn Makula. İkməl. VII c., s.240.

[2] Петрушевский И.П. Совместная борьба народов Закавказья против иноземных захватчиков в Х1-ХП вв. АН СССР, Изв. Филиал Аз.ССР, № 10, 1942, с. 32.

Asiya səlcuqilərinə aid sikkələrin tapılması bu şəhərlərin ticarət mühiti ilə yanaşı qaynar mədəni və elmi əlaqələrinin də inkişaf etməsindən xəbər verir[1].

Artıq XIII əsrin II yarısından XV əsrə qədər olan dövr ərəb dilinin yayılma sferasının daralması, bu dildə ədəbi və elmi yaradıcılığın vüsətdən düşməsi, ərəb dilində yazılmış kitabların kütləvi şəkildə məhv edilməsi ilə xarakterizə oluna bilər. A.B.Xalidov daha da irəli gedərək göstərir ki, bu dövrdə Məğribdə, İraq və İranda ayrı-ayrı görkəmli yazarların görünməsi, hətta dərin tənəzzül şəraitinin olduğu XVI-XVIII əsrlərdə iri intellekt (erudisiya) abidələrinin üzə çıxması, xüsusilə ədəbiyyatın "min bir gecə" sadə xalq ədəbi yazıları ilə zənginləşməsinə baxmayaraq tənəzzülün ümumi səviyyəsini dəyişdirmək mümkün olmadı (12, s.218-219). Bu vəziyyət digər bir şərait də yarada bilmişdi. Səlibçilər və monqollar üzərində qələbə Misir və Suriyanın müsəlman mədəniyyəti mərkəzi kimi əhəmiyyətini artıra bilmişdi.

### 1.5.3 Digər Azərbaycan şəhərlərində

Xilafətin mədəniyyət mərkəzlərində təhsil alaraq vətəninə qayıdan alimlər digər mədəniyyət mərkəzlərində öyrəndikləri hədisləri öz vətənlərində hədis məclilərində nəql etmişlər. Onların arasında Əbülqasim Mahmud ibn Yusif ibn Hüseyn əl- Bərzəndi ət-Tiflisini (v.e. h.505-ci ildən sonra) qeyd etmək lazımdır. O, Bağdadda şeyx Əbu İshaq əş-Şirazidən fiqhi öyrəndikdən sonra vətəninə qayıtmışdı. Vətənində isə əs-Səmaninin ifadəsi ilə deyilsə "İki şərafətli adama-Əbülhüseyn Məhəmməd ibn Əli ibn Mühtədi Billah və Əbülğənaim Əbdüssəməd ibn Əli Məmun əl-Haşimiyyəyə istinadən hədis nəql etmişdir"[2].

Azərbaycanın mədəniyyət ocaqlarından Təbrizdə də ədib, fəqih və digər ihahiyyatçı alimlər toplaşaraq cəm olur, müxtəlif mövzularda ədəbi yarışmalar (mukatabat), Xilafətin digər şəhər-

[1] Ахмедов Г.М. Города Азербайджана XII начала XIII в. в свете новых археологических исследований. Альманах Низами Гянджеви. Книга первая. Б., 1984, с. 86.
[2] Əs-Səmani. Ənsab, I c.,s. 120.

lərindən bu şəhəri ziyarətə gəlmiş mühəddislər buradakı hədis evlərindəhədislər söyləyir, yerli alimlər tərəfindən müzakirələr və diskussiyalar təşkil olunurdu.

Gözəl dilçilik üzrə görkəmli alim Məcdəddin Əbül-Fəzl Əhməd ibn Əbu Bəkr ibn Əbu Məhəmməd əl-Xavarani haqqında İbn əl-Fuvati məlumat verir[i]. Görkəmli ərəb ensiklopedist alimi və səyyahı Yaqut əl-Həməvi də özünün "Mu'cəm əl-üdəba əsərində onu yad edərək yazır ki, "Mən Təbrizdə onunla görüşdüm. Qarşımdakı dilçiliyi gözəl bilən, ağıllı, Quranı əzbərdən bilən layaqətli bir gənc idi". Yaqut əl- Həməvi onunla h. 617(1220-21)-ci ildə ayrılmışdı. O, h. 620-ci ildə vəfat etmişdi [1].

Yaqut əl-Həməvinin Təbrizə səfərlər etməsi əsasən kitab ticarəti ilə bağlı olmuşdur. Bu zaman o kitabxanalarda kitablarla tanış olub, bəzilərinin üzünü köçürür, qiymətli kitabları əldə etməyə çalışırdı.Yaqut əl-Həməvi xəbər verirdi ki, Təbriz şəhərində əl-Cavhərinin "əs-Sihah" əsərinin surətini tapmışdır[2]. Əsərin digər nüsxəsini də Dəməşqdə əldə etməsi Yaqutun hər iki nüsxəni tutuşduraraq faəliyyətində istifadə etmək istəyi ola bilərdi.

Onun əlyazma və kitablara olan sevgisi üç il Mərvdə qalmasına səbəb olmuşdu. Hələb valiliyinin vəziri Camal əd-Din əl-Qiftiyə göndərdiyi məşhur məktubunda Yaqut yazırdı: "Mən orada cildləri əql sahibləri tərəfindən yazılmış müxtəlif elmlərə dair bəzi kitabları tapdim. O vaxt ki, mən onları öyrənirdim, onda nə ailəni, nə ölkəni, nə də həqiqi dostları və evi fikirləşirdim"[3].

Beləliklə, Azərbaycanın şəhərlərində elmi məclislər fəaliyyət göstərmiş, digər bölgələrin şeyxləri bu şəhərlərə səfər edərək burada öz həmkarları ilə fikir mübadiləsi aparmışlar.

Ərəbdilli mənbələrin Azərbaycanın şəhərlərindən çıxmış çox sayda alimləri haqqında məlumat verməsi, ətraf vilayət və şəhər-

---

[1]Сейидбейли М. Научно-культурная жизнь Азербайджана (второй половины XIII-начало XIV в. Баку: 1999, с. 56
[2]Yaqut əl-Həməvi. İrşad əl-Ərib, II c., s. 270
[3]İbn Xallikan. Vəfayət əl-Əyan, s. 352

lərdən ziyalıların Azərbaycana gəlməsi və bu diyardan olan ziyalıların dövrün müxtəlif mədəniyyət mərkəzlərinə səfərlərindən sonra vətənlərinə dönərək fəaliyyətlərini davam etdirməsi, buradakı yerli ziyalı mühitinin formalaşmasını göstərməklə bərabər Azərbaycanın Xilafətin digər bölgələrinin alimləri ilə elmi-mədəni əlaqələrini sübut edir.

Xilafətin mədəniyyət mərkəzlərini ziyarət edən azərbaycanlı alimlər bu elm mərkəzlərindəki müxtəlıf elm ocaqlarında həm təhsillərini artırmış, həm elmi yaradıcılıqla, həm də tədrislə məşğul olmuşlar.

# II FƏSİL

# TƏHSİL MÜƏSSİSƏLƏRİ VƏ TƏDRİS ÜSULLARI

## 2.1. İlkin elm və təhsil ocaqları

Başqa fəth olunmuş ölkələrin əhalisi kimi, azərbaycanlıların da islama keçməsi ərəb dilinin öyrənilməsi məcburiyyətini ortaya çıxarırdı. Yerlı əhali Quranın həqiqətlərindən xəbərdar olmaq üçün ilk növbədə müqəddəs kitabın yazıldığı ərəb dilini öyrənməyə məcbur idi. Digər tərəfdən, bu məcburiyyəti səbəbləndirən amillərindən biri müsəlmanın yerinə yetirməsi vacıb olan namazın yalnız Quranın dilində qılınmağın məqbul sayılması idi. Tərcümə yolverılməz hesab edilirdi. İslam dini mərasimlərinin hər yerdə ərəb dilində icra edilməsi, qalib ərəb orduları ilə ünsiyyət saxlamaq üçün zəruri olaraq ərəb dilindən istifadə olunması, Xilafətin divan işlərinin ərəb dilində aparılması və s. tədricən bu dilin hakim dilə çevrilməsinə şərait yaradırdı. Ərəb dili islam aləmində latın dilinin Avropada oynadığı rolu oynayırdı[1].Odur ki, qısa müddətdə ərəb dili fəth olunmuş ölkələrin əhalisinin dilini sıxışdırmağa başlayır, ədəbi məclislərin, ziyalılarının rəsmi dili ərəb dili olur. Bu işdə Xəlifə Əbdülməlik ibn Mərvanın (65-86/685-705) əlifba islahatı, divanların ərəbləşdirilməsi, ərəb dilinin Xilafətin rəsmi dili elan edilməsi sahəsində həyata keçirdiyi tədbirləri Xilafətin tərkibində olan xalqların da dinini, mədəniyyətini, yazılı abidələrini əvvəlkindən daha artıq sıxışdırmağa başladı. Bir sözlə, ərəbləşdirmə siyasəti son dərəcə sürətlə aparılırdı. V.V.Bartold göstərirdi ki, ərəb dili nəinki islam dinini qəbul etmiş ölkələrin əhalisi arasında, həm də müsəlman olmayanlar arasında da dövlət dili kimi yayılmağa başladı [2].

---

[1] Məmmədəliyev V.M. Kufə qrammatika məktəbi, Bakı: ADU, 1988, s.8.
[2]Бартолъд В.В. Культура мусулъманства. Петроград, Огни, 1918, s. 25.

İslamlaşma, Quranın öyrənilməsi, Qurana aid ədəbiyyatın geniş yayılması tədris müəssisələrinin (ruhani məhəllə məktəbləri, mədrəsələr, təkyələr) tikintisinə güclü təkan verdi[1]. Naxçıvanı Azərbaycanın yaxşı şəhərlərindən hesab edən əslən Bakıdan olan orta əsr coğrafiyaşünas-səyyah Əbdürrəşid əl-Bakuvi (XIV əsr) bu diyarın təsvirini verir və göstərir ki, şəhəri şərəfləndirən onun mədrəsələri, imarət və xanəgahlarıdır[2]. 1263-1284-cü illərdə Naxçıvana aid verilmiş bir fərmanda isə buradakı mədrəsələrin dini xeyriyyə idarəsinə məxsusluğu göstərilir.[3] Həmin fərman deməyə əsas verir ki, Müsəlman Şərqində məscid, mədrəsə, kitabxana, xəstəxana və s. bu kimi ictimai müəssisələrin təsisi ənənəsi Azərbaycan Atabəylər dövləti dövründə Naxçıvanda da geniş davam etdirilmişdir. Mədrəsələrin məqbərələr və məscidlər nəzdində olması və fəaliyyəti nəinki dini məfkurənin təsirinin artırılmasını, həmçinin onların maliyyə xərclərinin mənsub olduqları məqbərə və ya məscidin vəqfləri hesabına təmin edilməsini şərtləndirirdi. İslamı daha geniş yaymaq məqsədilə böyük şəhərlər salınarkən və ya bərpa edilərkən dini binaların tikintisinə xüsusi diqqət verilirdi. Bunlardan biri Naxçıvanın abidələri arasında özünün çox böyük ölçüləri ilə fərqlənən, lakin zəmanəmizə qədər gəlib çatmamış Ordubad Cümə Məscidi (XII əsr) idi. Təsadüfi deyil ki, Naxçıvanda olmuş səyyahların diqqətini uzun müddət Möminə Xatun Türbəsi deyil, məhz bu dini abidə cəlb etmişdir[4]. Bundan başqa Naxçıvanın hər bir küçəsində çarhovuzu olan xüsusi məscidlər də fəaliyyət göstərmişdir. Onlar adətən böyük olmayan meydanlarda yerləşərək məhəllə camaatının toplaşdığı yer olmuşdur[5]. Azərbaycan Atabəyləri hakimiyyəti dövründə inşa edilən müxtəlif səciyyəli binalar arasında mədrəsələr də xüsu-

[1]Шихсаидов А.Р. Арабский халифат и Северный Кавказ // Проблемы исламизации Дагестана-Пути, реальные силы, последствия. Взаимовлияние цивилизаций на Востоке. Тезисы докладов и сообщений, т. II. М.: 1988. s. 52.

[2] Ал-Бакуви Абу ар-Рашид. Китаб талхис ал-асар ва аджаиб ал-малик ал-каххар. Пер. и комм.З.М.Буниятова. М.: Наука, 1971, s. 99.

[3] Nuri Topaloğlu. İbn Makula. İslam Ansiklopedisi, c. 20. İstanbul, 1999, s. 57-60.

[4]Azərbaycan tarixi üzrə qaynaqlar / S.Əliyarlının redaktəsi ilə. 2007, Bakı: Çıraq, s. 187.

[5]Салаева Р. Нахчыван. Наследие архитектуры. Баку: Азербайджан, 2002, s. 94.

si yer tuturdu. Ərəb müəlliflərindən əl-Cuzcaniyə görə Azərbaycan Atabəyləri mədrəsə, məscid və sarayların tikintisinə xüsusi fikir verirdilər .

Xilafətə daxil olmuş ölkələrdə, o cümlədən Azərbaycanda islam mədəniyyətinin yayılmasında Xəlifə Əbdülməlik ibn Mərvanın böyük rolu qeyd olunmalıdır. Xəlifə Əbdülməlikin əlifbanı dəyişdirmək, divanlarda yazı işlərinin ərəb dilində aparılması haqqında, onun 700-701-ci illərdə başlayan islahatının müvəffəqiyyətlə həyata keçirilməsi böyük tədqiqat işləri aparmağa, mövcud elmi ədəbiyyatın xarici dillərdən ərəbcəyə tərcüməsini zəruri etmişdi. İslam coğrafiyası hüdudlarının genişlənməsi ilə müsəlmanları digər mədəniyyətlərlə (ellin, İran, hind və s.) təmasda olmağa gətirib çıxarmışdı. Bu isə onlara qarşı böyük bir marağın yaranmasına səbəb olmuşdu. Bu fərqli mədəniyyətlər arasında ortaya çıxan bir sıra diskussiya və mübahisələrdə müsəlmanlar öz inam və düşüncələrini tutarlı bir şəkildə sübut etmək və islamın üstünlüklərini göstərmək üçün həmin mədəniyyətləri dərindən tanımaq məcburiyyətində idilər.

VIII əsrin axırlarında “sülh şəhəri”Bağdadda o dövr Şərqinin Elmlər Akademiyası - məşhur “Beytül-hikmə” (“Hikmət evi”) nin əsası qoyuldu.Nəhəng kitabxanası və astronomik müşahidələr üçün rəsədxanaları olan bu elm mərkəzi elm və incəsənətə qiymət verən, maarifçilik cəhdlərini təşviq edən Xəlifə Harun ər-Rəşidin (786-809) oğlu Xəlifə əl-Məmun(813-833) tərəfindən yaradıldı. “Beytül-hikmə”də kitabxana və bir çox rəsədxana ilə yanaşı, tərcümə şöbəsi də fəaliyyət göstərirdi. Bu intellektlər ocağında əsas cəhd fəlsəfi və elmi mətnlərin (poeziya, dramaturgiya və tarixi mətnlər istisna idi) ərəb dilinə tərcüməsinə verilirdi[1]. Xilafətin müxtəlif bölgələrindən olan bir çox alim elm və tərcümə sahəsində fəaliyyət göstərmək üçün “Beytül-hikmə”yə cəlb edilmişdi. Bu elm məbədində yunan və hind elmi nailiyyətinə böyük diqqət yetililirdi[2].

[1] Доктор Рахман. Краткая история Ислама. Издательский дом «Умма», М.: 2002, с. 255-256.

[2] Хайруллаев М.М. Бахадиров Р.М. Абу Абдаллах ал-Хорезми. Наука, М.: 1988, с.17.

Əbu Xəlifə əl-Fadl mühazirələrini dinlədiyi Talakanlı İbad əd-Dini "Dər-əl-Kutub"da ("Kitab evi") görmüşdü.

"Beytül-hikmə"dən danışarkən "Xəzinətül-hikmə"ni qeyd etməmək mümkün deyil. Xəlifə Məmun 830-cu ildə Bizansdan dönərkən oradan toplatdığı kitabları özü ilə Bağdada gətirdi. O, "Xəzinətül-hikmə"ni - kitabxananı zənginləşdirmək üçün böyük miqdarda pul ayırdı. Daha sonra xəlifə "Beytül-hikmə"nin müdiri Səlim ilə İbnü-l-Batrik, Həccac ibn Matar və Yühənna ibn Masaveyhdən (777-857) ibarət bir heyəti Bizansa göndərərək bu heyətin kitabxanalardan seçəcəyi kitabların ona göndərilməsini imperatordan rica etdi. "Beytül-hikmə"dən əvvəl isə Əməvilər sülaləsinin paytaxt şəhəri olan Dəməşqdə "Dərul-tərcümə"("Tərcümə evi") inşa edilmişdi[1]. "Beytül-hikmə" quruluncaya qədər bir əsrdən çox müddət ərzində "Dərul-tərcümə" ayrı-ayrı şəxslər, şahzadə və xəlifələrin şəxsi maraqları üzrə fəaliyyət göstərmişdi[2]. Bunların arasında Əməvi şahzadələrindən Xalid ibn Yəzid ibn Müaviyə (ö. 85/704) birinci olaraq tibb, astronomiya, kimya kimi elmlərə maraq göstərmiş və bu mövzuda yazılmış yunan və qibti dilindəki əsərləri isgəndəriyyəli bir rahib olan Staphon və Maraianosa tərcümə etdirmişdi.[3] İlk dəfə "Tərcümə evinə" kitabları da Xalid ibn Yəzid toplamışdır. Onun bu işini Əməvi Xəlifələrindən Mərvan ibn Hakəm (684-685) və Ömər ibn Əbdüləziz (717-720) davam etdirmişdi.

Xəlifə Mehdinin dövründə (775-785) daha çox xarici mədəni mihraklarından qaynaqlanan zındıqlıq hərəkatı baş verdiyi üçün tərcümə işinə önəm verilmədi. Bir müddət sonra, Harun ər-Rəşidin dövründə (786-809) yenidən bir sıra tərcümə əsərləri yarandı. Daha sonra Abbasi Xəlifəsi Mənsur tərcümə işini daha yüksək səviyyəyə qaldıra bilmişdi. Elmlərə böyük həvəs göstərən Xəlifə Mənsur özünün bildiyi hədis, fiqh, dil və ədəbiyyatdan başqa məntiq, fəlsəfə, riyaziyyat, həndəsə, astronomiya və

[1] Nəcdə Xəmaş. Əl-asru-l-islami hattə nihayəti əl-ahdi-l-məmluki. Əş-Şam asımətu əs-səqafə əl-islamiyyə. Diməşq, 2008, s. 126.
[2] Abdulla Aydemir. Beytülhikme. İE., 6-cı c., İstanbul: 1992, s. 88.
[3] İbn ən-Nədim. Əl-Fihrist, Misir, h. 1348, s. 340.



*Hikmət evi*



بيت الحكمة

təbabət kimi nəzəri və təcrübi elmlərə böyük maraq göstərirdi. Özünün rəsmi tərcüməçisiolmuş Əbu Yəhya ibn əl-Batrik (v.e. 796-806-cı illər arasında) onun hamiliyi ilə Qalen və Hippokratın təbabətə dair elmi əsərlərinin ilk dəfə ərəb dilinə tərcüməsini həyata keçirmişdir. Xəlifə Mənsur Ərəstunun Orqanon adlı məntiq kitabını, "Kəlilə və Dimnə"ni farscadan ərəbcəyə tərcümə etdirdi. Bundan başqa hindli bir səyyahın özü ilə gətirdiyi riyaziyyat və astronomiyaya aid iki kitabı tərcümə edildi. Beləliklə, hind rəqəmləri və s. islam mədəni dünyasına daxil oldu. Mənsur, oğlu Mehdiyə də bu işi davam etdirmək üçün lazımi tövsiyələr vermişdi.

"Hikmət evi" akademik universitetin örnəyi kimi Xilafətin hər yerindən elmin ən müxtəlif sahələrində çalışan və müxtəlif dini dünyagörüşləri olan hindli, soqd, iranlı, türk, ərəb, qipti, bərbər, hətta çinlilərin elmi və mənəvi ideyalarının yığılaraq cəm olduğu yerə çevrildi.

"Hikmət evi" özündə zəngin kitabxana, tərcümə şöbəsi və bir çox astronomiya rəsədxanalarını birləşdirirdi. Bu intellektual ocaqda əsas səy bədii, dramatik və tarixi yox, yalnız antik fəlsəfi və elmi mətnlərin ərəb dilinə mükəmməl tərcümə edilməsinə yönəlmişdi. Hiradan olan, yüksək təhsil görmüş xristian-nestorian Hunayn ibn İshaq (809-873) tərcüməçilər komandasının rəhbəri idi. Yaxşı ad qazanmış təcrübəli tibb işçisi olan Hunayn həm də yunan dilini tədris edirdi. "Beytül-hikmə"ni bir neçə dəfə görmüş ərəb müəllifi İbn ən-Nədim (v.e. 995) bu barədə bir sıra qiymətli məlumatlar vermişdir. Onun yazdığına görə yunancadan süryaniyəcə, oradan da ərəbcəyə və ya ərəbcədən yunancaya tərcümə edən mütərcimlərin sayı qırx yeddi idi, farscadan tərcümə edənlərin sayı on altı, sanskritcədən tərcümə edənlərin sayı isə üç nəfər idi.[1] Məmunun Bağdad yaxınlığındakı Semmasiyada tikdirdiyi rəsədxanada tədqiqatla məşğul olan riyaziyyatçı və astronomların çoxu "Hikmət evinin" kadrlarından olan alim və ixtiraçılar idi.

[1]İbn ən-Nədim. Əl-Fihrist, Misir, h. 1348, s. 340-342.

VIII-IX əsrlərdən antik irsin görkəmli nümayəndələrinin əsərləri Azərbaycanda da yayılmağa başladı. AMEA M.Füzuli adına Əlyazmaları İnstitutunda qorunan əlyazmaları bunu təsdiq edir. Onlardan biri suriyalı tərcüməçi Hüseyn ibn İshaqın (809-873) oğlu, özü də IX əsrin məşhur tərcüməçisi olan Əbu Yaqub İshaq ibn Hüseynin "الأدوية المفردة " ("Sadə dərman vasitələri") əsərinin əlyazmasıdır (6). Antik yunan təbibləri – Hippokrat, Halen, Aristotel və Duoklun traktatları kitabın əsas mənbələrindən sayılır.

Fondda qorunan daha bir əlyazma əsli Cənubi Azərbaycanın Zəncan şəhəri yaxınlığındakı Əbhər adlı yerdən çıxan Əsirəddin Mufaddal ibn Ömər əl-Əbhərinin (v.e.1265) isgəndəriyyəli neoplatonlu Porfiri Tirskinin (232-304) o vaxtlar Aristotelin məşhur "Məntiq" əsərinə Giriş kimi yazılan "İsağuci" əsəridir. Əsər İsgəndəriyyəli neoplatonlu Porfiri Tirskinin (232-304) o vaxtlar məşhur olan dərsliyini şərh edir. Yunan idealist filosofu olan Porfiri Platonun şagirdi, neoplatonizmin görkəmli nümayəndələrindəndir. "İsağuci" antik müəlliflərin müsəlman elminə daxil olan ilk əsərlərindəndir. Onun ərəb dilinə tərcüməsi əl-Kindi, Əbül-Fərəc ibn ət-Tayyib, Əbül-Abbas Əhməd ibn Məhəmməd Mərvan əs-Sərxasi, Muhyiddin Əbdüllətif ibn Yusif əl-Bağdadi tərəfindən işlənmişdir. Lakin, əl-Əbhərinin traktatından sonra onların hamısı tədris fəaliyyəti sahəsindən sıxışdırılıb çıxarılmışdı. O, 700 il ərzində Azərbaycan, İran, Türkiyə və Orta Asiyada əsas dərs vəsaiti rolunu oynamışdır. Əsərin azərbaycanlı tərəfindən yazılması və əlyazmasının müxtəlif dövrlərdə üzünü köçürənin də azərbaycanlı (Əbdülğəni ən-Nuxəvi ibn Hacı Məhəmməd Əfəndi Xlısaqarızadı) olması Azərbaycanda əsrlər boyu təhsilə, elmə verilən yüksək qiyməti göstərir. Əsərdə deyilir: "Bu traktat məntiq haqqındadır. O bizə öyrədir ki, elm öyrənənlərə nəyi bilmək lazımdır"[1]. Əl-Əbhəridən sonra şirvanlı alimlərdən Numan

[1] Каталог арабских рукописей2. /составители к.и.н. А.Г.Алиев и к.и.н. К.К.Шарифов. Баку: Элм, 2000, с. 61-63.

ibn Şeyx Səid əş-Şirvani[1]və Muhyiddin ət-Talışi (təqr.XIV-XV əsrlər)[2] də "İsağuci" əsərinə şərh yazmışdır.

Hikmətin yüksək zirvələrinə qalxmış, ədəbiyyətın dərinliklərinə varmış, həm şeirdə, həm də nəsrdə ustad olmuş Əbu Səid Həkim əl-Urməvidən qalmış bir sıra əsərlər içərisində "Evklidin birinci və ikinci məqalənin şərhi" də olmuşdur[3] .

Azərbaycan şairi Xaqani Şirvaninin əmisi Kafiəddin Şirvani haqqında yazdığı şeirdə deyilir: "Onun sözü həndəsədən dəqiqdir. O, Ərəstun, Əflətun şagirdidir." və ya "O, ədəbiyyat və elm adamıdı. O, ədəbiyyatı, fəlsəfəni dərindən bilir, demək olar ki, o, dövrümüzün fəlsəfəsini dərindən bilir, demək olar ki, o dövrümüzün Aristotelidir"[4]. Bu beytlərdən görünür ki, Kafiəddin Şirvani özünün elmi, xüsusilə fəlsəfi müddəalarında dahi yunan alimləri Aristotel (e.ə. 384-322) və Platonun (e.ə. 348-328) əsərlərindən bəhrələnmişdir.

Nizami Gəncəvi(1140-1211) də Ərəb Xitafətinin və İran şahlarının islamaqədərki tarixi ilə bərabər antik dörv tarixini də gözəl bilirdi. O, "Respublika", "Qanunlar", Platonun "Timsos"unu, Aristotelin məntiqdən bəhs edən əsərlərini, Arximed, Evklid, Hermes Trismegist, Fales Miletskiy, Appoloniy Tianskiy, Porfiriy Tirskiy və başqalarının əsərləri ilə yaxından taniş idi[5]. Məhəmmədəli Tərbiyətə görə Nizaminin "İsgəndərnamə" əsəri əfsanəvi yunan dastanından alınmış bir hekayədir. Bu dastanı, ya da tarixi hadisəniİsgəndərin munşilərindən biri olmuş yunanlı Kalstensə nisbət verirlər[6].

[1]* Hacı Xəlifənin "Kəşf əz-Zünun"da bu əsərin adı çəkildiyinəgörə onun XVII əsrə qədər yaşadığı ehtimal edilir (bax.Каталог арабских рукописей2, с.147).

[2] Каталог арабских рукописей2. / составители к.и.н. А.Г.Алиев и к.и.н. К.К.Шарифов. Баку: Элм,2000.

[3] Tərbiyət Məhəmmədəli. Danışməndani Azərbaycan. Görkəmli elm və sənət adamları. Bakı: Azərnəşr, 1987,s.106

[4] Xaqani Şirvani. Töhfətul-İraqeyn, s.42; E. Mehrəliyev. Şirvan Elmlər Akademiyası (X-XIII əsrlər) Bakı: Çaşıoğlu, 2000, s. 19, 21.

[5]Низами Гянджеви. Сем красавиц. Филологический перевод с фарси, предисловие и комментарии Рустама Алиева. Баку: Элм, 1983, с.9.

[6] Tərbiyət Məhəmmədəli. Danışməndani Azərbaycan. Görkəmli elm və sənət adamları. Bakı: Azərnəşr, 1987, s.260.

Xəlifədən başqa bəzi varlı ailələr də şəxsi kitabxana quraraq müxtəlif əsər, tərcümə və elmi araşdırmalara böyük məbləğdə funksional pul xərcləmişdilər. "Xəzinətül-hikmə"də kitabların qorunduğu hücrələr, müəllif, mütərcim, katib, müstənsix (yazının üzünü köçürən) və mücəllidlər üçün ayrılan otaqlarla yanaşı qiraət salonu da mövcud idi. İlk əvvəllər bir tərcümə bürosu və bir kitabxana kimi təsis edilən "Beytül-hikmə" genişlənərək pozitiv elmlərin tədqiq olunduğu bir tədris mərkəzinə çevrilir.

Bəzən kitabxana ayrıca "Dər-əl-Kutub" ("Kitab evi") adlanırdı.Vaxtilə Əbu Xəlifə əl-Fadl mühazirələrini dinlədiyi talakanlı İbad əd-Dini "Dər-əl-Kutub" ("Kitab evində") görmüşdü.

Bələliklə, 500 ildən artıq bir vaxt ərzində islam elmi dünyasına qaynaq təşkil edən elm mərkəzi 1258-ci ildə Hülakü tərəfindən dağıdılmışdı.[1]

A.Yakubovski "IX əsrin əvvəllərində Xilafətin Bizans, Bağdadın isə Konstantinopol üzərində üstünlüyü haqqında danışmaq mümkündür" deyərkən Xilafətin mədəni-dini həyatının inkişaf etməsini, çiçəklənmə dövrü keçirməsini nəzərdə tutmuşdu[2]. İ.E.Qrünebaum VII-XIV əsrlər arasında islamın meydana çıxması və inkişafı, müsəlman ilahiyyatı və hüququnun əsasları, ən başlıcası isə islam dininin sayəsində formalaşmış və dünya sivilizasiyasının mühüm tərkib hissəsini təşkil edən ərəb-müsəlman mədəniyyətinin, Şərq tarixi, ədəbiyyatı və incəsənətinin xüsusiyyətləri, onların antik, Bizans Qərb (Avropa) mədəniyyəti ilə müqayisəli təhlil etmiş, müqayisədə ərəb-müsəlman mədəniyyətinin həyatiliyi və bəşəriliyinə üstünlük vermiş, onun Avropa mədəniyyətinə mütərəqqi təsirini dəfələrlə qeyd etmişdir [3].Görkəmli şərqşünas Bartold da Şərq və Qərb mədəniyyətlərini müqayisə edərək yazırdı ki, Şərqdə bir sıra elmlər, o cümlədən hesab və

---

[1] Abdulla Aydemir. Beytül-hikme. İE., 6-cı c., İstanbul, 1992, s. 88.

[2]Якубовский А. Ирак на грани VIII-IX вв.(черты социального строя халифата при Аббасидах). Л., 1935, с. 34.

[3] Q.E.Fon Qrünebaum. Klassık islam (600-1258).Rus dilindən tərcümə Ş.H.Hənifəzadə. Müqəddimə Maqsud Fərhadoğlunun, Ön söz V.V.Naumkinindir. "Azəbaycan Ensiklopediyası"nəşriyyat poliqrafiya birliyi. Bakı, 1998, s.8.

cəbr inkişaf edəndə Qərbdə bu haqda təsəvvür belə olmamışdır. Hindistanda kəşf edilən rəqəmlər Qərbə Azərbaycan, İran və Misir vasitəsilə keçmişdir[1].

Qərb ideoloqlarının Şərqdə, o cümlədən Azərbaycanda təhsil sistemində nəzərəçarpacaq inkişafın olmaması fikrinə İran tarixşünaslığında da rast gəlinir. İranın müasir tədqiqatçılarından Roknəddin Homayun Fərrox yazır ki, hicri 620 (1223)-ci ildən hicri 800 (1397-1398)-ci ilədək Xorasanda, Azərbaycanda və İranın digər böyük məntəqələrində mədrəsələrin təsisinə dair heç bir məlumat yoxdur. Bu barədə mənbələrdə verilən məlumat Fars, Yəzd və İsfahana aiddir[2]

Mövcud elmi ədəbiyyatın xarici dillərdən ərəb dilinə tərcümə olunması da inkişafa təkan verən amillərdən idi. Nəzərə alınmalıdır ki, müsəlmanların yunanlardan öyrəndikləri antik elmi tam şəkildə müzakirədən əlavələr etdikdən və müəyyən hissəsi də onlara xas olan nöqteyi-nəzərdən yenidən işləndikdən sonra mənimsəmənin özü elmi inkişaf etdirməkdir. VIII-IX əsrlərdən ərəb dilinə tərcümə olunan Aristotelin, Hippokratın və Platonun əsərləri Azərbaycanda yayılmışdı. Bu, özünü Azərbaycan şairi Xaqani Şirvaninin əmisi Kafiəddin Şirvani haqqında yazdığı şeirdə əks olunmuşdur.[3]

İslamın yayıldığı ilk illərdə dərs deyilən yerlər mədrəsə adlandırılmasa da Rəsuli-əkrəm (s.a.s) zamanında Mədinədə Quranın öyrənildiyi “dərül-qurra” (“qiraət evi”) adı verilən ev olmuşdur. Bundan başqa ilk inşa edildiyi gündən etibarən bir təhsil və öyrətmə qurumu kimi də fəaliyyət göstərən “Məscidu-n-nəbəviyyə” və orada yerləşən Suffəyi mədrəsələrini ilk model kimi qəbul etmək daha doğrudur.[4] Qaynaqlarda mədrəsə kimi anılan

---

[1]Бартольд В.В. Избранные сочинения, т, VI, с.165.

[2] Onullahi S.M. Təbrizin maarif və məktəb tarixindən (XIV-XV əsrlər) Azərbaycan EA Xəbərləri. Tarix, fəlsəfə, hüquq seriyası, 1966, №4, s.33; Hacıfəxfəddin Səfərli. Orta əsrlərdə Naxçıvanın sosial-siyasi həyatında dini mərkəzlərin rolu. B., Elm, 2003, s.306.

[3]Mehrəliyev E. Şirvan Elmlər Akademiyası (X-XIII əsrlər). Bakı, 2000, s. 37.

[4]Nəbi Bozqıvet, Medrese. 1. A., Ankara, 2004, 28-ci il, s. 324.

ilk darussünnə isə Əbu Bəkr Əhməd ibn İshaq əs-Sıbği (ö. 342/954) tərəfindən Nişapurda inşa edilmişdir.[1] Həsən ibn Məhlədi və Məhəmməd ibn Hüseyn əl-Həsəni kimi hədis alimlərinin imla məclisləri düzəltdiyi bu dərüssünnədə 1000-ə qədər müəllimin dərs deyə bildiyi göstərilir.[2] Bu dərüssünnə bərdəli alim Əbu Bəkr Məkki ibn Əhməd Səadaveyh əl-Bərdəinin (ö.h. 394/1003) şərəfinə imla məclisi təşkil etmişdi. Əvvəllər imla tədrisin ən ali pilləsi sayılırdı. IX əsrdə ilahiyyatçılar və filoloqlar xüsusilə çox diktə (imla) edirdilər. Leksikologiyanı imla yolu ilə öyrədənlərin axırıncısı Əbülqasim əz-Zəccaci (v.e. 339/950) olmuşdur. Əs-Suyutiyə görə ilahiyyat sahəsində imla üsulu hələ uzun müddət davam etmişdi. Məşhur tarixçi mühəddis,"Əl-Ənsab" əsərinin müəllifi Əbdülkərim əs-Səmani (1113-1167) onun haqqında bir çoxlarının məlumat verdiyini yazır[3]. Hicri 302/914-ci ildə Nişapura gələrək orada qərarlaşan həmyerlimiz bu dərüssünnədə bağdadlı Əbülqasım, hələbli Əbdüləziz, homslu əl-Abbas İbn Cabir və onun təbəqələri haqqında rəvayət etmişdir. Əbu Bəkr ibn Səadaveyh əl-Bərdəi Nişapurda darüssünnəni qurmuş Əbu Bəkr Əhməd ibn İshaq əs-Sıbği ilə (ö. 342/954) bir vaxtda yaşamışdır. İmam Sıbği mədrəsə və onun vəqf işlərini özündən sonra tələbəsi olmuş Hakim ən-Nişapuriyə (h. 321-405/933-1014) vəsiyyət etmişdi. Hakim ən-Nişapuri Nişapurda tanış olduğu Əbu Bəkr ibn Səadaveyh əl-Bərdəini (354/965) yüksək qiymətləndirmişdi.

Qeyd etmək lazımdır ki, məscidlərin nəzdində olan mədrəsələr də fəaliyyət göstərmişdir. Belə məscidlərin birinin adı əslən Urmiyadan olan azərbaycanlı şafii Şeyx Əbu Nəzar əl-Həsən ibn Əbül-Həsənin adı ilə bağlı olmuşdur.Şeyx qrammatika sahəsində tanınmış alim idi. O, "Maliku-n-nühat" ("Qrammatiklərin başçısı") kimi şöhrət tapmışdı. Onun nüfuzu idi ki, adına Dəməşqdə məscid açılmış, o, orada dərs demişdi. İbn əl-Əsakirin məlumatından istifadə edən Yaqut əl-Həməvi "Mucəm əl-Buldən" əsərində "Mali-

[1] Əz-Zəhəbi. Əaləmu-n-nübəla, XVI, s. 540.
[2] İbn Nöqtə. ət-Təqyid li-məarifəti ruvatis-sünən vəl-məsanid, nşr. Kamal Yusif əl-Hut. Beyrut, 1408/1998. I c., s. 230.
[3] Əs-Səmani. Əl-Ənsab. Beyrut, 1419/1998, I c., s. 328.

ku-n-nühat" (Qrammatiklərin başçısı) kimi şöhrət tapmış bu alimin 10-a yaxın əsərinin adını çəkir[1]. Onun əsərləri arasında qrammatika ilə yanaşı digər mövzularda, o cümlədən, şeir, qiraət elmi, fiqh, dinin əsasları haqqında kitablar əsas yer tutur.

Darüssünnə ilə yanaşı "Daru-l-elm" adlanan tədris ocaqlarının da təhsilin yayılmasında xidməti olmuşdur. "Beytül-Hikmə"dən sonra yaradılan "Daru-l-elm"lərdə kitabxanalar ("xəzinə") yalnız bu müəssisənin xüsusi hissəsini təşkil edirdi.[2] Hicri 383 (993-cü) ildə Büveyhi hökmdarı Bahauddövlənin vəziri olmuş Əbu Nəsr Sabur ibn Əzdəşirin Bağdad yaxınlığındakı Kərxdə tikdirdiyi binanı "Daru-l-elm" adlandıraraq kitablarını ora daşımışdı. Əbu Nəsr bu "Daru-l-elm"i fəqihlər üçün vəqf etdiyini elan etmişdi. İbn Əl-Kəsir bu məlumatı h. 383(993-cü) il hadisələrini şərh edərkən yazmışdır[3]. Bu isə Kərxdəki təhsil ocağının Nizamiyyə mədrəsələrindən çox əvvəl yarandığı fikrini irəli sürməyə əsas verir. Artıq bu dövrdə ilahiyyat sahəsində ziddiyyətli fikirlər artırdı.

IX əsrdə hədis elminin inkişafı, mühəddislərin sayının artması yerlərdə "Dər əl-hədis"lərin (hədis evi) yaranması üçün şərait yaratdı. Ərəb bioqrafik ədəbiyyatının nümayəndələrindən İbn Nöqtə Ərbildəki "Dər əl-hədis" və burada məskunlaşmış təbrizli alim Əbu-l-Xeyr Bədəl ibn Əbu-l-Mi'mar ət-Təbrizi haqqında məlumat verir. O, qeyd edir ki, Əbu-l-Xeyr ət-Təbrizi əldə edərək yazdığı çox sayda hədisi bu "Hədis evində" söyləmişdir[4]. Hədis evləri ilə yanaşı azərbaycanlı alimlər "münəzərə" adlanan məclislərdə iştirak etmişlər. 1183-cü ildə Suriyaya gedən Sührəverdi bu məclislərdə fəal iştirak etmişdir. Elmi mübahisələrdə açıqfikirli ziyalıların rəğbətini qazanmasına baxmayaraq, əleyhdarları Şihabəddini azadfikirlilik üstündə taqsırlandırıb zindana saldırmışlar.

---

[1] Əliyeva N. Yaqut əl-Həməvi və Azərbaycan. Bakı: 1999, s.206.

[2] Мец А. Мусульманский ренессанс. Перевод с немецкого, предисловие, библиография и указатель Д. Е. Бертельса. М.,1966, с.152.

[3] İbn Kəsir, Əl-Bidəyə və ən-Nihəyə.V c., s. 360.

[4] İbn Makula, İkməl, I c., s. 225.

Ziyalılar mədəniyyət mərkəzlərində müxtəlif məclislər, "hədis məclisləri" ilə yanaşı "və'z məclisi" də təşkil edirdilər. Belə məclislərdən biri Bağdadda Nizamiyyə mədrəsəsində çalışan müdərris Əbülxeyr Əhməd ibn İsmail ət-Talaqani tərəfindən Qəzvində təşkil olunmuşdu.

## 2.2. Mədrəsələr və azərbaycanlı müdərrislər

### *2.2.1. Bağdadın "Nizamiyyə" Mədrəsəsi*

Xilafət tərkibində olan ölkələr, o cümlədən Azərbaycan islamlaşdıqca yeni din bu ölkələrin xalqlarını ideoloji cəhətdən birləşdirən böyük qüvvəyə çevirirdi. Bu din daşıyıcılarından olan Azərbaycan ziyalılarının bir çoxu Xilafətin mədəniyyət mərkəzlərində təhsil almış, bəziləri orada qalaraq müxtəlif tədris müəssisələrində dərs demişlər. Əsas məqsədləri elm öyrənmək və öyrətmək olan orta əsr alimləri nüfuzlu alimlərdən bilik almaq üçün böyük məsafələri qət edərək Xilafətin müxtəlif bölgələrinə səyahət edir, maraq dairələrini genişləndirirdilər. Belə alimlərə hörmətlə yanaşılır, nüfuzlu mədrəsələrdə dərs demək onlar üçün daha asan olurdu. Müdərrislik fəaliyyəti ilə yanaşı onlar səyahət etdikləri ölkələrdə görkəmli alimlərlə tanış olaraq onlardan əlavə bilik əxz edir, müxtəlif nüfuzlu mədrəsələrdə asanlıqla işlə təmin oluna bilirdilər.

Qeyd etmək lazımdır ki, səlibçilər və monqollar üzərində qələbə Misir və Suriyanın müsəlman mədəniyyəti mərkəzi kimi əhəmiyyətini artırmışdı. Ona görə də azərbaycanlı alim müdərrislərdən bəziləri monqolların hücumu vaxtı bu ölkələrə qaçmışdılar. Lakin, bəzən onlar bu ölkələrdə lazmi qiymətlərini ala bilmirdilər. Taleyin qisməti elə gətirmişdi ki, əsli Xoydan olan, ilahiyyat və fəlsəfə sahəsində gözəl əsərləri olan fəzilətli alim qazı Şəmsəddin də onların arasında olmuşdu. Zəkəriyyə Qəzviniyə görə, Şamda onu lazımınca qiymətləndirməmişlər. O, yalnız Dəməşq mədrəsəsində repetitorluq etmişdir. H. 640/1240-cı ildə cavan ikən vəfat etmişdir.

İlk əvvəl azərbaycanlı alimlərin fəaliyyət göstərdikləri və İslam və islam mədəniyyətinin yayılmasında mühüm rol oynamış

müsəlman məktəblərinin xüsusi növü olan mədrəsələr haqqında məlumat verək.

Mədrəsə sözü ərəbcə "dərəsə-oxumaq, anlamaq, bir mətni öyrənmək və əzbərləmək üçün təkrarlamaq" kökündən olub "dərs deyilən yer" deməkdir. Bu sözdən "tədris", "müdərris" ("dərs deyən"), midrəs ("Quran oxunan yer") və s. kimi terminlər yaranmışdır.

İslamın yayıldığı ilk dövrlərdə ayrı-ayrı ilahiyyatçı alimlərin mühazirə oxuduqları yer, eləcə də böyük məscidlərdə daimi məktəb və ya mühazirə kursları mövcud idi. Mədrəsə adlanan xüsusi tipli orta və ali ilahi-hüquqi məktəblər h. IV/IX əsrlərdə Xilafət Şərqində (Mərkəzi Asiya və Xorasanda) yaranmış, daha sonra isə oradan qərb vilayətlərinə keçmişdi[1].

Mədrəsə təsisatı Səlcuqların hakimiyyəti illərində özünün çiçəklənmə dövrünü keçirirdi. Bəs buna səbəb nə idi? Mədrəsələr konkret hansı vəzifələri yerinə yetirməli idi? Bu haqda alimlər arasında yekdil fikir yoxdur. Bəzi tədqiqatçıların (C.Maqdisi və K.Klauzner) fikrincə, səlcuqilər bu mədrəsələri yalnız inzibati idarəetmə kadrlarının hazırlanması məqsədilə yaratmışdılar[2].

Lakin, tədris prosesində gələcək inzibatçılar özlərinin fəaliyyəti üçün vacib olan elmləri və təcrübəni almırdılar[3]. C.Maqdisi mədrəsəni bitirən şəxslərin aldığı geniş əhatəli vəzifələri sadalayarkən qazı vəzifəsindən başqa hökümət xidməti ilə bağlı heç bir vəzifənin adını çəkmir. Qazı vəzifəsi isə dini xarakter daşıyırdı. Bununla belə Maqdisi göstərirdi ki, mədrəsədə təlim almış şəxs-fiqhdə, yəni qanunvericilikdə-hüquqşünaslıqda məlumatı olan-şəxs hesab olunurdu. O, məhkəmədə qazı vəzifəsində çalışa bilər, mədrəsədə müdərris kimi tədris hissəsinə başçılıq edə bilərdi.

Bağdad Nizamiyyə mədrəsəsinin yaradılması dövrün tələbi idi. Qahirədəki şiə ismailiyyə universiteti müqabilində yaranan

[1]Петрушевский И.П. Ислам в Иране в VII-XV веках . Л., 1966, s. 91-92.
[2]Klauzner C.L. The Selcuq Vezirate: a stady of Sivil Administration, 1055-1194. Cambridge (Mass.), 1973, p. 62.
[3] Семенова Л.А. Из истории средневековой Сирии (селджукский период) М.:Наука,1990, с. 62.

Nizamiyyə adlanan tədris müəssisəsi sonralar bütün müsəlman dünyasına yayılmışdı. İ.Filştinskiyə görə, Nizami mədrəsəsinin yaranması hər cür dini azadfikirliyin qarşısını almaq tələbatından yaranmışdır. Artıq dini münaqişələr silah gücünə deyil, elmdən istifadə yolu ilə həll edilirdi[1]. Çünki Nizamiyyədə olan abu-hava əl-Cahiz vaxtındakı Bəsrə məscidinə xas olan alimlərin azad və sərbəst fikir mübadiləsindən fərqlənirdi.

Müasir ərəb tarixçisi Əbu Hac Məhbubə haqlı olaraq yazırdı ki, Nizamülmülk əleyhdarlarını zəif salmaq üçün silahdan əlavə elmdən də istifadə edirdi. A.Müllerə görə isə onun bu siyasəti yeritməsi özünün fars əsilli olaraq dini təəssübkeşliyi ilə bağlı idi və o bununla özünün fars milli mənliyinə iltifat göstərirdi. Qeyd etmək lazımdır ki, Nizamiyyənin sünnilik tərəfdarı olan rəhbərləri hər şeydən çox tələbələrin müstəqilliyindən qorxurdular. Lakin, hər-halda dini münaqişələri həll etməklə bərabər mədrəsənin üzərinə hər şeydən əvvəl daha böyük bir missiya - elmi inkişaf etdirmək missiyası düşürdü. Məlikşahın Bağdaddakı Nizamiyyə mədrəsəsinin rəisi Əbu İshaq Şiraziyə göndərdiyi məktubda bunun təsdiqini tapmaq olar. O yazırdı: "Nizamiyyə mədrəsəsi məzhəb münaqişələri üçün deyil, elmi inkişaf etdirmək üçündür".

Alimlərin həqiqəti üzə çıxarmaq məqsədilə keçirdiyi diskussiyalar bu mədrəsələrə başqa ölkələrin nümayəndəlri ilə yanaşı Azərbaycan alimlərini cəlb edirdi. Onlar mədrəsədə müxtəlif vəzifələrdə çalışaraq onun davamlı fəaliyyətində yaxından iştirak edirdilər. Təsadüfi deyil ki, "Nizamiyyə" mədrəsəsinin tikintisi başa çatan kimi Nzamülmülk bu dövrdə dərin bilikli, ərəb dili sahəsində kamil əsərləri olan azərbaycanlı Xətib Təbrizini mədrəsə kitabxanasının müdiri, eyni zamanda İ.Y.Kraçkovskinin təbirincə desək, onu ədəbiyyat kafedrasının «professoru» təyin edir. Qeyd etmək lazımdır ki, kitabxana rəhbərinin seçilməsi məsələsində bəzi meyarlar mütləq nəzərə alınırdı. Belə ki, bu vəzifəni icra edən şəxslər dərin təfəkkürə malik olmalı, kitablar barədə məlumatlı olmalı idilər. Rəşidəddinin yaratdığı "Rəbi-Rəşidi"

[1]Фильштинский И.М. Историоя арбской литературы X-X1 вв.Москва, 1991, с.,17.

elm və mədəniyyət mərkəzində hətta digər şərtlər də qoyulmuşdu. Kitabxananın açarının daşıyıcısı subay, əməlisaleh, arif, mömin və dindar olmalı idilər. Əgər bu vəzifədə olan evli olardısa, ailəsindən ayrı olmaqla "Rabi Raşididə" yaşamalı və ailəsi ilə əlaqədə olmamalı idilər .

Nizamülmülk Bağdada gələrkən mədrəsə ilə tanış olmaq istəmişdi. Əyanlar və ölkənin tanınmış adamları onun xidmətində idi. Onun gəlişini təntənəli bayram edənlərlə mədrəsədə oturmuşdu. Şairlər onun şərəfinə və şəninə təriflər deyirdilər. Nizamülmülk mədrəsənin nəzarətçisindən soruşdu: "Əbu Zəkəriyyənin maaşı nə qədərdir?" O dedi : "On dinar". Nizamülmülk dedi : Əgər özünün dediyi kimi on dinar çatmırsa maaşını istədiyi kimi 15 dinara qaldırın". Bu, vəzirin mədrəsə işçilərinə, o cümlədən həmyerlimizə göstərdiyi qayğıdır. Bağdaddakı Nizamiyyə mədrəsəsinin açılması o dövrdə dünya elmində və mədəniyyətində ən mühüm hadisə idi. Dini münaqişələri həll etmək, və ya heç olmasa şiəliyin təsirinin qarşısını almaq üçün savadlı alimlərdən istifadə etmək lazım gəlirdi. Sözsüz ki, tədris və təlim kimi missiyaların yerinə yetirilməsində buradakı Nizamiyyə mədrəsəsinin əvəz olunmaz rolu qeyd olunmalıdır. Mədrəsə xəlifə Harun ər-Rəşidin əmrilə inşa edilmişdi. Xəlifə əmr etmişdi ki, hər bir məscidin yanında elmlərin tədrisi üçün mədrəsə tikilsin[1]. Bağdadda 459/1067-ci ildə tikintisinə 200 min dinar sərf edilən Nizamiyyə mədrəsəsində 6000 tələbə təhsil alırdı. Bu mədrəsə öz yeni keyfiyyətlərinə görə Şərqdə mövcud olan mədrəsələrdən tamamilə fərqlənirdi. Onu sözün əsl mənasında orta əsrlərdə dünyada təşkil olunmuş universitetlərin ən mükəmməli adlandırmaq mümkündür. Burada dilçilik, tibb, tarix, məntiq, ədəbiyyatşünaslıq, ədəbiyyat tarixi, ritorika, riyaziyyat, astronomiya, ilahiyyat kimi kimi dünyəvi və dini elmlər tədris olunurdu. Nizamiyyə mədrəsəsində təhsil pulsuz idi, müəllimlərə isə dövlət hesabına aylıq maaş verilirdi. Müəllimlərə mühazirə zamanı tamamilə sərbəstlik

[1] Zəkəriyyə Haşım Zəkəriyyə. Fadl əl-Hadara əl-islamiyyə əl-`arabiyyə fi-l-aləmi.Qahirə, 1970, s.314; Hacı Sabir Həsənli. İslam mədəniyyətində elm, s.106.

verilmişdi və onlar tədris üslubu seçməkdə müstəqil idilər. Bundan əlavə, mədrəsədə dərs deyən müəllimlər tələbələrinə özləri yazdıqları əsərlərdən dərs keçirdilər. Dərslər asandan çətinə, sadədən mürəkkəbə prinsipi əsasında qurulmuşdu. Tələbələrə əvvəlcə dilçiliyin əsasları öyrədilir, daha sonra müxtəlif nəzəri elmlər tədris olunurdu. Fiqh və onun üsullarının öyrədilməsi "Nizamiyyə" də təhsilin son mərhələsini təşkil edirdi .

Sözün həqiqi mənasında mədrəsə deyilərkən anılan tədris ocaqları daha çox Alp Arslan və ondan sonra oğlu Məlikşahın vəziri olmuş Nizamülmülkün Nişapur və Bağdadda tikdirdiyi təhsil ocaqları yada düşür. X əsrin sonlarında xüsusilə ilahiyyat sahəsində mübahisəli fikirlərin artması mədrəsələrin yaranmasına təkan verirdi. Məscidlərdə («Allahın evində») mübahisə açmaq istəməyən alimlər xüsusi dini təhsil müəssisələrinin-mədrəsələrin əsasını qoydular.

Bağdaddakı Nizamiyyə mədrəsəsindən qabaq Nişapur başda olmaq üzrə Şərqi İslam dünyasında otuzdan çox mədrəsənin tikilməsi haqqında məlumat vardır[1].

Tədqiqatçı Nəbi Bozqurt "Səlcuqlar tarixi" əsərinə əsaslanaraq yazır ki, ilk mədrəsələr Bəlx və Buxarada Buddist viharaları (bilginin toplıandığı yer) təqlid edilərək yaradılmışdır. "Buxara" adı da buradan, yəni "Vihara" sözündən götürülmüşdür.[2]

Bu dövrdə ilk belə müəssisə Nişapurda açıldı. Adam Mets ən mötəbər mənbələrdən saydığı "Nişapur tarixi" əsərinin müəllifi əl-Hakim Əbu Abdullaya (h. 321-405/933-1014) əsaslanaraq ilk mədrəsənin onun müasiri olmuş Nişapur alimlərinin tarixini yazmış əl-İsfəraini (ö.418/1027) tərəfindən Nişapurda açıldığını yazır[3]. Abbasi xəlifələri mədrəsə tikintisi sahəsində bir-birləri ilə yarışa girir, ətraflarına topladıqları alimlərin adı və şan-şöhrəti ilə fəxr edirdilər. Kütlə arasında nüfuzu güclü olduğu üçün hakim dairələr alimləri ələ almağa çalışır, onları hər vəchlə saraya

---

[1] Naci Məruf. Mədaris qablə-n-Nizamiyyə, Bağdad. 1973, s. 67-68.

[2] Nəbi Bozqurt, Medrese. 1. A., Ankara, 2004, 28-ci il, s. 324.

[3] Мец А. Мусульманский ренессанс. Перевод с нем.:пред., библ. и указ. Д.Е.Бертельса. М.:1966, с. 151-152.

dəvət edirdilər[1]. Böyük qəznəvi sultanı Mahmud ibn Səbük Təkinin dövründə (999-1030) mədrəsələrə böyük önəm verilirdi. Bu hökmdar elm və mədəniyyətin hamisi kimi alimlərin qayğısına qalırdı. Beyhaqda Qəznəvi sultanının dörd məzhəb üçün tikdirdiyi dörd mədrəsə öz zamanına görə məşhur idi.

Nişapur, Qahirə və İsgəndəriyyə ilə yanaşı, IX əsrin ortaları - X əsrlərdə tərəqqi dövrünü keçirən Bağdadın artıq X-XII əsrlərdə xüsusi çəkisi artmışdı. Bu elə bir dövr idi ki, dini münaqişələr artmış, şiəlik tərəfdarları çoxalmışdısa da mədrəsələrin də sayı artmışdı. Nizamiyyə mədrəsəsinin adı vəzir Nizamülmülkün adından götürülmüşdür. Bu mədrəsələr Nizamülmülkün şərəfinə «Nizamiyyə» mədrəsələri adlanmışdı.

Nizamiyyə mədrəsəsinin yaradılması barədə naxçıvanlı alim Hinduşah ən-Naxçıvani belə bir hadisə danışmısdı: "Sultan Alp Arslan Nişapur şəhərinə girərkən kirli və kasıb halda olan bir qrup adamla rastlaşdı. Onlar sultanı görərkən nə salam verdilər, nə də hörmət etdilər. Sultan təəccüb edib belə davranış barədə vəziri Nizamülmülkdən bu barədə soruşarkən, o, demişdi: "Dünya nemətləri onlar üçün deyildir, onlar bu dünyadan zövq almazlar. Qiyafətləri isə yoxsulluqlarına dəlalət edir. Sultanımın icazəsi olarsa onlar üçün qalacaq bir yer inşa edər və onlara rizq verərəm. Beləliklə, onlar elm təhsili və dövlətin inkişafı üçün dua ilə məşğul olarlar[2].

Nizamiyyə mədrəsəsinin adı vəzir Nizamülmülkün adından götürülmüşdür. Bu mədrəsələr Nizamülmülkün şərəfinə «Nizamiyyə» mədrəsələri adlanmışdı. Nizamülmülk ləqəbi daşıyan Həsən ibn Əli Alp Arslanın (455-465/1063-1072) dövründə ölkənin daxili həyatının idarə edilməsində demək olar ki, bütün səlahiyyətlərə malik idi. O, 1018-ci ildə Xorasanda dehqan ailəsində doğulmuşdu. İstedadlı gənc olan Həsən ibn Əli hələ Qəznəvilər vaxtında inzibati sahədə işləmişdi, sonra Bəlxdə Səlcuq

[1] Hacı Sabir Həsənli.İslam mədəniyyətində elm. B., 1998, s. 106.
[2] İbn Səncər Hinduşah Naxçıvani. Təcəribu-s-Sələf. Naşir Abbas İqbal. Tehran, 1313, s. 270.

əmirinin katibi olmuş, daha sonra Çakır bəyin ölümündən sonra Şərq vilayətlərini idarə edən Alp Arslanın vəziri təyin edilmişdir. O, çox gözəl başa düşürdü ki, din azadlığının qəbul edilməsi və mane olunmaması ölkənin və onun hökmdarının xeyrinədir. Ona görə də o, Alp Arslanı şiələr və əşarilərə qarşı gördüyü tədbirləri ləğv etdirməsinə inandırması ilə yanaşı bundan da daha çox güzəştə nail oldu. O, Əli imamlarının qəbirlərinə ehtiram göstərilməsinə nail oldu. Belə bir siyasət ziyalı təbəqədə dövlətə qarşı daha yaxşı təəssürat yarada bilmişdi. Xətib Təbrizi öz şeirində "həm özü qazandığı, həm də ata-babadan qalma var-dövləti səxavətlə paylayan", "xain taleyin məhrumiyyətindən insanları xilas edən", "quraqlıq illərində özsəxavət yağışı ilə güllərə həyat verən alicənab şəxs" kimi tərifləyir. Nizamiyyə mədrəsələrində, tədris və təlim kimi missiyanın yerinə yetirilməsində bu şəxsiyyətin əvəz olunmaz böyük rolu xüsusi qeyd olunmalıdır.

Qeyd etmək lazımdır ki, Nizamiyyəyə ən layiqli, kamil biliyə malik olan mütəxəssislər işə götürülürdü. Bu sahədə Azərbaycanın Gəncə və Naxçıvan bölgələri ilə birlikdə Şirvan xüsusilə fərqlənmişdir. Şirvanın digər müdərrisi alim, şeyx, çox sayda təfsirləri bilən fəqih, disput aparmaq məharətinə malik olan Şirvan qazısı Məcdəddin Əbü-l-Məcd ibn Səncər əş-Şirvani gecə-gündüz elmlə məşğul olurdu.

Mədrəsələr əsasən bir mərtəbəli, bir evli, ətrafında isə bir dərsxana və tələbə otaqlarından ibarət olurdu. Dərsxana, müdərris otağı və danışmənd hücrələrinin hamısı bir mərtəbədə yerləşirdi. Mədrəsələrdə ayrıca bir məscid yer ala bilməzdi, baş tərəfində mehrab yeri olan dərsxanalarda gündəlik namazlar qılınırdı. Mədrəsələrin təhsilvə elmi fəaliyyətində əsas ünsürlərdən biri vəqf kitabxanalarının olmasıdır. Kitabxana otağı olmayan bəzi mədrəsələrdə isə vəqf kitabları dərsxananın rəflərində yerləşdirildi. Mədrəsələrdə təhsil ərəb dilində aparılırdı. Müsəlman ilahiyyatı və fiqhi, Quranın qiraəti və öyrənilməsi, təfsir, hədislər və s. mədrəsələrdə keçirilən fənlər idi. Bəzi mədrəsələrdə ərəb dili və qrammatika, filologiya, məntiq və s. də keçirildi. Tədris üçün müəyyən vaxt təyin edilmirdi; tələbələr istədikləri müddət ərzin-

də mədrəsədə qalaraq istədikləri müdərrisləri hətta həyatlarının sonuna qədər dinləyə bilərdilər[1]. Bu mədrəsələr eyni vaxtda həm məktəb, həm də yataqxana rolunu oynayırdı. Xarakteri və xarici görünüşü mükəmməl olan istedadlı oğlan uşaqlarını məsciddəki məktəbin rəhbəri özü seçib tələbə kimi götürürdü[2]. Şəriət dərslərində məşğələlər müdərrisin "qumu" (ərəbcə: "ayağa qalxın") deməsi ilə müşayət olunaraq "əl-həmdu li-llah" və Məhəmməd əleyhissəlamın şəninə sözlərilə başlayıb yenə də Allaha və rəsuluna dua ilə başa çatırdı.[3]

Tələbələr mədrəsələrdə xüsusi zaviyələrdə yaşayırdılar. Onlar müdərrislərin mühazirələrini dinləyir və seçilmiş kitabları oxumaqla məşğul olurdular. Mədrəsədə bir şərt gözlənilməli idi. Qadınlara mədrəsəyə daxil olmaq qadağan idi. Evli tələbələr həftədə bir dəfə həyat yoldaşı ilə görüşmək üçün evinə dönə bilərdi. "Üç aylarda" və xüsusilə də ramazanda mədrəsənin tətili olarkən ehtiyacı olan tələbələrə öz qəsəbə və kəndlərinə getmələri üçün icazə verilir, onlar isə orada katiblik, vaizlik edərək əldə etdikləri pulla keçinməyə çalışırdılar.

İbn əl-Furatın (923-924) 3-cü axırıncı vəzirliyi vaxtı hədis öyrənən tələbələrə 20000 dirhəm ianə verilirdi. A.Metsin məlumatına görə bu adi hal sayılmırdı. V.V.Bartold onun bu məlumatı götürdüyü Hilal əs-Sabinin "Kitab əl-Vüzara" və ibn Miskəveyhin tarix kitabından bəzi təfsilatları əlavə edir. İanələr "ədəbiyyatı öyrənən tələbələr" ("tülləbu-l-ədəb"), "hədisləri qeyd edənlər", yəni ilahiyyatı öyrənən tələbələr" arasında bərabər bölünürdü. Və bu, Əməvilər dövründə edilən ianədən sonra ən böyük ianə sayılırdı. Əməvilər dövründə Məsləmə ibn Əbdülməlik" ədəbiyyatı öyrənən tələbələr"in ("tülləbu-l-ədəb") xeyrinə öz əmlakının üçdə bir hissəsini bağışlamışdı[4].

---

[1]Петрушевский И.П. Ислам в Иране в VII-XV веках. Л., 1966. с. 92.
[2]Сейидбейли М. Научно-культурная жизнь Азербайджана (второй половины XIII-начало XIV в.) Баку: 1999, с. 60.
[3] Əs-Sübki Təkiəddin. Təbəqat əş-Şafiiyyə əl-Kübra. Qahirə, 1906, c. II, s. 257.
[4]Бартольд В.В. Ученые мусульманского «ренессанса». Работы по истории ислама и арабского халифата. Сочинения, т. VI . М.: Главная редакция восточной литературы, 1966, с. 621.



***Nizami Gəncəvi.***
*“Leyli və Məcnun” əsərinə çəkilmiş miniatürlər.*



***Nizami Gəncəvi.***
*“Leyli və Məcnun” əsərinə çəkilmiş miniatürlər.*

Mədrəsə təhsilini müvəffəqiyyətlə tamamlayan tələbələrə icazət verilir, bir müddətdən sonra qabiliyyəti olmayan tələbələr isə uzaqlaşdırılırdı. Dərslər əzbərləmə, təkrar, təfəkkür, müzakirə və imla metodu ilə öyrədilməyə çalışılırdı.

Orta əsr müəlliflərinin məlumatına görə, məscidlərin nəzdində tədris müəssisələri də fəaliyyət göstərmişdir. Yaqut əl-Həməvi və İbn əl-Fuvati Azərbaycanda Urmiyada və Təbrizdə məcsidlərin tərkibində fəaliyyət göstərən mədrəsələr barədə məlumat verirlər[1].

Qeyd etmək lazımdır ki, müdərrislərin fəzilətləri ərəbdilli müəlliflər tərəfindən xüsusi olaraq vurğulanır, onları başqalarından fərqləndirən cəhətləri qeyd edilir, müdərris kimi vəzifəyə götürülən ziyalıların əməlisaleh və inamlarının möhkəm olmaları nəzərə alınırdı. Onlarla qrammatika, dinin əsasları, üslub, şeir, şafii məzhəbi, fiqh və s. üzrə çoxcildli əsərləri ilə tanınan urmiyalı müdərris əl-Həsən ibn Əbülhəsən əs-Safi haqqında əs-Səmaninin məlumatı müdərrisin hansı şəxsi keyfiyyətlərə malik olmalıdır fikrini tamamlayır: "Allahdan qorxan, zahid bir həyat sürən, müttəqilərin imamlarından hesab edilən əs-Safi görkəmli və fəzilətli olması ilə fərqlənirdi[2].

Orta əsrlərdə müdərrisin hansı keyfiyyətlərə malik olması fikrini İbu əl-Fuvatinin Şirvan qazısı-müdərris Məcdəddin Əbü-l-Məcid ibn Səncər əş-Şirvani haqqında Təbrizdə h.673(1274-1275) dediyi sözlərlə tamamlamaq olar: çox sayda təfsirləri bilən fəqih, disput aparmaq məharətinə malik olan, öz üzərində gecə-gündüz məşğul olan alim, şeyx.

Ərəb bioqrafik ədəbiyyatının nümayəndələrindən İbn əs-Sabuni Əbülabbas Əhməd ibn əl-Xəlil ibn Səadə ibn Cəfər ibn İsa əl-Xuveyyinin (h. 583-657/1187-1239) fəzilətlərini belə ifadə edir: Müstəqil surətdə idarə işlərinə başçı kimi Dəməşqə daxil olmuş və dərs demiş, bir çox elmləri bilən Qazı, fəzilətli şafii

[1]Əliyeva N. Azərbaycan Yaqut əl-Həməvinin əsərlərində. Bakı, 1999, s. 205-206; Сейидбейли М. Научно-культурная жизнь Азербайджана (второй половины XIII-начало XIV в.) Баку, 1999, с. 60.

[2] Əs-Səmani. Əl-Ənsab.V c., s. 37.

fəqihi, xoylu Əllamə fəxr olunmağa layiq bir həyat tərzi sürmüşdür[1].

Mədrəsələrdə müdərris vəzifəsindən başqa müid – məktəbdənkənar işlər üzrə repetitor vəzifəsi də olmuşdur. Vaxtilə bir çox məşhur adamların vətəni olan Azərbaycandakı Səlmas şəhərində anadan omuş Sədid Məhəmməd ibn Hibbətullah ibn Abdulla əs-Səlmasi (ö. 1152-ci ildə) Yaxın və Orta Şərqin bir çox görkəmli alimlərinin ustadı olmuş, bir neçə elmi mükəmməl bilən Bağdaddakı Nizamiyyə mədrəsəsində müidişləmişdir[2].

Sultan tərəfindən dövlət xidmətinə təyin olunmuş alimlər həm müavinət alır, bəzənisəiqta torpaqlarına sahib olurdular. Bununla bərabər xüsusi hamilik də qalırdı.

Məscidlər kimi mədrəsələr də vəqf adlandırılan gəlir əmlakı ilə (kəndlilərilə birlikdə becərilən torpaqlar, bağlar, üzümlüklər, dəyirmanlar, şəhərlərdə-dükanlar, bazarlar və s.) təmin olunurdu. Tacirlər və sənətkarlar mədrəsələrə icarə pulu kimi vəsait verirdilər. Bu vəqflərdən gələn gəlir bütünlüklə müdərris, onların köməkçiləri vədigər xidməti personala verilir, eləcə də məscid və mədrəsə binalarının saxlanılması və təmirinə gedirdi. Habelə vəqf dükanlarını kirayələyir və onlardan alınan pulu isə məscid və mədrəsələrə verirdilər. Naxçıvandakı "Cəfəriyyə" məscidinin divarına vurulmuş lövhədə məscid üçün iki dükanın vəqf olunduğu yazılmışdır. Bunlardan birindən gələn gəlir məsciddə yaşayanlara, digəri isə məscidin nəfinə nəzərdə tutulurdu.

Beləliklə, Sultan tərəfindən dövlət xidmətinə təyin olunmuş alimlər həm müavinət alır, bəzən isə iqta torpaqlarına sahib olurdular. Bununla bərabər xüsusi hamilik də qalırdı. Mədrəsələrdə tələbələr üçün şafii və hənəfi məzhəbinə mənsub qanunşünaslıq üzrə təlim verilirdi. O, məhkəmə təsisatında qazı qismində işləyə bilər, müfti kimi hüquqi məsləhətlər verə bilər, təhsil müəssisəsində müdərris kimi çalışa bilərdi. Bununla yanaşı qa-

[1] İbn əs-Sabuni. Kitab təkmilət ikməlil-ikməl fi-l-ənsab va-l əsma' va-l əlqab. Mustafa Cavadın nəşri. İraq, 1377/ 1957, s. 40.

[2] İbn Xallikan. Kitabu vəfayət əl-əyan va ənbə`u -z-zaman. I c., Qahirə, 1981, s. 31.

nunvericilikdən uzaq olan ixtisaslarda da özünü sınaya bilərdi; öyrəndiyi hədisləri (imla üsulu ilə tədris edə bilər, tədris müəssisəsində vaiz kimi moizə oxuya bilər və ya sufi kimi sadəcə təsəvvüf cərəyanı nümayəndəsi (təmsilçisi) ola bilərdi. Belə şəxslər mənbələrdə üləma-alim, elm adamı, yəni dini bilən, dini işlərdə müəyyən dərəcədə məlumatı olan şəxslər adı altında birləşdirilirdi.

Şəhərlərin əzəmətli abidələri, mədrəsələri və xanəgahlarının olması həmin şəhərin statusunu artırır, daha yaxşı şəhərlərdən hesab olunmasına əsas verirdi. İbn Cubeyr Dəməşq Universitetini Dəməşq şəhərinin ən üstünü hesab edildiyi kimi, əslən Bakıdan olan Əbdürrəşid Bakuvi (XIV əsr) də Naxçıvanı Azərbaycanın yaxşı şəhərlərindən hesab edərək təsvirini verəndən sonra, mədrəsə və xanəgahların Naxçıvanı şərəfləndirdiyini yazır. Bu, Xilafət dövründə təhsilə və tədris ocağına verilən qiymət idi.

Beləliklə, Bağdad mədrəsəsi bir çox dövlət və elm din xadimi, münəccim, filosof, hüquqşünas və şair hazırlamışdı. Onlar Nizamülmülkün vəfatından sonra da öz fəaliyyətini davam etdirmiş və Şərq ölkələrinə böyük şəxsiyyətlər vermişlər.Onlardan:

1. Fəxrəddin Əbülfəzl İsmayıl ibn əl-Müsənnə ət-Təbrizi.O, Bağdadın Nizamiyyə mədrəsəsində mühazirələr oxumuşdur. “Azərbaycan tarixi” əsərinin müəllifidir. Çox təəssüf ki, bu əsər bizə qədər gəlib çatmamışdır. İbn əl-Müsənnə h. 580/1185-ci ildə Təbrizdə vəfat etmişdir. Marağa rəsədxanasının kitabxanasına başçılıq etmiş “Mucəm əl-əlqabın” müəllifi, görkəmli şəxsiyyətlərin kartotekasını tərtib edən İbn əl-Fuvati (1244-1326) onun haqqında yazırdı: Mən Təbrizdə sözün əsil mənasında görkəmli olan şəxs barəsində şəxsiyyətlər barəsində soruşanda mənə İbn əl-Müsənnəni nişanə verdilər. Mən soruşdum: “Ona bənzər ikincisi varmı? Mənə cavab verdilər: “O təkdir və ikincisi yoxdur”[1].

---

[1] Bünyadov Z.M. Azərbaycan Atabəyləri dövləti (1136-1225) Bakı: Elm, 1984, s. 230; İbn əl-Fuvati. Təlxis məcməi-l-ədəb fi mu'cəmi-l-əlqab. Lahor, 1936, IV c., s.117-118.

2. Xilafət ölkələri ziyalılarının bəzilərinin bir alim kimi yetişməsində Əbu Zəkəriyyə Yəhya ibn Əli ibn Məhəmməd ibn Həsən ibn Bistam əş-Şeybani ət-Təbrizinin böyük rolu olmuşdur. Ədəb və qrammatika sahəsində tam biliyə malik, dilçilik sahəsinin imamlarından sayılan Xətib Təbrizini Bağdadda uzun müddət Nizamiyyə mədrəsəsində dilçiliyin tədrisi kafedrasına və oradakı kitabxanaya başçılıq etmişdi. Onun bir alim kimi formalaşmasında müqri Əbüləla Əhməd ibn Abdulla ibn Süleyman, Əbülfəth Səlim ibn Əyyub ər-Razi, Əbulqasim ər-Rəqqi, Əbdülkərim əs-Səyyari və digər şamlıların böyük rolu olmuşdu[1]. Tarixçi-coğrafiyaşünas alim Yaqut əl-Həməvi Xətib Təbrizi haqqında maraqlı hadisə nəql edir: "Nağıl edirlər ki, gənc Xətib Təbrizinin Əbul-Əlanın yanına səfər etməsinin səbəbi belə olub. O, Əbu Mənsur əl-Əzhəri əl-Məərrinin "Kitab əl-Təhzib fi-l-luğə" əsərini əldə edir. Kitabı torbaya qoyub çiyninə ataraq Təbrizdən əl-Məərrəyə aparır. Onun minik tutmaq üçün pulu yox idi. Kürəklərindən axan tər kitabı isladır. Bu nüsxə Bağdadın kitabxanalarından birində mövcuddur. Hadisədən xəbəri olmayanlar ona baxdıqda suya düşdüyünü zənn edirlər. Halbuki, o, yalnız Xətibin təridir.[2]Görkəmli sufi şeyx-alimlərdən olmuş əs-Siləfi (1085-1180) Bağdadda Xətib Təbrizidən ərəb dilini öyrənmişdi.

3. Əbülfəzl Mahmud ibn Əhməd ibn Məhəmməd əl-Ərdəbili. Bağdadda "Ən-Nizamiyyə" mədrəsəsində dərs deyib. H. 625 (1228)-ci ildə vəfat edib[3].

Azərbaycanlı alimlər Nizamiyyə mədrəsəsində özünəməxsus mövqe tutmuşlar. Ziyalılarımız mənəvi qidanın axtarışında uzun yollar dəf edərək bu mədrəsəni ziyarət edir, burada yığışaraq elmi mübadilə aparır, həqiqəti üzə çıxarmaq istəyirdilər. Onlar elmi yaradıcılıqla bərabər tədrislə də məşğul olurdular. Onlardan bəziləri mühəddis olmaqla bərabər həm də müdərris idi. Bağdad-

[1] Bünyadov Z.M. Azərbaycan Atabəyləri dövləti (1136-1225) Bakı: Elm, 1984, s. 230; İbn əl-Fuvati. Təlxis məcməi-l-ədəb fi mu'cəmi-l-əlqab. Lahor, 1936, IV c., s.117-118.

[2]Yaqut əl-Həməvi. Mu'cəm əl-Buldən, I c.,s.13.

[3]Yenə orada; Əl-Əsnəvi. Təbəqat əş-şəfiiyyə. I h., Bağdad, 1390, s. 136.

da müəllim köməkçisi olan Əbu Məhəmməd Cəfər ibn Məhəmməd ibn Cəfər əl-Ərdəbili müəllimlik fəaliyyəti ilə yanaşı hədis nəql etməklə məşğul olmuşdur.

4.Bu mədrəsədə hüquqşünas alim Əminəddin Müzəffər ibn Əbu Məhəmməd ibn Əli ət-Təbrizi dərs demişdir. O, h. 588 (1163)-cü ildə doğulmuşdur. Üçcildlik "Sakt əl-fəvaidə" və "əl-Müxtəsər" əsərinin müəllifidir. Bağdaddan sonra Qahirədəki "Ən-Nasiriyyə əs-Salihiyyə" mədrəsəsində müəllimlik etmiş, sonra Şiraza köçür, 621-ci ilin zül-hiccə ayında (dekabr, 1224) orada vəfat edir[1].

5. Tacəddin Əbülfəzail Məhəmməd ibn əl-Hüseyn ibn Abdulla əl-Urməvi Fəxrəddin ər-Razinin böyük tələbəsi olmuşdur. Bağdada köçərək "Ən-Nizamiyyə" mədrəsəsində dərs deyib. H. 653 (1255)-ci ildə vəfat edib. "Əl-Hasil" əsərinin əlyazması Paris Milli kitabxanasında saxlanır(№61, kataloq 385)[2].

6.Bəzən müdərris vəzifəsini tutmaq üçün əvvəlcə müdərrisin assisenti vəzifəsində işləmək lazım gəlirdi. Azərbaycanlı ziyalılardan Təbrizdən bir fərsəx aralı yerləşən kəndlərindən sayılan Varandan çıxmış Əbü-l-Xeyr əl-Varani ət-Təbrizi (558/ 1162-621/1224) Bağdada gələrək, İmam Əbülqasim ibn Fadlan və başqalarından bir müddət fiqh elmini öyrənmiş, məzhəb, mübahisə doğuran fikir ayrılığı (xilaf) və üsulda daha saleh mövqe tutmuş, həllini, öyrənilməsini tələb edən bəzi məsələləri örənmişdir. Daha sonra «Nizamiyyə» mədrəsəsində işləmək üçün təyinat almış Əbül Xeyr əvvəlcə Bağdad mədrəsəsinin assisenti kimi kitabları təsnif etmiş, daha sonra isə müdərris kimi bir müddət Nizamiyyə mədrəsəsində işləmişdir[3].

7. Bağdadda müəllimlik edənlərdən biri də Umdətəddin Əbu Mənsur Məhəmməd ibn Əsəd ibn Məhəmmədibn İmadəddin Əbdül Həmid ibn Məhəmməd ət-Təbrizi olmuşdur. Əbu Həmid əl-

---

[1] Bünyadov Z.M. Azərbaycan Atabəyləri dövləti (1136-1225) Bakı: Elm, 1984, s.231; Əl-Əsnəvi. Təbəqat əş-Şafiiyyə, I, s. 314-315.

[2] Yenə orada, s. 231; Əl-Əsnəvi. Təbəqat əş-Şafiiyyə, I c., s. 451-452.

[3] Əliyeva N.A. İbn əs-Sabuni Azərbaycanın orta əsr görkəmli şəxsiyyətləri haqqında // Azərbaycan tarixi Muzeyi-2002. Bakı: Elm, 2002, s. 323.

Qəzali, Məhəmməd ibn Mənsur əs-Səmani və əl-Hüseyn ibn Məs`ud əl-Baqavinin müəllimi olmuşdur. H. 573(1178)-ci ilin (yanvar) rəcəb ayında Təbrizdə vəfat etmişdir [1].

8. Nizamiyədə mühazirə oxumuş ədiblərdən biri də əslən Gəncədən olan Əbu Həfs Ömər ibn Osman ibn Şüeyb əl-Cənzi (v.e. h. 550/1155-ci ildə Mərvdə) olmuşdur. Əs-Səmani bu ədibi fəzilət sahibi, dindar, xoş rəftarlı bir şəxsiyyət kimi oxucularına təqdim edir. Yaqut əl-Həməviyə görə Əbu Həfs Bağdaddan sonra vətəni Gəncəyə dönmüş, sonra isə ikinci dəfə Bağdada qayıtmışdır. Onun ölüm tarixini göstərən əs-Səmaninin məlumatına əlavə olaraq Yaqut əl-Həməvi onun yetmiş yaşında vəfat etməsini yazır. O, əlavə edərək yazır ki, ".Ömər əl-Cənzi iti ağlı ilə seçilir. Allah qarşısında çox mömin idi.bir çox əsərlər yazmış, özünün şərhini diqtə etməyə başlamışdı, əgər bunu tamamlasaydı, misli olmazdı. o məni tərənnüm etmişdi (ənşədəni)" və s.[2].

9.Nizamiyyəyə ən layiqli, kamil biliyə malik mütəxəssislər işə götürülürdü. Şirvan elmi-ədəbi məktəbinin yetişdirmələri xüsusi nüfuz sahibləri olmuşlar. XIII əsr müəllifi, Marağa rəsədxasının kitabxanasına başçılıq etmiş "Mu'cəm əl-əlqabın" müəllifi İbn əl-Fuvati (1244-1326)məlumat verir ki, Şamaxıda doğulmuş Qəvaməddin Əbu Nəsr Yunis ibn Mənsur ibn İbrahim Əş-Şirvani (ö. 1258) vətəni Şirvanda təhsil almışdı. Şirvan elmi-ədəbi məktəbinin yetişdirməsi kimi məşhurlaşdığı üçün Nizamiyyə mədrəsəsinə dərs deməyə dəvət olunmuşdur. Elmi-asami (onomastika) sahəsində əsərlərin müəllifi, müqayisəli qrammatika üzrə məşhur alim olmuşdur. Onun fəlsəfədən də dərs deməsi məlumdur. İbn əl-Fuvati onun din yolunda şəhid olduğunu qeyd edir[3].

10. İlahiyyatçı alim əl-Müzəffər ibn Əbu Xeyr ibn İsmayil əl-Varani fiqh elmini Mosulda Əli Əbülmüzəffərdən, Bağdadda

---

[1] Z.Bünyadov. Atabəylər. Bakı, 1984, s.231; İbn əl-Fuvati IV/II, 890-891.

[2]Yaqut əl-Həməvi. İrşad. IV c., s. 49; Əliyeva N.A. Azərbaycan Yaqut əl-Həməvinin əsərlərində. Bakı: Çaşıoğlu, 1999.

[3]Сейидбейли М.Г. Научно-культурная жизнь Азербайджана (второй половины XIII-начало XIV в.). Баку: Чашыоглу, 1999, s. 118.

İbn Fadlandan öyrənmişdir. Bağdad məktəbinin assisenti olmuş, kitabları təsnif etmişdir[1].

11. Orta əsr ərəbdilli müəlliflərdən əs-Sübqi "Tabaqat əş-Şəfiiyyə əl-Kubra" əsərində əslən azərbaycanlı olan Əbü-l-Müzəffər Abdulla ibn Yusif ibn Əbdülqadirin Bağdadda Müciröddin əl-Bağdadinin yanında təhsil aldıqdan sonra Nizamiyyə mədrəsəsində dərs deməsi haqqında məlumat verir.

12.Azərbaycanlı alimlər Nizamiyyə mədrəsəsində özünəməxsus mövqe tutmuşlar. Ziyalılarımız mənəvi qidanın axtarışında uzun yollar dəf edərək bu mədrəsəni ziyarət edir, burada yığışaraq elmi mübadilə aparır, həqiqəti üzə çıxarmaq istəyirdilər. Onlar elmi yaradıcılıqla bərabər tədrislə də məşğul olurdular. Onlardan bəziləri mühəddis olmaqla bərabər həm də müdərris idi.

### *2.2.2. "Gəncə" mədrəsəsi*

X əsrin 70-ci illərindən Arranda hökmranlıq edən Şəddadilər sülaləsinin paytaxtı Gəncə çox keçmədən Bərdəni geridə qoyaraq Arranın ən iri şəhərinə çevrilir. Böyük Səlcuqilərin üç ən böyük şəhəri (Mərv, Nişapur və İsfahan) ilə yanaşı Gəncə də böyk şəhərlər sırasına daxil olur[2]. Lakin, XII əsrin I yarısında Gəncədə basqın və qarətlər şəhəri təmamilə dağıtmışdı. Buna baxmayaraq, şəhərin strateji mövqeyi, xüsusilə sənətkarlığın yüksək inkişafı[3] eləcə də sultanın canişini Qara Sonqurun öz qoşunları ilə gəncəlilərə qoşulması şəhərin "əvvəlki gözəlliyinin" bərpa olunmasına imkan vermişdi. Əl-Bundariyə görə, zəlzələdən sonra şəhər "əvvəlkindən də yaxşı" tikilmişdi[4].

Qeyd etmək lazımdır ki, Xilafətin hakimiyyət mərkəzləri, həmçinin elm, mədəniyyət mərkəzləri idi. Bu mərkəzlərdə dini, mədəniyyəti və dilləri müxtəlif olan alimlər elmin bütün sahələ-

---

[1] Yaqut əl-Həməvi.Mu'cəm əl-Buldən, 1907, V c., s. 347.
[2] Sümer F. Eski türklerde şehercilik. Ankara, 1994.
[3] Альтман М.М. О гянджинском землетресении в XII веке // Сб. «Низами», ч. 1. Баку: 1940 s. 108-111.
[4] Yenə orada, c. 62.

rinə yiyələnməyə çalışırdılar. Müxtəlif bölgələrdə yaşayıb yaratmış, elm öyrənmək niyyəti ilə mədəniyyət mərkəzlərinə səyahət etmiş bir çox xalqların nümayəndələri məhz bu bölgələrdə fəaliyyət göstərərək təcrübə mübadiləsi aparır, yeni məlumatlar əldə edərək biliklərini artırırdılar. Bu mədəniyyət mərkəzlərindən biri də Gəncə şəhəri olmuşdur. Coğrafiyaşünas səyyah-tarixçi Yaqut əl-Həməvinin məlumatına görə, Azərbaycan şəhərlərində olan ərəb və fars dillərində zəngin kitab fondlarından biri də Gəncədə yerləşmişdi. Belə kitab fondları olan kitabxanalar bütün arzu edənlər üçün açıq olurdu. Bura gələnlər qiraət və kitabların üzünü köçürməklə məşğul olurdular. Kənardan gələnlərə mürəkkəb və qələm verirdilər, elmin müxtəlif sahələrində işləyən alimlər isə maaşla təmin olunurdu. Belə kitabxanalarda məşhur alimlər iştirak edir, onların disputları təşkil edilirdi[1].

Gəncədəki elmi məclisdə ərəb ədəbiyyatı tarixində mavlə, böyük əmir, alim, tarixçi, ədib, hafiz, tənqidçi, nəssəbə (geneologiya ilə məşğul olan alim - N.Ə.) kimi məşhur olan əmir ləqəbli bağdadlı hafiz Əbu Nəsr Əli ibn Hibbətullah ibn Əli ibn Cəfər ibn Əli ibn Məhəmməd ibn Makula (1030-1082) kimi hörmətli alim iştirak etmişdi. Əs-Səmaninin (1113- 1167) məlumatından aydın olur ki, İbn Makula burada Gəncə kitabxanasının mühafizi naxçıvanlı Xodadad ibn Asim ibn Bəkran ən-Nəşəvinin hədislərini dinləmiş[2], onunla fikir mübadiləsi etmişdir. Bu fakt Yaqut əl-Həməvinin (1178-1179-1227) məlumatının dəqiqləşdirilərək Gəncə kitabxanasının İbn Makulanın yaşadığı dövrdə, yəni XI əsrdə fəaliyyətini göstərir.

Elm mərkəzi kimi Gəncə həm də sufi şeyxlərin toplşaraq hədis məclislərində fəaliyyət göstərdikləri şəhərlərdən olmuşdur. Çox görkəmli sufi şeyx-alimlərdən olmuş əs-Siləfi (1085-1180) Azərbaycanla yaxından bağlı bir şəxsiyyət olmuşdur. Bağdadda

---

[1]Халидов А.Б. Арабские рукописи и арабская рукописная традиция. М.: Наука, 1985, s.192.

[2] Əbdülkərim əs-Səmani. Kitab əl-Ənsab. Beyrut, V c., s. 387-388.

əl-Kiyə Əbülhəsən əl-Hərrasidən fiqhi, Xətib Təbrizidən isə ərəb dilini öyrənmişdi. Onun böyük nüfuzu sayəsində Misirin sahibi Fatimi xəlifəsi əz-Zahir əl-Ubeydinin vəziri əl-Adil əl-Həsən ibn əs-Sallar 1151-ci ildə İsgəndəriyyədə mədrəsə tikdirdirərək, hədis toplamaq niyyəti ilə bir çox şəhərlərə, o cümlədən Gəncəyə səyahət etmiş, orada çoxsaylı hafizlər, zəmanəsinin tanınmış şeyxləri ilə görüşmüşdü[1]. Əbu Tahir əs-Siləfi kimi alim şeyxlərin Gəncə ziyarətində yerli alimlərlə görüşərək elmi mübadilə aparması yerli mədəni mühitin abu havasından xəbər verir.

Sultan və vəziri Nizamülmülk Arraniyyə məscidinə çatanda İbn Makula da Gəncəni ziyarət edən alimlər arasında idi[2].

Səlcuqlar dövründə müdərrislər mədrəsələrin baş müəllimləri hesab edilirdi. Onlar sultanlar və vəzirlər tərəfindən təyin edilirdi. Nizamülmülk vəzirliyi dövründə müdərrisləri özü təyin edirdi. Sultan Səncərin (1096-1157) də müdərrisləri təyin etdiyi məlumdur[3].

Gəncədə hədis məclisləri ilə yanaşı ədəbi yarışmalar da təşkil olunurdu[4]. Bu şəhər bir çox görkəmli şəxsiyyətlər yetirmişdir. Nizamı Gəncəvi kimi bir düha Gəncədə yazıb-yaratmışdır. XI əsrin sonlarında yaşayıb fəaliyyət göstərmiş Azərbaycanın böyük şairlərindən Qətran Təbrizi dəfələrlə Gəncədə olmuşdur. Ola bilməz ki, belə yüksək səviyyəli ziyalıları olan şəhərin elmi-mədəni mühitinin göstəricilərindən biri olan təhsil müəssisələri olmasın.

Gəncədə bir çox alimin harada təhsil alması sualı bir çox tarixçiləri düşürdürmüşdü. “Gənclik illərini kitablara sərf etmiş” Məsud ibn Namdar harada təhsil almışdı, Gəncədə Nizamiyyə tipli mədrəsələr mövcud olmuşdurmu? Bu fikir Məsud ibn Namdarın məcmuəsinin faksimilesini nəşr edən və ona geniş

---

[1]İbn Xallikan. Kitabu vəfayət əl-əyan va ənbə`u -z-zaman. I c., Qahirə, 1981, s. 31.
[2]Əs-Siləfi. Mu′cəm əs-Səfər /www.al-mostafa.com
[3] Mehmet Altay Köymen. Alp Arslan və zamanı. Ankara, 1983, s. 365, qeyd 67.
[4]Мас′уд ибн Намдар. Сборник рассказов, писем и стихов. Факсимиле текста, предисловие и указатели В.М.Бейлиса. М.: Наука, 1970, арабскийтекст, 170 s.

müqəddimə yazmış professor V.Beylisi də düşündürmüşdü, lakin, faktın yoxluğu üzündən o, bu suala cavab tapa bilməmişdi.

Hazırkı dövrə qədər Azərbaycan tarixşünaslığında Gəncədə yerli təhsil müəssisəsinin olması haqqında fakt mövcud deyildi[1]. Əs-Siləfinin (h.478/1085-576/1180) "Mu'cəm əs-Səfər" əsəri bizə bu boşluğu doldurmağa imkan verdi. Əs-Siləfi Misirdən Yaxın və Orta Şərqin, o cümlədən Arran və Azərbaycanın şəhərləri arasında mədəni inkişaf səviyyəsinə görə seçilən Gəncəyə səyahət etmişdi. O, Gəncədə olarkən bu şəhəri ziyarətə gəlmiş bir çox alimlərlə görüşmüş, onların nəql etdikləri hədisləri dinləyərək öyrənmiş, bu alimlər haqqında yeni məlumat toplamışdır. Onların arasında: "Öz zəkası ilə işıq saçan" Əbu Abdulla Muhəmməd ibn Əli ibn Muhəmməd ət-Təbəri əs-Siləfiyə həsr etdiyi şerini oxumuşdur. Əs-Siləfi "Mu´cəm əs-Səfər" əsərində Azərbaycan və onun bir çox şəhərləri, o cümlədən Gəncə və onun Nizamiyyə mədrəsəsi haqqında məlumat verir. Məlum olur ki, Gəncədəki mədrəsədə qazı Əbu Abdulla Məhəmməd ibn Əli ibn Muhəmməd ət-Təbəri kimi müdərris fəaliyyət göstərmişdir. "Parlaq zəkalı" bu şəxs oradakı təhsilə rəhbərlik etmişdir."Gəncədə Nizamulmülkün onun atası üçün tikdirdiyi mədrəsədə müdərris vəzifəsində çalışmışdır. Fiqh və ədəb elmi fənlərinin müdərrisi olmaqla yanaşı həm də burada təhsilə başçılıq etmişdir. Əbu Abdulla ət-Təbəri həmin mədrəsədəki tədrisə rəhbərlik edərkən yaxşı işləmiş, onun idarəçilik qabiliyyəti daha da artmışdı". Ən-Nizamın Gəncədə tikdirdiyi mərdəsədə ilk dəfə dəsr demək səlahiyyətini ola bilsin ki, Əbu Abdulla Məhəmməd ət-Təbərinin atası sufi-şafii-əşari alimi əl-Kiya əl-Hərrasi kimi məşhur olan Şəms əl-İslam İmadəddin Əbülhəsən Əli ibn Məhəmməd ət-Təbəriyə (450/1058-504/1110) vermişdir. Əl-Kiya əl-Hərrasi Nişapurdakı Nizamiyyə mədrəsəsinin ilk rəhbəri məşhur imam əl-Cuveyninin (ö.478/1086) tələbəsi olmuşdur. Mənşəyini Təbə-

[1] Бейлис В. Сочинения Мас´уда ибн Намдара как источник по истории Аррана и Ширвана нач. XII в. и памятник средневековой арабской литературы. Автореферат диссертации на соискание ученой степени доктора исторических наук. Баку: 1975, s.14.

ristandan götürmüş "ləyaqətli insan olan alim şeyx əl-Kiyə əl-Hərrasi Nizamiyyə mədrəsəsində dərs demiş azərbaycanlı fəqihlərin də müəllimlərindən sayılırdı. Güman etmək olar ki, əl-Kiyə əl-Hərrasi daha sonra Gəncəyə müdərris təyin edilmişdi. Məsud ibn Namdarın əsərinin əlyazmasında doqquz dəfə əl-Kiyə əl-Hərrasinin adı çəkilir. Digər tərəfdən Gəncədə təşkil olunmuş elmi yarışmalarda imamlar, divan əhli, qazılar iştirak edirdilər. İbn Namdara görə, bu yarışmalarda Camal əl-Quda Əbu-l-Həsən Əli ibn Məhəmməd ibn Məhəmməd ət-Təbəri də iştirak etmişdi. Z.Saidova görə mədrəsənin rəhbəri ikinci ət-Təbəri, yəni Camal əl-Quda da ola bilərdi. Bu şübhə hər iki şəxsiyyətin adının eyni olması, yalnız künyələrində fərqin olması ilə əlaqədardır.

Azərbaycanlı müdərrislərdən XII əsr ərəbdilli ədibi əslən Gəncədən olan Əbu Həfs Ömər ibn Osman ibn Şüeyb əl-Cənzinin (v.e. h. 550/1155-ci ildə Mərvdə) Nişapurda Nizamülmülkün oğlu Fəxrülmülkün (v.e.1106-cı ildə) uşaqlarına dərs deməsi gəncəli müdərrisin tədris ilində mahir ustad olduğunu göstərir. Fəzilət sahibi, dindar, xoş rəftarlı bu ədib Bağdadda qaldığı müddətdə böyük alimlərlə, o cümlədən Əbulmüzəffər əl-Əbivərdi ilə dostlaşaraq ondan elm öyrənmşdi. Əbu Həfs Ömər ədəb elminin sirlərini dərindən mənimsəmək niyyəti ilə Bağdaddan sonra Həmədanda da bu alimin yanında təhsilini davam etdirmişdir. Sərxəsdə Əbu Həfslə görüşən əs-Səmani onun özündən eşitdiyi şeirlərindən parçalar yazmışdır. Əbu Həfs Bağdadda təhsil aldıqdan sonra vətəni Gəncəyə dönmüş, sonra isə ikinci dəfə Bağdada qayıtmış, yetmiş yaşında vəfat etmişdir. L.Orucova və Z.Şıxalibəyli yazır ki, bir çoxları güman edirlər ki, Ömər ibn Osman əl-Cənzi Nizami Gəncəvinin dayısı olmuşdur[1].

### *2.2.3. "Şamaxı" mədrəsəsi*

Ərəb alimi Əbülqasim İbn Havqəl hələ IX-X əsrlərdən Bərdədə, Beyləqanda, Şamaxıda, Dərbənddə, Tiflisdə böyük elmi

[1]Развитие арабской филологии в Азербайджане / Оруджева Л.М., Шихалибейли З.Е. Баку: Нурлан, 2004, с. 25.

mərkəzlərin olmasını xəbər verir. Şamaxıda aparılan axreoloji qazıntılar Şamaxı Cümə məscidinin həyətində aşkar olunmuş abidələr haqqında belə nəticəyə gəlməyə imkan vermişdir ki, Şamaxı Cümə məscidi VIII-IX əsrlərdə mövcüd olmuşdur. Burada aşkar olmuş hücrələr ilk dəfə XII əsrdə tikilmişdir. Arxeoloqlar H.Ciddi, N.Musayevə görə hücrələrin Şamaxı Cümə məsdidi nəzdində tədris ocağı olması heç bir şübhə oyatmır. Onlar tədris ocaqlarının həcmini nəzərə alaraq, qeyd edirlər ki, səkkiz hücrədə eyni vaxtda 80 nəfər tələbənin dərs alması mümkündür ki, bu da XII əsr üçün diqqətəlayiq rəqəmdir. Orta əsrlərdə ali məktəblərin məhəllə məscidlərində və ali təhsil ocaqlarının Cümə məscidlərinin yaxınlığında yerləşməsi faktına əsaslanaraq müəlliflər həmin hücrələri Nizami dövründə ali mədrəsə vəzifərini ifa etdiyini söyləmişlər[1]. Bəs bu ali təhsil müəssisəsinə kim başçılıq etmişdir. Heç şübhəsiz, belə bir tədris ocağına Xaqani Şirvaninin əmisi Kafiəddin Ömər Osman oğlu Şivani ( 1080-1151) rəhbərlik edə bilərdi. Xaqani Şirvani bu elm mərkəzinin valisini belə səciyyələndirirdi. " O, cahı-cəlalı dünyəvidən üz döndərən, fəqirə sığınan, pisi yaxşıdan seçən, gələcəyə ümid bağlayan "Sədri fəzail" ("Fəzilətin başçısı) olan şəxs idi. Kafiəddin Şirvaninin şəninə təriflər söyləyən Xaqani onun "elmi hikmətdə", "elmi ədəbdə" ən yaxşı hünər sahibi, qüdrətli hakim, mahir cərrah, riyaziyyatda ustad təfəkkürlü, "darul-ülumda" ustad, dahi müəllim, gənclərin fərasətli yolgöstərəni, yer üzünün filosofu, fələk bacarıqlı, yüksək ideya göylərinin qapılarını açan, hərdən bir şeir yazan əzəzsiz şəxsiyyət olduğunu qələmə almışdır. Həqiqətən, Kafiəddinin elmə başçılıq etdiyi XI-XII əsrlərdə astronomiya, riyaziyyat, fəlsəfə, kimya tibb farmakalogiya, dilçilik, rəsm, musiqi, inşaat, hərb, hüquq, məntiq daha çox inkişaf edirdi. Mərhum alim E.Mehrəliyev yazırdı ki, Kafiəddin Şirvani elm sahələrinin şəbəkəsini ixtisaslar üzrə quraşdırıb, əvvəlcə iki- "elmi-ədəb" və " dərül-ülum" mərkəzləri yaratdı. Sonra onların tərkibini geniş-

[1] H.Ciddi, N.Musayev. Şamaxıda aşkar olunmuş Nizami dövrünə aid mədrəsə// Nizami Gəncəvi. Almanax. II kitab. B., 1991, s. 31.

ləndirib, vahid-çoxtərəfli mərkəzə çevirdi[1].Tədqiqatçı alim, müxtəlif ixtisaslar üzrə görkəmli alimləri yetişdirən Şirvanın bu elm ocağını "astronomiya və riyaziyyat", "tibb və farmokologiya", "fəlsəfə, məntiq və hüquqşünaslıq", "müsiqişünaslıq və heykəltaraşlıq", "hərb və dövlət quruculuğu", "dil, ədəbiyyat və pedaqogika"kimi altı şöbəyə bölmüş və əlavə olaraq bu sahələrdə yetişmiş alimlərin adlarını ixtisas üzrə qruplaşdırmışdır.

### *2.2.4. "Beyləqan" mədrəsəsi*

XI əsr yerli müəlliflərdən Məsud ibn Namdarın yazdığı əsərdə Azərbaycan şəhərlərindən Beyləqan mədrəsəsi haqqında da bəzi məlumatlara rast gəlmək olur. Əsərdə "məktəbdən qayıdan uşaqlardan" və "məktəblilərin imla yazı lövhələrindən söz açılır. Məsudun məlumatından aydın olur ki, bu mədrəsələrdən biri şəhərin qərbində, qala divarlarından xaricdə yerləşmişdir. Orta əsrlər Beyləqan şəhərini arxeoloji cəhətdən tədqiq edən görkəmli arxeoloq Qara Əhmədov bu məlumatları əsərində təsdiq edir. Beyləqan qazıntılarından tapılmış epiqrafik məlumatdan aydın olur ki, əhalinin aşağı təbəqəsinə mənsub olan adamlar içərisində də savadlı adamlar var idi. Buna misal olaraq müəllif Beyləqan dulusçularını göstərir. O yazır ki, Beyləqanda istehsal olunmuş saxsı qabların üzərində xeyli miqdarda yazılar vardır. Bu yazıların dulusçular tərəfindən yazıldığı bizdə şübhə oyatmır. Yazıları bəziləri lirik beyt və rübailardən ibarətdir, yəni artıq şeir şəkli almış yazılardır[2].

### *2.2.5. "Marağa Atabəylər" mədrəsəsi*

Azərbaycanın Marağa şəhərində "Atabəylər", "Qazı" və "Əhmədağa" adlı üç mədrəsə də açılmışdı. Marağanın qazısı təyin edilmiş təbrizli Kamal əd-Din əbu Məaz qazılıq fəaliyyəti ilə yanaşı həm də "Atabəylər" mədrəsəsində dərs demişdir. Buranın müdərrisi olduğuna görə təbrizli qazı, "əl-Müdərris" ləqəbini qazanmışdır.

---

[1]Mehrəliyev E. Şirvanilər. 3-cü kitab. Bakı, 2011, s. 76.
[2]Əhmədov Q. M. Orta əsr Beyləqan şəhəri. Bakı: Elm, 1979, 57 s.

***Marağanın "Qazı" mədrəsəsi***

Bu mədrəsə də Marağada fəaliyyət göstərirdi. Müdərrislərdən Sərab qazısı Kamal əl-Din (ö.1230-1231-ci ildə, İrbildə) Azərbaycan Atabəyləri yanında böyük hörmət-izzət sahibi olmuşdur. Xarəzmşah Cəlaləddinin yanına gələrkən sultan onu hörmətlə qarşılayaraq taxtın yanında oturmağa dəvət edərmiş.

***Marağanın "Əhmədağa" mədrəsəsi***

Yuxarıda olunmuş qeyd Marağa mədrəsələrindən biri də belə adlanırdı.

### *2.2.5(b). "Marağa Atabəylər" mədrəsəsi*

Marağada da "Atabəylər" mədrəsəsi fəaliyyət göstərmişdir. Bu mədrəsə alim qazı Kəmaləddin Əbu Abdallah Məhəmməd əl-Qəzvini əl-Marağī tərəfindən əsası qoyulmuşdur. Onun özü də bu mədrəsədə müdərrislik etdiyi üçün "əl-müdərris" ləqəbini almışdır. Azərbaycan Atabəyləri və sultanlarının yanında böyük hörmət və mərhəmət sahibi olmuşdur. O, sultan Cəlaləddin Xarəzm şahın yanına gəldikdə, sultan onu ən hörmətli adam kimi-qəbul edir və taxtda öz yanında oturdurdu. Ömrünün axırında İrbilə köçür və 628 (9.XI 1230- 28.X 1231)-ci ildə vəfat edir[1].

### *2.2.6. "Marağa-Qazi" mədrəsəsi*

Qazı Kəmaləddin Əbu Abdallah Məhəmməd əl-Qəzvini əl-Marağinin əsasını qoyduğu mədrəsələrdən biri də "Əl-Qazi" mədrəsəsi adı ilə məşhur olmuşdur.

### *2.2.7. "MarağaƏhmədağa" mədrəsəsi*

### *2.2.8."Zəncan" mədrəsəsi*

Orta əsr ərəbdilli müəlliflərdən Əbu Tahir əs-Siləfi özünün "Mucəm əs-Səfər" əsərində Zəncan mədrəsəsi haqqında məlumat verir. Müəllif bu mədrəsədə dərs demiş Əbülvəfadan onun doğum tarixi, müəllimləri və səfərləri haqqında suallar vermiş və

[1] Z.Bünyadov. Azərbaycan Atabəylər dövləti. Bakı, 1984, s. 232.

onun cavabından Əbulvəfanın h. 430 (1038)-cu ildə anadan olduğunu, Mərvəruz, Mərv, Şaş, Buxara və Nişapurda görkəmli müəllimlərdən fiqhi öyrəndiyini qeyd edirdi. O, əsli Azərbaycanın Təbriz yaxınlığındakı Əbyaverd kəndindən olan Əbu Səhl əl-Əbyaverdidən yararlanmaq üçün bir sıra məsələləri mülahizə etmişdir. Əbu Səhl əl-Əbyaverdi kim idi və onunla hansı məsələlər barədə danışmışdı. Fəzilətli ustad olan Əbülvəfa əl-Buxari Zəncan mədrəsəsində dərs deməklə yanaşı uzun müddət Zəncanda qazılıq da etmişdi[1].

### *2.2.9. "İqbaliyyə" mədrəsəsi*

Mədrəsəni Nurəddinin xədimi Xoca İqbal tikdirmişdi. O, Beytül-Müqəddəsdə rəhmətə getmişdi. İbn Kəsir h. 603 (1206)-cü il hadisələrini şərh edərkən yazırdı ki, İqbaliyyə mədrəsəsi Salahəddinin xadimlərindən Camaləddin İqbal tərəfindən inşa edilmişdir. Əvvəlcə şafii və hənəfi evlərindən ibarət olan tikili sonradan iki mədrəsəyə çevrilmişdi. Daha böyük olan şafii, daha kiçik olan isə hənəfi mədrəsəsi sayılırdı. Mədrəsələrin üzərində üç vəqf var idi. Camaləddin İqbal müqəddəs Qüdsdə vəfat etmişdir[2]. Tarixi ədəbiyyatda İqbaliyyə mədrəsəsində dərs deyənlər arasında Şeyx İmam Əllamə Tac əd-Din Musa ibn Məhəmməd ibn Musa əl-Marağinin də adı çəkilir. İbn Kəsir h. 690 (1291)-ci il hadisələrini təqdim edərkən bu şeyxin də adını çəkir. Onun görkəmli şafiilərdən biri olduğunu qeyd edərək fıqh, üsul, nəhv elmlərinə baş vurduğunu, güclu fəhmi olduğunu qeyd edir. O yazır ki, əl-Maraği vəfat edərkən yaşı 90-ı haqlamışdı.

Bu mədrəsədə dərs deyən din xadimlərindən biri də Şeyx Əllamə Qazı-əl-qudat "əsrin fəridi" Əla əd-Din Əbülhəsən Əli ibn Nurəddin Əbülfida İsmayıl ibn Yusif əl-Kunəvi ət-Təbrizi olmuşdur[3]. Konyada h. 668 (1269)-ci ildə anadan olan Əla əd-Din həmin şəhərdə çalışmışdır. H. 693 (1293)-cü ilin əvvəlində

---

[1] www.al-mostafa.com. Əs-Siləfi Əbu Tahir. Mucəm əs-Səfər.,№ 103.

[2] Ən-Nüeymi Əbdülqadir ibn Məhəmməd əd-Diməşqi. Əd-Dəris fi tarix əl-Mədaris. Dər əl-kutub əl-elmiyyə. I c., Beyrut, 1990, s.119

[3] Yenə orada, s. 160

Dəməşqə gəlmiş və orada h. 729 (1328)-cu ildə vəfat etmişdir. O, Kasyon dağının ətəyində dəfn edilmişdir.

### *2.2.10. "Böyük Adiliyyə" mədrəsəsi*

Bu şafii mədrəsəsinin əsası Dəməşqdə Nurəddin Məhəmməd Zəngi tərəfindən qoyulmuşdur. Lakin, o vəfat edərkən, mədrəsənin inşası tamamlanmamışdı. Sonra onu Məlik əl-Adil Seyfəddin davam etdirmişdir. Sonra o da vəfat etmiş və bu işi onun oğlu əl-Məlik əl-Muazzam başa çatdırmışdır. Mədrəsədə müdərris kimi çalışanlar qismində qazı Kəmaləddin Ömər Əbu Həfs ibn Bəndər ibn Ömər ət-Tiflisinin də adı çəkilir. Ömər ət-Tiflisi təqribən h. 602 (1205)-ci ildə anadan olmuşdur. Ömər ət-Tiflisi Misir diyarına üz tutana qədər Qadı əl-Qudat (baş qazı) xoylu Şihabəddinin müavini vəzifəsində çalışmışdır. Misirdə h. 672 (1273)-ci ildə vəfat edənə qədər tədrislə məşğul olmuşdur[1].

Adiliyyə mədrəsəsində digər bir azərbaycanlı, əsli Xoydan olan Şəmsəddin Əbül-Abbas Əhməd ibn əl-Xəlil ibn Səadə ibn Cəfər ibn İsa da fəaliyyət göstərmişdir. Böyük sultan İsa ibn Məlik əl-Adilin zamanında Şəmsədin Şama gəldiyi vaxt sultan ona böyük hörmət edərək, əhvalını soruşur və sözlərini diqqətlə eşidərdi. Sultan özü şəriət elmlərini və fiqhi bildiyi üçün Şəmsəddinə çox hörmət bəsləyər, onunla söhbət edərdi. Sonralar sultan ona Dəməşqdə yer verib, onun üçün maaş təyin etmişdir. Bir çox xadimlər onun yanında oxumuş və biliyindən faydalanmışlar. Mən (təzkirənin müəllifinə işarədir) ondan İbn Şəhlanın "Ət-Təbsirə" ("Aydınlaşdırma") əsərini öyrənmişəm. O. gözəl danışıqlı, iti düşüncəli, fəsahətli, bəlağətli, səxavətli və mərd bir adam idi. Onun müəllimi Fəxrəddin ibn Xətib Ərrey də onun yanına gəlmiş, onun da şagirdləri var idi. Sonralar böyük Sultan Şəmsəddini Dəməşqin baş qazısı təyin etmişdir. Buna baxmayaraq o, olduqca təvazökar və xoşsöhbət idi, namaz vaxtında namaz qılmaq üçün məscidə ayaqla gələrdi. Qazı Əbülabbas Əhməd ibn Xəlil ibn Səadə ibn Cəfər əl-Xuveyyi

---

[1] Ən-Nüeymi Əbdülqadir ibn Məhəmməd əd-Diməşqi. Əd-Dəris fi tarix əl-Mədaris. Dər əl-kutub əl-elmiyyə. I c., Beyrut, 1990, s.274.

Dəməşqdə "əl-Adiliyyə" mədrəsəsində qiraət yolu ilə isnad zənciri kimi 14 mühəddisi sayaraq qeyd etdikdən sonra Peyğəmbər (s.a.s.) haqqında Aişənin söylədiyi hədisi nəql etmişdir. Şəmsəddin həmin mədrəsədə yaşamış və vəfat edənədək orada dərs demişdir[1]. İbn Əbi Useybiyə onu "Sədr əl-İmam", "kamil alim", "qadı əl-qudat" kimi epitetlərin sahibi kimi qələmə verir. O, qeyd edir ki, Şəmsəddin orada fəqihlərə dərs demişdir. Bu işi h. 637/1239-cu ildə rəhmətə gedənə qədər davam etdirmişdir[2].

### *2.2.11. "Sührəvərdiyyə" mədrəsəsi*

Əbu-Nəcib əs-Sührəvərdi öz mədrəsəsində vasitli-bağdadlı İmam Əbülqasim Mahmud ibn Mübarək əl-Mucir əl-Vasiti əl-Bağdadiyə dərs demişdi[3].

### *2.2.12. "Əz-Zahiriyyə əl-Bəraniyyə" mədrəsəsi*

Əllamə Nurəddin Əbu Məhəmməd əl-Fərəc əl-Ərdəbili Dəməşqə gələrək buradakı əz-Zahiriyyə əl-Bəraniyyə mədrəsəsində dərs demişdir[4].

### *2.2.13. "Ən-Nasiriyyə" mədrəsəsi*

Azərbaycanlı ziyalılardan Təbrizdən bir fərsəx aralı yerləşən kəndlərdən sayılan Varandan çıxmış Əbü-l-Xeyr əl-Varani ət-Təbrizi (558/1162-621/1224) Bağdaddan Misirə səyahət edərkən, bu görkəmli alimə orada qalaraq Misir məscidinin yaxınlığında yerləşən «ən-Nasiriyyə» mədrəsəsində dərs demək həvalə olunmuşdu. Bu mədrəsə «İbn Zeyn ət-Tüccar» adıyla məşhur idi. Buranın əhalisi həmin mədrəsədən istifadə etmiş, orada bilik öyrənmişdi. Əl-Varani öz şəhərinə qayıtmaq istədiyindən, oradan da səfər etmişdir. "Kitab təkmiləti ikməlil ikməl" ("Kamilin əlavəsinin təkmilləşdirilməsi" kitabı)nın müəllifi İbn əs-Sabuni

---

[1] Tərbiyət Məhəmmədəli. Danişməndani Azərbaycan. Görkəmli elm və sənət adamları. Bakı, 1987, s. 424.

[2] İbn Əbi Useybiyə. Uyun əl-ənbiyə fi təbaqati-l-ətıbbə. Beyrut, 1998, s. 598-599.

[3] Yenə orada, s.169.

[4] Yenə orada, s.172.

(604-678/1207-1282) Dəməşqdə onunla görüşmüşdü. İbn əs-Sabuni xəbər verir ki, Hafiz Əbu Məhəmməd Əbdül-Əzam əl-Mənzəri onun mühazirələrini dinləmiş, özünün "Vəfayət" əsərində onu yad edərək h. 558(1162)-ci ildə anadan olduğunu, h. 621 (1224)-cü ildə Şirazda vəfat etdiyini yazmışdır[1].

### *2.2.14."Ən-Nasiriyyə əl-Cavaniyyə"mədrəsəsi*

Mədrəsə Dəməşqdə Əməvilər məscidinin şimalında yerləşirdi. Bu mədrəsəyə Kəmaləddin əş-Şirazi başçılıq etmişdir. O, şafii imamlarından olmuşdur. İbn Kəsir h. 306(918)-cı il hadisələrini təsvir edərkən onun h. 507(1113)-ci ildə vəfat etdiyini göstərir[2]. Kəmaləddin əş-Şirazi vəfat edəndən sonra mədrəsəyə Nurəddin əl-Ərdəbili başçılıq etmişdir[3].

### *2.2.15. "Ən-Nasiriyyə əs-Salihiyyə"mədrəsəsi*

Qahirədə fəaliyyət göstərmişdir. Bu mədrəsədə hüquqşünas alim Əminəddin Müzəffər ibn Əbu Məhəmməd ibn Əli ət-Təbrizi dərs demişdir. O, h. 588(1163)-cü ildə doğulmuşdur. Qahirədəki mədrəsədən əvvəl Bağdadda "ən-Nizamiyyə" mədrəsəsində müəllimlik etmişdir. Üçcildlik "Sakt əl-fəvaidə" və "əl-Müxtəsər" əsərlərinin müəllifidir. Şiraza köçür, 621-ci ilin zül-hiccə ayında (yanvar, 1225) orada vəfat edir[4].

### *2.2.16. Naxçıvan mədrəsələri*

XII yüzillikdə Naxçıvan şəhəri haqqında məlumat verən müəlliflərin, o cümlədən "Əcaib əd-dünya" əsərində Naxçıvanın XII əsr təsviri verilərkən onun yanında daşdan qala, qalanın içərisində isə mədrəsələr və məscidlər olduğunu qeyd

[1]Əliyeva N.A. İbn əs-Sabuni Azərbaycanın orta əsr görkəmli şəxsiyyətləri haqqında // Azərbaycan tarixi Muzeyi-2002. Bakı: Elm, 2002, s. 323-324.
[2] İbn Kəsir. Əl-bidəyə va-n-nihayə, VI c., s. 180.
[3]Ən-Nüeymi. Əd-dəris, s.353.
[4] Bünyadov Z.M. Azərbaycan Atabəyləri dövləti (1136-1225) Bakı: Elm, 1984, s. 231; Əl-Əsnəvi. Təbəqat əş-Şafiiyyə, I, s. 314-315.

edilmişdir[1]. 1263-1284-cü illərdə Naxçıvana aid verilmiş və Elxani hakimləri tərəfindən imzalanmış “Mənşuri- təqriri tədrisi mədrəsəi Naxçıvan” adlı bir fərman Naxçıvan şəhərində inşa edilmiş iki mədrəsə haqqındadır. Sənədin müəllifi Elxanilər sarayında baş vəzir işləmiş Şəmsəddin Məhəmməd Cuveyni olmuşdur. Türk alimi Osman Turanın elmi dövriyyəyə daxil etdiyi bu fərmanın mətnində müdərris və tələbələr qarşısında qoyulan vəzifələr müəyyənləşdirilir. 1263-1284-cü illərdə Naxçıvana aid verilmiş bu fərmanda buradakı mədrəsələrin dini xeyriyyə idarəsinə məxsusluğu göstərilir. Digər mənbələrlə bərabər həmin fərman da deməyə əsas verir ki, Müsəlman Şərqində məscid, mədrəsə, kitabxana, xəstəxana və s. bu kimi ictimai müəssələrin təsisi ənənəsi Azərbaycan Atabəylər dövləti dövründə Naxçıvanda da geniş davam etdirilmişdir. Bu da təbiidir, çünki Müsəlman Şərqində məktəb və mədrəsələr əsasən məscidlər və məqbərələr yanında təşkil edildiyindən, onların bütün xərcləri də məscid və məqbərənin vəqfləri hesabına ödənilirdi. Şamaxı mədrəsəsinin Came məscidi ətrafında tikilməsi haqqında deyilən fikri bu mədrəsələrə də aid etmək olar. Fərmanı Azərbaycan oxucusuna ilk dəfə çatdıran Ə. Hüseyzadənin fikrincə, bu bir tərəfdən tədris və tərbiyə sahəsində dini məfkurənin təsirini artırmaq, digər tərəfdən isə mədrəsənin maliyyəsini, xərclərini mənsub olduğu məqbərənin, məscidin vəqfləri hesabına təmin etmək zərurətindən irəli gəlirdi. Naxçıvan mədrəsələrinin də Möminə xatun məqbərəsinin vəqf gəlirləri hesabına idarə olunduğu qətidir[2]. Tədqiqatçı alim H.Səfərli qeyd edir ki, bu fərmana əsaslanaraq islamın intibah dövründə Naxçıvanda və bütövlükdə Azərbaycanda məktəblərin, tədrisin vəziyyəti haqqında əsaslı fikir söyləmək mümkündür[3]. Fərmanın əhəmiyyətindən danışan İ.Mollayev qeyd edir ki,

---

[1]Миклухо-Маклай Н.Д.Географическое сочинение XШ в. // Ученые записки ИВАН СССР, т.IX, М.,-Л., 1954.

[2] Hüseynzadə Ə. Naxçıvan mədrəsələrinə dair bir Elxani fərmanı. Azərbaycasn EA Məruzələri, 1960, XVI cild, № 12 .

[3] Hacıfəxrəddin Səfərli. Orta əsrlərdə Naxçıvanın sosial-siyasi həyatında dini mərkəzlərin rolu. B., Elm, 2003, s. 319

həm maraqlı, həm də qəribədir ki, hələ orta əsrlərdə də şagirdlərin fərdi xüsusiyyətlərinə diqqət yetirmək, onların təbiətini, istedadını, bilik dərəcəsini nəzərə almaq kimi sırf pedaqoji məsələlərə də fikir vermək vəzifə hesab edilmişdir.[1]

***2.2.17. "Şərifiyyə" mədrəsəsi***

Misirin Came məscidinin yaxınlığında Səlahəddin tərəfindən vəqf edilmişdi. Mədrəsədə "Qadı-l əsgər" adı ilə məşhur olmuş Şərif Şəmsəddin Əbu Abdulla Məhəmməd ibn Hüseyn ibn Məhəmməd əl-Ələvi əl-Hüseyni əl-Urməvi əl-Mısri (v.e. 1252) tədrislə məşğul olmuşdur. O, Misirdə Nəqibul-şərəfin babasıdır. Fiqh elmini Şeyx Sədrəddin ibn əl-Himəviyyənin yanında öyrənmişdi. "Tabaqatuş-şafiiyyə əl-Əsnəvi" əsərində onun əsgər qazısı olması barədə məlumat verilir[2].

***2.2.18. "Şərəfiyyə" mədrəsəsi***

Bağdadda fəaliyyət göstərmişdir. Tacəddin Əbu Əhməd Məhəmməd ibn Hüseyn əl-Urməvi(v.e.654/1256) bu mədrəsədə yaşamış və orada dərs demişdir. Qazı imam Fəxrəddinin ən görkəmli şagirdlərindən olmuşdur. O, fəlsəfə və hikmət elmlərində böyük müvəffəqiyyət əldə etmiş, ər-Razinin "əl-Məhsul" əsərinə xülasə yazıb, ona "əl-Hasil" adı vermişdir. Tacəddin malı, sərvəti və etibarı olmaqla bərabər çox təvazökar idi. Tacəddin Bağdadda monqol hadisələrindən əvvəl vəfat etmişdir. Bu hadisələri Hafiz Dimyati öz əsəri olan "Mucəm" kitabında qeyd emtişdir[3].

***2.2.19. Dəməşq mədrəsəsi***

Bu mədrəsədə əsli Xoydan olan, ilahiyyat və fəlsəfə sahəsində gözəl əsərləri olan fəzilətli alim qazı Şəmsəddin repetitorluq etmişdir. Taleyin qisməti elə gətirmişdi ki, o, monqolların hücu-

---

[1] Mollayev İ. Orta əsr Azərbaycan mütəfəkkirləri təlim-tərbiyə haqqında. Bakı, Maarif, 1996, s.73

[2] Məhəmmədəli Tərbiyət. Danişməndani Azərbaycan. Görkəmli elm və sənət adamları. B., 1987, s. 433

[3] Yenə orada, s.325=326.

mu vaxtı Suriyaya gedən alimlər arasında olmuşdu. Lakin, bəzən, ziyalılarımız məcburən yeni vətən seçdikləri ölkələrdə layiq olduqları qiymətlərini ala bilmirdilər. Zəkəriyyə Qəzviniyə görə Şamda lazımınca qiymətləndirilməyən alim Dəməşq mədrəsəsində yalnız repetitorluqla məşğul olmuşdur. O, h. 640/1240-cı ildə cavan ikən vəfat etmişdir[1].

### *2.2.20. "Dəməşq Atabəylər" mədrəsəsi*

Dəməşqin qərbindəki Salihiyyə adlı məhəllədə Atabəylər mədrəsəsi və müşərrəf müqəddəs hədis evi yerləşirdi. Qazı İzzəddin əl-Hələbinin yazdığına görə onu Mosulun sahibi Nurəddin Arslan ibn Atabəyin qızı tikdirmişdi. Məliklərin şərəflisi Müzəffərəddin Musanın qadını Sultan əl-Məlik İzzəddin Məsud ibn Qütbəddin Maudid ibn Atabəy Zəngi ibn Ağ Sunqurun qızı Atabəyli Hacıxanım Xatun (v.e. h. 640/1242) mədrəsə və türbənin sahibəsi idi. Bu mədrəsədə dərs deyən müdərrislərdən biri Safiyəddin Əbu Abdulla Məhəmməd ibn Əbdürrəhim ibn Məhəmməd əl-Hindi əl-Urməvi əş-Şafii sayılırdı. Əş`ari məzhəbli bu urmiyalı mütəkəllim h. 644-cü ildə (1246) Hindistanda anadan olmuşdu. Ona qiraəti öyrədən anası tərəfdən babası fəzilətli insanlardan idi. O, h. 647-ci ildə (1249) Dehlidən çıxmış, həcc ziyarətinə getmiş, üç ay orada dolanmışdı. Sonra Yəmənə daxil olarkən oranın maliki əl-Müzəffər ona 400 dinar hədiyyə vermişdi. O, daha sonra h. 701-ci ildə (1301) Misrə çataraq dörd il orada qərarlaşmışdı. Oradan Antakiya yolu ilə Ruma səfər etmişdi. Rumda 11 il, Konyada 5 il, Sivasda 5 il, Kasyonda 1 il qalmışdı. Urmiyalı qazı Siracəddinlə görüşərkən ona ehtiram göstərmiş, sonra 685-ci ildə Dəməşqə gələrək, oranı özünə yaşayış məskəni seçmişdi. Safuyiddin şeyxlər şeyxi rütbəsini almışdı. Urmiyalı alim Dəməşqdəki "Zahiriyyə", "Cavaniyyə", "Ruhaniyyə", "Davləiyyə" və "Atabəkiyyə" mədrəsələrində dərs demişdi[2].

---

[1] Буниятов Дж.З.Материалы из сочинений Закарии ал-Казвини об Азербайджане// Известия АН Азербайджанскаой ССР.Серия истории, филасофии, права.1976, № 3, с. 53

[2] Əbdülqadir əd-Diməşqi. Əd-Dəris fi-l mədəris. I c., s. 96-97.

Əbdülqadir əd-Diməşqi onun fətva verməsini, qiraət, üsul, məntiq və təsnifat üzrə gərgin işlədiyini qeyd etmişdi. O, yazırdı ki, insanlar onun və onun şagirdlərinin təsnifatından çox xeyir götürmüşlər. Onun bircə xətti pis idi. O, kitablarını Əşrəfi hədis evində saxlayırdı. Onda xeyirli və birləşdirə bilən bir qüvvə vardı. İbn Kəsir yazır ki, Safyuddin h. 725 (1324)-ci ildə vəfat etmişdi.

Tarixi ədəbiyyatda Qazı əl-Qudat Nəcməddin ibn Sasarinin də urmiyalı Safiyuddin Əbu Abdulla ilə birlikdə Atabəkiyyə mədrəsəsində dərs deməsi haqqında da məlumat verilir. Urmiyalı müdərrisdən iki il əvvəl h. 725 (1324)-ci ildə vəfat edən Qadı əl-Qudat (baş qazı) Nəcməddin ibn Sasari də bu mədrəsədə fəaliyyət göstərmişdi[1].

### *2.2.21. "Əl-Cəruhiyyə" mədrəsəsi*

Bu mədrəsə Dəməşqdə "Əz-Zahiriyyə əl-Cavaniyyə" mədrəsəsindən şimalda yerləşirdi. Mədrəsənin əsasını Seyfəddin ləqəbli Carux ət-Turkməni qoymuşdu. Özündən əvvəl mədrəsədə dərs demiş İbn Şəhhamın kürəkəni Nurəddin Əbu Məhəmməd Fərəc ibn Məhəmməd ibn Əhməd ibn Əbi Fərəc əl-Ərdəbili də bu mədrəsədə müdərris kimi fəaliyyət göstərmişdir. Təbrizdə mühazirələr oxumuş, Şeyx Fəxrəddin əl-Carberdinin mühazirə kurslarını bitirdikdən sonra Dəməşqə qayıdaraq fiqhlə məşğul olmuş, əvvəlcə "əz-Zahiriyyə əl-baraniyyə", sonra "Əl-Cəruxiyyə"də, daha sonra isə "Ən-Nasiriyyə əl-Cavaniyyə" mədrəsəsində dərs demişdir. Hafiz Taqiyyuddin ibn Rafi` deyirdi: dindar, xeyirli, lazımlı işlər görən, cəsarətli idi.

### *2.2.22. "Fərəc Xuvəyyu" mədrəsəsi*

Nizamiyyə mədrəsəsində dərs almış həmyerlilərimizdən bəziləri öz doğma şəhərinə qayıdıb tədrislə məşğul olmuşlar. Orta əsr mənbələri Azərbaycanın şəhərlərində fəaliyyət göstərən mədrəsələrlə yanaşı Xoydakı mədrəsə və orada fəaliyyət göstərən elm adamları haqqında məlumat verirlər. Bağdadda fiqhi

[1] Əbdülqadir əd-Diməşqi. Əd-Dəris fi-l mədəris. I c., s. 98.

Əbu İshaq Şirazidən və Əbu Səid əl-Mütəvəllidən öyrəndikdən sonra doğma Xoy şəhərinə qayıdan Əbur-Ruh Fərəc ibn Übeydullah ibn Xələf əl-Xoyi burada mədrəsə açaraq əldə etdiyi biliyi həmvətənlərinə öyrətmişdir. Mədrəsə 521/1127-ci ildə fəaliyyətə başlamışdı. Əl-Əsnəvi göstərirdi ki, Əbu-r-Ruh Azərbaycanın ürəyi kimi tanınırdı. Çoxlu alimin müəllimi olan Əbu-r-Ruh doğma şəhərində vəfat etmişdir. Bu mədrəsələr də bəzi digər mədrəsələr kimi, onun əsasını qoyanın adı ilə tanınırdı. Belə ki, Xoyda 1127-ci ildə əsası qoyulmuş "əl-Fərəc əl-Xuvəyyu" mədrəsəsi onu tikdirən Fərəc ibn Abdallah ibn Xələf əl-Xuveyyinin adı ilə məşhurlaşmışdı.

### *2.2.23. "Müstənsəriyyə" mədrəsəsi*

Qeyd etmək lazımdır ki, digər mədrəsələrlə yanaşı Xəlifələrin öz mədrəsələri də fəaliyyət göstərirdi. Bu mədrəsələrə onlar öz savadı ilə seçilən müdərrisləri dəvət edirdilər. Abbasilər sülaləsinin otuz altıncı xəlifəsi əl-Müstənsir (1226-1242) özünün əl-Müstənsəriyyə adlanan mədrəsəsinə "fəzilətləri özündə birləşdirən alim, ədəb, fiqh, hüquq və hikmətdə səriştəli şeyx Rəşidəddin əl-Fərqanini müdərris kimi təyin etmişdi. Əslən Azərbaycanın Mərənd şəhərindən olan İmadəddin Əbu Zülfəqqar Məhəmməd ibn əl-Əşrəf əl-Mərəndi (596-680/1199-1200-1281) də bu mədrəsənin müdərrisi olmuşdur. Bu təyinatdan əvvəl h. 630 (1233)-cü ildə Bağdada gələn bu ləyaqətli fəqih "əl-Xilatiyyə" rabatında sakin olmuşdu. H. 631(1234)-cü ildə "Müstənsəriyyə" mədrəsəsinin açılışı vaxtı mədrəsənin fəqihi təyin edilmişdi. Sonra isə 648 (1250-1251)-ci ildə Vasitdə məskunlaşaraq tədrislə məşğul olmuşdu. O, h. 680 (1281)-ci ildə vəfat etmiş və imam Musa ibn Cəfərin yanında dəfn edilmişdi[1].

Bu mədrəsədə bəzi görkəmli azərbaycanlı ziyalıların təhsil alması haqqında məlumat vardır. Bağdadın "Müstənsəriyyə" mədrəsəsinə təhsil almaq üçün gedənlər arasında XIII əsrin elm

---

[1]Сейидбейли М. Научно-культурная жизнь Азербайджана (второй половины XIII-начало XIV в.) Баку: 1999, с. 113; İbn əl-Fuvati.Təlxis, IV/II, с.818-819.

və hünər sahiblərindən sayılan Səfiyəddin Əbdülmömin ibn Yusif Fəxir əl-Urməvini də qeyd etmək lazımdır. O, təhsil almaq üçün kiçik yaşlarında bu mədrəsəyə getmişdi [1].

### 2.2.24. "Kəmaliyyə" mədrəsəsi

Bağdadda fəaliyyət göstərmişdir. Səfiyəddin Əbdülmömin ibn Yusif Fəxir əl-Urməvi bu mədrəsdə dərs deyib. H. 625 (1228)-ci ildə vəfat edib[2].

### 2.2.25. "Muhyiddin" mədrəsəsi

Tarixi ədəbiyyatda azərbaycanlı müdərrislər haqqında kifayət qədər informasiya mövcuddur. Özünün mədrəsəsini təsis etmiş azərbaycanlı müdərrisləri isə barmaqla sayıla bilər. Şafii məzhəbli fəqih, görkəmli və nüfuzlu marağalı ziyalı Sədrəddin Əbu Bəkr əl-Marağinin oğlu Qazı Mühyyiddin Əbu Məhəmməd Həsən ibn Məhəmməd ibn Abdulla əl-Marağİ onlardan biridir. Şərəfinə qəsidələr yazılmış Qazı Mühyyiddin özünün təsis etdiyi mədrəsədə şafii fiqhini tədris edirdi .

### 2.2.26. "Mərənd" mədrəsəsi

Bu mədrəsə haqqında İbn Əbi Useybiyə "Uyun əl-Ənbə fi tabaqat əl-Atıbbə" əsərində məlumat vermişdir. O, Fəxrəddin ər-Razi haqqındakı məqaləsində Mərənd qazısı Muhyiddinin dilindən yazır ki, ər-Razi Mərəndə gələrkən atam orada müdərris işləyirdi[3].

### 2.2.27. "Salihiyyə" mədrəsəsi

Misirdə təsis olunmuş bu mədrəsədə Əfzələddin Əbu Abdulla Məhəmməd əl-Xunəci (1194-1248) müdərris kimi fəaliyyət göstərmişdir. O, əslən Cənubi Azərbaycanın Xunəc şəhərindən-

---

[1] Tərbiyət Məhəmmədəli. Danışməndani Azərbaycan. Görkəmli elm və sənət adamları. Bakı: Azərnəşr, 1987,s.313.

[2] Bünyadov Z.M. Azərbaycan Atabəyləri dövləti (1136-1225) Bakı: Elm, 1984, s.230; Əl-Əsnəvi. Təbəqat əş-şəfiiyyə. I c., Bağdad, 1390, s. 136.

[3] İbn Əbi Useybiyə. Uyun əl-ənbiyə fi təbaqati-l-atıbbə. Beyrut, 1998, s. 424.

dir. İlk təhsilini vətənində almış, orada işləmiş və sonralar başqa ölkələrə çıxıb getmişdir. Bir çox ölkləri gəzmiş, nəhayət, Misirdə yaşamışdır. O, ehramlar diyarında həm dövlət işlərində çalışmış, ictimai-siyasi məsələlərlə məşgul olmuş, həm də yaradıcı alim və möhtərəm müəllim kimi özünü tanıtmışdir[1]. Ömrünün son çağlarında Misirin baş qazısı vəzifəsini tutmuşdur. Orta əsr müəllifləri onun müəllimlik fəaliyyətini yüksək qiymətləndirmişlər. O, ciddi elmi axtarışda olmuş, dərin bilik əldə etmiş, dünyəvi elmlərdə yetkinləşmiş, zəmanəsinin nadir şəxsiyyəti sayılmışdır. Bu fikir təkidlə bir sıra mənbələrdə irəli sürülmüşdür[2].

### *2.2.28. "Xoy" mədrəsəsi*

Bu mədrəsə haqqında əs-Siləfi məlumat vermişdir. O, yazır ki, Əbu-r-ruh Fərəc ibn Übeydullah ibn Xələf əl-Xoyi Azərbaycanın böyüklərindən və şafii əshabələrinin imamlarından idi. O, Bağdadda Əbu İshaq əş-Şirazidən təhsil alandan sonra öz şəhərinə qayıtmış və orada mədrəsə açmışdı. Əs-Siləfi yazır ki, əshabələrdən bir qrup fəzilətli insan mədrəsədə təhsil alaraq(نبغ) irəli getmişdir[3].

### *2.2.29. "Akbuqaviya" mədrəsəsi*

İbn Qazı əl-Əsğər adı ilə məşhur olan Şərəf əd-Din Əbu-l-Həsən əl-Urməvi ədəbiyyatı və hüququ bu mədrəsədə öyrənmişdir.

### *2.2.30. "Məşhəd Hüseyni" mədrəsəsi*

İbn Əsakir xəbər verir ki, İbn Qazı əl-Əsğər adı ilə məşhur olan Şərəf əd-Din Əbu-l-Həsən əl-Urməvi "Akbuqaviya" mədrəsəsi ilə yanaşı bu mədrəsədə ədəbiyyat və hüquqa dair mühazirələr dinləmişdir.

---

[1] Z.Məmmədov. Azərbaycan fəlsəfəsi tarixi."Şərq-Qərb" nəşriyyatı, Bakı, 2006, s. 192.
[2] Yenə orada.
[3] əs-Siləfi, Mu´cəm əs-Səfər, s. 183.

### 2.2.31. "Zəncan" mədrəsəsi

H. 430 (1038)-cü il təvəllüdlü hərtərəfli biliyə malik olan nəhşəli Əbülvəfa Zəncanın qazısı olmaqla bərabər həm də Zəncan mədrəsəsində dərs deyirdi[1].

### 2.2.32. "Tibb" mədrəsəsi

Mədrəsələrdən biri də Şamaxının Məlhəm kəndində açılan "Mədrəseyi tibb" ("Tibb mədrəsəsi") və müalicəxanası idi. Tibb mədrəsəsini Xaqaninin əmisi Kafiyəddin Ömər ibn Osman açmışdı. O, mədəniyyət tariximizə həm də bilici həkim və görkəmli filosof kimi daxil olmuşdur. Yuxarıda adı çəkilən Şamaxı mədrəsəsi ilə əlaqədar da Kafiyəddin Ömər ibn Osmanın adı çəkilir. Orta əsrlərdə bir müdərrisin bir neçə mədrəsədə müxtəlif vaxtlarda dərs deməsi haqqında məlumat vardır. Ona görə də çox güman ki, Şamaxıda Tədris mərkəzi, Məlhəm kəndində isə "Tibb mədrəsəsi" mövcud olmuşdur.

### 2.2.33. Sarayda fəaliyyət göstərən müdərrislər

Azərbaycanlı müdərrislərdən XII əsr ərəbdilli ədibi əslən Gəncədən olan Əbu Həfs Ömər ibn Osman ibn Şüeyb əl-Cənzinin (v.e. h. 550/1155-ci ildə Mərvdə) Nişapurda Nizamülmülkün oğlu Fəxrülmülkün (v.e.1106-cı ildə) uşaqlarına dərs deməsi[2] gəncəli müdərrisin tədris işində mahir ustad olduğunu göstərir. Fəzilət sahibi, dindar, xoş rəftarlı bu ədib Bağdadda qaldığı müddətdə böyük alimlərlə, o cümlədən Əbulmüzəffər əl-Əbivərdi ilə dostlaşaraq ondan elm öyrənmşdi. Əbu Həfs Ömər ədəb elminin sirlərini dərindən mənimsəmək niyyəti ilə Bağdaddan sonra Həmədanda da bu alimin yanında təhsilini davam etdirmişdir. Sərxəsdə Əbu Həfslə görüşən əs-Səmani onun özündən eşitdiyi şeirlərindən parçalar yazmışdır. Əs-Səmani ədib Əbu Həfs Ömər

[1] Əs-Siləfi Mucəm əs-səfər, s.19

[2] Лембтон К.С. Аспекты расселения селъджуков-огузов в Иране / пер.с анг.В.В.Наумкина // Мусулъманский Мир. 950-1150. М.,1981, с.121; Məmmədov Z.C. Orta əsr Azərbaycan filosofları və mütəfəkkirləri. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1986, s. 20.

ibn Osman ibn Şüeyb əl-Cənzini (v.e. h. 550/1155-ci ildə Mərvdə) fəzilət sahibi, dindar, xoş rəftarlı bir şəxsiyyət kimi oxucularına təqdim edir. O, əlavə olaraq yazırdı: " Ömər əl-Cənzi iti ağlı ilə seçilir. Allah qarşısında çox mömin idi.[1] Əbu Həfs Bağdadda təhsil aldıqdan sonra vətəni Gəncəyə dönmüş, sonra isə ikinci dəfə Bağdada qayıtmış, yetmiş yaşında vəfat etmişdir. L.Orucova və Z.Şıxalibəyli yazır ki, bir çoxları güman edirlər ki, Ömər ibn Osman əl-Cənzi Nizami Gəncəvinin dayısı olmuşdur.[2] Mərvdə onunla görüşən Yaqut əl-Həməvi onun yetmiş yaşında vəfat etməsini yazır[3].

Fəxrülmülkün sarayında onun uşaqlarına dərs deyənlərdən biri də Əbu Səid Həkim əl-Urməvi olmuşdur. Bu haqda Beyhəqinin "Tarixul-hükəmə" əsərinə əsaslanan M.Tərbiyət məlumat vermişdir.

### *2.2.34. Məscid nəzdindəki mədrəsələr*

Məscidlər ibadət yeri olmaqla bərabər, həm də təhsil funksiyasını yerinə yetirirdi. Hz.peyğəmbər (s.a.s) bir gün məscidə girərkən, camaatın bir qismini dua və zikrlə, digər bir qismini elmlə məşğul halında görüb, " Mən müəllim olaraq göndərildim" deyərək, elmlə məşğul olanların yanında oturması məscidin təhsil və tədris funksiyasını yerinə yetirməsini göstərmək üçün yetərlidir[4]. İslamda ilk təhsil və tədris fəaiiyyətləri Məkkə dövründə "Darül-Ərkam"da başlamış, Mədinədə Məscidi Nəbəvinin inşasından sonra sürətləndirilmişdi. Məsciddəki təhsil fəaliyyətləri "məclis" kəliməsilə ifadə edilirdi. Hz.Peyğəmbərin Məscidi Nəbəvidəki dərslərinə "məclisu-l-elm" deyilmişdir ki, bu ilk hicri əsrdə hədis dərslərini ifadə edirdi. Bu məclislərdə hz. Peygəmbərin (s.a.s) ərtrafinda iç- içə dairə şəklində oturan dinləyici qrupu-

[1] Əs-Səmani, Ənsab. IIIc., s.127; Yaqut əl-Həməvi. İrşad. IV c., s. 49.
[2]Оруджева Л.М., Шихалибейли З.Е. Развитие арабской филологии в Азербайджане. Баку: Нурлан, 2004, с. 25.
[3]Yaqut əl-Həməvi. İrşad. IV c., s. 49; Əliyeva N.A. Azərbaycan Yaqut əl-Həməvinin əsərlərində. Bakı: Çaşıoğlu, 1999.
[4]Ahmet Önkal -Nebi Bozkurt. Cami. İslam Ansiklopedisi. 7-ci cilt, s. 50.

na "halqa" deyilmişdir. Bəzi səhabələr dərs vermədə ona yardımçı olmuşlar. Übadə ibn Samit onlarlan biriydi və məsciddə Quran, qiraət, yazı öyrədirdi[1].

Həmyerlilərimiz müxtəlif mədəniyyət mərkəzlərində məscidlərin nəzdindəki təhsil ocaqlarında da fəaliyyət göstərmişlər. "Makilu-n-nuhat" ("Qrammatiklərin başçısı") kimi tanınan urmiyalı əl-Həsən ibn Əbülhəsən əs-Safii üçün məscid açılmış, o orada dərs demişdi. Urmiyalı qrammatiklərin başçısı düzgün etiqadlı, alicənab bir şəxsiyyət olmaqla yanaşı, həm də məhsuldar bir alim olmuşdu. Yaqut əl-Həməvi onun ona yaxın samballı əsərlərinin adlarını çəkir[2].

Azərbaycanda Məscid tərkibində olan məktəblərdən biri də Təbrizdə" Məhəllə meydanında" yerləşirdi. Onun əsası Şəmsəddin Məhəmməd ibn Məhəmməd əl-Cuveyni tərəfindən qoyulmuşdu[3].

Nişapurdakı Uqeyl məscidindəki tədrisə narizli - marağalı imam Əbu Turab Əbdülbaqi ibn Yusif ən-Nərizi əl-Maraği başçılıq etmişdir[4]. İmanlı imamlardan və tanınmış fəzilət sahiblərindən sayılan Əbu Turab məscidin həm imamı olmuş, həm də həmin məscidin nəzdindəki tədrisə rəhbərlik etmişdir. Onun mömin, zahid kimi cəhətlərini əs-Səmani də təqdir etmişdir. Cəmiyyətdə özlərinə nüfuz qazanmış belə alimlərimizin bəziləri kimi o da dövrün tələb etdiyi çox hörmətli işlərdən olan hədis nəql etməklə də məşğul olmuşdur.

Təbrizli həkim Məhəmməd ibn Əbu Məhəmməd Dəməşqdə "əl-Mənsuri" şəfaxanasında işləyəndən sonra buradakı "əl-Mardini" məscidinin nəzdindəki mədrəsədə dərs demişdir.[5]

[1] Ahmet Önkal -Nebi Bozkurt. Cami. İslam Ansiklopedisi. 7-ci cilt, s. 50.

[2] Əliyeva N.A. Yaqut əl-Həməvi və Azərbaycan. Bakı, 1999, s.206;Yaqut əl-Həməvi. İrşad əl-Ərib. V c, Misir, 1925, s.74-80.

[3] Сейидбейли М. Научно-культурная жизнь Азербайджана (второй половины XIII-начало XIV в.) Баку, 1999, с. 60

[4] Əs-Səmani. Əl-Ənsab.V c., s. 37.

[5] Буниятов З. Новые материалы о видных деятелях Азербайджана (Статья четвертая). Известия Академии Наук Азербайджана. История, Философия, Право, № 3, 1980, с. 64.



***Nizami Gəncəvi.***
*“Leyli və Məcnun” əsərinə çəkilmiş miniatürlər.*



***Nizami Gəncəvi.***
*"Leyli və Məcnun" əsərinə çəkilmiş miniatürlər.*

Orta əsrlərdə bir və ya bir neçə mədrəsədə elm öyrənib təhsil artırmaq mümkün idi. Buna görə də adətən ərəbdilli bioqrafik mənbələr təhsilin artırılması üçün bir və ya bir neçə mədrəsələrdə mühazirələri dinləyən alimlərin hansı mədrəsədə oxuduğunu qeyd etmişlər. Mənbələrdə əsas məsələ şəxsiyyətin hansı müəllimdən dərs alması və onların mühazirələrini dinləyənlərin kim olmasıdır. Əli ibn Abdulla əl-Ərdəbili (h.667/1268-746/1346) 30 yaşına qədər 14 ixtisasa (qrammatika, fiqh, tibb, məntiq, ritorika, əl-Hacibiyyənin təfsiri, hüquq, riyaziyyat, mexanika, fiqhdə lakoniklik, irsi hüquq, differensal bərabərlik, sünnə) yiyələnmək üçün müxtəlif mədrəsələrdə 10-a yaxın mütəxəssisdən dərs almışdır.

Bioqrafik mənbələrin müəllifləri şəxsiyyətin müəlliminin adını tez-tez çəkmələrinə baxmayaraq, alimi yetişdirən mədrəsənin adını daha az çəkirdilər. Onlardan İbn əl-Həcər əl-Əskalani xəbər verir ki, İbn Qazı əl-Əsğər adı ilə məşhur olan Şərəf əd-Din Əbu-l-Həsən əl-Urməvi ədəbiyyatı və hüququ "Akbuqaviya" və "əl-Məşhəd əl-Hüseyni" mədrəsələrində mühazirələri dinləməklə öyrənmişdir.

Mədrəsələr, əsasən dövlət məmurları və varlı adamlar tərəfindən bir alimin dərs verməsi arzusu ilə açılırdı. Alimlər arasında varlı olub öz gəliriylə mədrəsə açdıranlar da olmuşdu. "Təhzibül-əsar" əsərinin müəllifi "hargüşi başlıq" ("kalan-süve") düzəldib sataraq qazandığı pulla bir mədrəsə, kitabxana, bir də xəstəxana inşa etmişdi. Mədrəsələrdən bəziləri də sufi xanəgahlarında fəaliyyət göstərirdi. Burada təhsil alan tələbələrə ət, çörək, ayda bir dəfə şirniyyat, yağ, sabun verilirdi. Bəzi xanəgahlarda isə yetim uşaqlar üçün mədrəsələr tikilmişdi. Burada təhsil alan yetim uşaqlara gündəlik çörək və digər ərzaq verilirdi.

### 2.3. Xanəgah və ribatlar

Azərbaycanda mənbələrin təsdiq etdiyi çoxsaylı xanəgahların olması da sufizmin bu diyarda yayılmasına sübutdur.

Azərbaycanda mənbələrin təsdiq etdiyi bu çoxsaylı xanəgahlar da təhsil ocaqlarından sayılmışdır. Həmin xanəgahlardan bir neçəsi, o cümlədən Şamaxının indiki Göylər kəndində Pir Mər-

dəkan və Pirsaatçay üzərində Pir-Hüseyn xanəgahı (XII-XIII əsrlər), İsmayıllı rayonundakı Qız qalası xanəgahı (XII əsr), Bəndovan burnu terrasının aşağı hissəsində böyük olmayan kurqan şəklində "Pir Bəndovan" məbədləri hal-hazırda qalmışdır[1].

Azəbaycanda artıq izi qalmayan, lakin ərəb ədəbiyyatında məlumat verilən bir neçə sufi xanəgahının da adı çəkilir. Bunlardan Naxçıvan ərazisindəki xanəgah haqqında XIII əsrin anonim "Əcaib əd-Dünya" əsərində[2]və Əbu ər-Rəşid əl-Bakuvinin "Kitab təlxis əl-əsər və əcaib əl-malik əl-qahhar" əsərində[3] məlumat verilir. Naxçıvanı Azərbaycanın yaxşı şəhərlərindən hesab edən əslən Bakıdan olan orta əsr coğrafiyaşünas-səyyah Əbdürrəşid əl-Bakuvi (XIV əsr) bu diyarın təsvirini verir və o, mədrəsələri və imarətləri ilə bərabər xanəgahlarının da şəhərlərini şərəfləndirən tikililərsırasına daxıl edir[4]. Marağadakı sufi xanəgahı Zəkəriyyə əl-Qəzvini[5] və Yaqut əl-Həməvinin əsərində[6] qeyd edilmişdir.

İbn Cubeyr "Şərqin cənnəti" və "İslam ölkələrinin üzüyü" adlandırdığı Dəməşq şəhərini tərif edərkən Dəməşq Universitetini şəhərdə ən üstünü hesab etmişdi. Bu, Xilafət dövründə təhsilə və tədris ocağına verilən qiymət idi. Əslən Bakıdan olan Əbdürrəşid əl-Bakuvi Naxçıvanı Azərbaycanın yaxşı şəhərlərindən hesab edərək təsvirini verəndən sonra, mədrəsə ilə birlikdə xanəgahların da Naxçıvanı şərəfləndirdiyini yazır[7]. Bunu Akademik Ziya Bünyadov da təsdiq edir. O, Şərqin iri və məşhur xanəgahları sırasında Naxçıvan xanəgahlarının da xüsusi yeri ol-

---

[1]Квачидзе В.А.Археологические находки на Каспийском побережье. Памятники материальной культуры Азербайджана, №9, с. 32.

[2]Миклухо-Маклай Н.Д. Географическое сочинение XIII в. // Ученые записки ИВАН СССР, т. IX, М., Л., 1954, с. 208.

[3]Əl-Bakuvi Əbu ər-Rəşid. "Abidələrin" xülasəsi və qüdrətli hökmdarın möcüzələri. Bakı: Şur nəşriyyatı, 1992.

[4]Ал-Бакуви Абу ар-Рашид. Китаб талхис ал-асар ва аджаиб ал-малик ал-каххар / пер. и комм. З.М. Буниятова. М.: Наука, 1971, 158, s. 99.

[5] Zəkəriyyə Qəzvini. Əsər-u-l biləd, s. 262; Zəkəriyyə Haşim Zəkəriyyə.Fadlu-l-hadara..., s.19.

[6] Yaqut əl-Həməvi. Mu´cəm əl-Buldən. Beyrut, s. 4-6.

[7]Ал-Бакуви Абу ар-Рашид. Китаб талхис ал-асар ва аджаиб ал-малик ал-каххар /пер. и комм.З.М.Буниятова. М.: Наука, 1971, 158 с., с. 99.

duğunu qeyd edir və göstərir ki, bu xanəgahlar Müsəman Şərqinin ən məşhur xanəgahları ilə bir sırada durur[1].

İslamlaşma, Quranın öyrənilməsi, Qurana aid ədəbiyyatın geniş yayılması tədris müəssisələrinin (ruhani məhəllə məktəbləri, mədrəsələr, təkyələr) tikintisinə güclü təkan verdi[2]. Onlara əlavə olaraq Quran evləri, hədis evləri, ribatlar, türbələr, zaviyələri də tədris müəssisələri qisminə əlavə etmək olar. Bunlardan əlavə dörd məzhəb məktəblərini (şafii, hənəfi, maliki və hənbəli) də tədris müəssisələri sırasına qatmaq olar. Bu müəssisələr tələbələrin tərbiyə və tənbeh edilməsi, dərs deyənin göstəriş verə bildiyi təhsil müəssisələri olmuşdur[3]. Bu tipli təhsil müəssisələrində əsli Azərbaycandan olan təhsil xadimləri islam intibahının inkişafında görkəmli yerlərdən birini tutmuşlar.

### *2.3.1. "Davadariya" xanəgahı*

İbn Kəsir h. 698 (1298)-ci il hadisələri haqqında danəşarkən bu xanəgah, oradakı mədrəsə və hədis evi barədə məlumat vermişdir. Bəzən xanəgah şeyxi həm də mədrəsədə dərs deyə bilirdi. Mahmud ibn Əli ibn İsmayıl ibn Yusif ət-Təbrizi (719/1319) bu "Şafiiyyə" mədrəsəsində dərs demiş, həm də "Davadariya" xanəgahının şeyxi olmuşdur[4]. Dəməşq Universitetində təhsil almış İbn əs-Sabuni xəbər verirdi ki, Əbül-Qasım ibn Ruvaha əl-Ənsari kimi alim şeyx Azərbaycanın Şirvan bölgəsindən olan Əbül Həsən əl-Müfəddidin tələbəsi olmuşdur[5]. Əbül-Həsən ona qiraətdən

---

[1]Попечительство Мамлюкских султанов Эгипта над суфийскими обителями /Духовенство и политическая жизнь на Ближнем и Среднем Востоке в период феодализма.М.: Наука,1985, с.67.
[2] Шихсаидов А.Р. Арабский халифат и Северный Кавказ // Проблемы исламизации Дагестана-Пути, реальные силы, последствия. Взаимовлияние цивилизаций на Востоке.Тезисы докладов и сообщений, т. II. М.: 1988, s. 52.
[3] Ən-Nüeymi Əbdülqadir ibn Məhəmməd əd-Diməşqi. Əd-Dəris fi tarix əl-Mədaris. Dər əl-kutub əl-`ilmiyyə. Beyrut, 1990, s. 5.
[4]Буниятов З.М. Новые материалы о видных деятелях Азербайджана в эпоху средневековья (статья четвертая) // Изв.АН Аз.ССР. Серия истории, философии и права,1980, №3, с. 64.
[5]İbn əs-Sabuni, Təkmilət..,1956, s.316.

dərs demişdi. İbn əs-Sabuninin özünün Dəməşqdə mühazirələrini dinlədiyi digər azərbaycanlı ziyalı h.560/1164-cü ildə anadan olmuş Əbu Şəfa Xəlil ibn Əhməd ibn Xəlil ət-Təbrizi 655/1257-ci ildə vəfat edənə qədər burada qalaraq fəaliyyətini davam etdirmiş, Dəməşqdə, sufilərin qəbirstanlığında dəfn edilmişdir [1].

### 2.3.2. "Əbu Səad" ribatı

Əs-Səmani Əbunnəcib əs-Sührəvərdi ilə əlaqədar yazısında başqa bir sufi müəllifin "şeyximiz" deyə adlandırdığı sufi Əbu Səad Əhməd ibn Məhəmməd əl-Bağdadi barədə də məlumat verir. Bağdad sufilərinin ruhani başçısı olan şeyx əş-şuyux Əbu Səad Xilafətin mərkəzində "Əbu Səad ribatı" adlanan şəxsi xanəgah tikdirmişdi. Nizamiyyə mədrəsəsi ilə birlikdə bu xanəgah Nizamülmülkün dəstəyi ilə sufi-əşarilik ideyalarını təbliğ edən mərkəzə çevrilmişdi. O dövrün bir çox sufi və əşarilərinin hədis yaradıcılığı bu şəxsiyyətlə bağlıdır. Təsadüfi deyil ki, əs-Səmani Əbunnəcib əs-Sührəvərdini ziyarət edərkən məhz bu sufidən qiraət (yəni müəllifin bilavasitə özündən üzündən oxuma ) yolu ilə öyrəndiyi hədisləri ona nəql etmişdi.

-Urmiyalı Əburravhla (Əbur-Ruh) yaxın olan əs-Səmani yazır ki, o Mərvdə olanda mən İraq səfərində olduğuma görə orada deyildim. Bu vaxt o əvvəlcə bizdə qaldı. Sonra onu Abdulla ibn Həlvaninin köməyi ilə bir xanəgahda yerləşdirdim. Əs-Səmani ilə Əburravh əl-Urməvi bir-birlərindən faydalanmışlar. Əs-Səmani fəqih, fəzilət sahibi, əməlisaleh, ləyaqətli adam kimi tanıdığı əl-Urməvidən şeir parçaları yazmışdır. Əburravh əl-Urməvi də öz növbəsində əs-Səmanidən diktə və dinləmə yolu ilə çox hədis yazmışdır.

Əs-Səmani əsərində səkkiz azərbaycanlı sufinin adını çəkərək onları hədis elmi ilə əlaqədar xatırlayır. Haqqında məlumat verilən sufilər arasında Azərbaycanın Ərdəbil şəhərindən çıxanlar daha çoxdur. Bakı, Bərdə, Beyləqan, Nəşəvə, Sührəvərd, Mərənd də azərbaycanlı sufilərin vətəni olmuşdur. Ordubad rayonu Vənəndçay vadisi orta əsrlərdə sufiliklə bağlı mərkəzlərdən he-

[1] İbn əs-Sabuni, Təkmilət..,1956, s. 55.

sab edilir. Hacı Fəxrəddin Səfərli Xanağa, Sir Xanağa, Pir Maqsud, Xəlifə Süleyman və Baba Yaqub kimi xanəgahları haqqında tədqiqat apararaq Vənəndçay vadisində sufi yaşayış məskənlərinin olmasını böyük ipək yoluna məxsus ticarət karvanlarının hərəkər etdiyi əsas sənətkarlıq mərkəzlərinin qovşağında qərar tutması ilə əlaqələndirir. Bu fikri əsas tutaraq əlavə etmək olar ki, sufiliyin kök salması üçün ailədə və ya ailənin ətrafında münbit mühitin olması da əsas şərtlərdən sayıla bilər.

Əbu Səid əl-Meyhəninin oğlu, nəvəsi, eləcə də imam Əbulqasim əl-Qüşeyri və oğlu Əbu Səid kimi, çoxlu hədis bilən sufi alim kimi təqdim edilən Əbu Abdulla Məhəmməd ibn Abdulla ibn Bakuveyh əş-Şirazi əl-Bakuvinin (ö. 420/1029-cu ildən sonra) qardaşı Şirvanda Pirsaat çayı üzərindki məşhur xanəgahın əsasını qoymuş Pir Hüseyn İbn Abdulla ibn Ubeydullah Şirvani də sufi olmuşdur . Əl-Bakuvinin mühüm xidmətlərindən biri sufilərin hekayətlərini toplamasıdır. O, Əbu Abdulla ibn Xəfif əş-Şirazini və başqalarını görmüşdür. Ona istinadən hədis söyləyən bir çox ravi və sufilər arasında Əbu Səad ibn Əbu Sadiq Hiri, ustad, imam Əbulqasim əl-Qüşeyri və oğlu Əbu Səid, müəzzin Əbu Saleh Əhməd ibn Əbdülməlik və sonuncusu Əbu Bəkr Əbdülqəffar ibn Məhəmməd ibn Hüseyn əş-Şirəvi misal gətirilir.

X əsrdən başlayaraq fars dilində yazılmış sufi şeirlərindən ayrı-ayrı sətirlər, bir bəndlik şeirlər işıq üzü görməyə başlayır, lakin parlaq sufi rəngi ilə boyanmış tam bitkin divan isə Baba Kuhi təxəllüslü əl-Bakuviyə mənsubdur. Hədis toplamaq arzusu onu Nişapura gətirib çıxarmışdı. XI əsrin əvvəllərində burada məşhur sufi şeyxi Əbu Səad əl-Meyhaninin rəhbərlik etdiyi müxtəlif cərəyanları ehtiva edən tam sufi məktəbi yaranmışdı. Əl-Bakuvi Nişapura təsəvvüfün düşməni kimi daxil olmuşdu, lakin sufilər arasında qalması onlara olan münasibəti dəyişmiş, sufiliyin alovlu tərəfdarına çevrilmişdi. Sufilər arasında yüksək nüfuz və ehtiram qazanan Baba Kuhi hətta bir vaxtlar sufi xanəgahının başçısı (şeyxi) olmuşdu .

Fəqih, fəzilət sahibi, əməlisaleh, ləyaqətli sufi kimi təqdim edilən Əburravh Fərəc ibn Əbu Bəkr ibn Fərəc əl-Urməvi ilə əs-

Səmani Tusun Nuqan məhəlləsində görüşmüşdü. Əs-Səmani göstərir ki, Əburravh Fərəc ibn Əbu Bəkr ibn Fərəc əl-Urməvi fiqhi şeyximiz Məhəmməd ibn Əbulabbasdan öyrənmişdir. Bu fakt göstərir ki, onun müəllimi görkəmli alimlərdən olmuşdur. Sufilərin atributlarından biri xanəgahdır. Onun xanəgahda yerləşməsi üçün əs-Səmani ona kömək etmişdir. O yazır: "Sonra o, Mərvə gəldi. Bu vaxt mən İraq səfərində olduğuma görə orada deyildim. O əvvəlcə bizdə qaldı. Sonra onu Abdulla ibn əl-Əlvaninin köməyi ilə bir xanəgahda yerləşdirdim". Sufi fəqih həm də şair idi. Əs-Səmani ondan şeir parçaları yazması haqqında məlumat verir.

## 2.4. Tədris üsulu

Yaqut əl-Həməvi Xətib Təbrizinin kitabından qiraət etdiyini (kuntu aqra`u) yazırdı. Burada işlədilən "qar`a " sözü texniki termin kimi hər növ qiraəti deyil, yalnız qiraətin müəyyən növünü bildirir. Tələbə müəlliminin qarşısında öyrənmək istədiyi mətni oxuyur. Bu mətnin yazısını o ya özü əvvəlcədən hazırlaya bilər, ya müəllimindən, ya da üçüncü şəxsdən götürə bilərdi. Bu kontekstdə Xətib Təbrizi tələbə qismində olaraq Xətib Bağdadinin əsərini mətn kimi götürmüşdür. Tələbə mətni səsləndirməli idi. Bu isə asan məsələ deyildi, yəni bu zaman tələbə çalışırdı ki, əsəri düzgün başa düşdüyünü nümayiş etdirsin. Əgər ona bir şey aydın olmazsa, müəlliminə sual verməli idi. Müəllimin rolu isə ondan ibarət idi ki, mətnin düzgün oxunmasına nəzarət etsin, lazım gələn yerlərdə düzəliş və qeydlərini desin, suallara cavab versin, mətni şərh etsin. Burada mətn müəllimin özünün olduğuna görə o, onu kimdən və necə öyrəndiyini aydınlaşdırmalı idi.

1263-1284-cü illərdə Naxçıvan şəhərində inşa edilmiş iki mədrəsə haqqında verilmiş fərmanda Azərbaycanda təhsil üsuluna daha bir aydınlıq gətirilmişdir. Bu fərmana görə müdərris aşağıdakı şərtlərə əməl etməlidir: çalışqan tələbələri öz ruhani oğlu hesab etməli, tədris və təlim zamanı şagirdlərə əziyyət verməməli, onları yarmamalıdır. Şagirdlərin təbiəti, istedadı və bilik dərəcəsi müxtəlif olduğundan müdərris hər şagirdin fərdi xüsusiyyə-

tini nəzərə alaraq ona fənn təyin etməli və onun şəxsi xüsusiyyətinə müvafiq dərs verməlidir. Müdərris dərsləri asan anlaşılacaq bir tərzdə aparmalıdır. Təhsilə yeni başlayan şagirdlərdə mübahisəyə çox meyl olduğundan onlar elmin əsaslarını öyrənmək əvəzinə bir neçə məsələni öyrənməklə kifayətlənir. Hiylə və mübahisələr ilə özünü bilici göstərməyə çalışır. Müdərris buna yol verməməlidir.Həftədə bir gün şagirdlər arasında dərslərin müzakirəsini keçirməli, öryənilən dərslərin mənimsənilmə dərəcəsini yoxlamaq üçün müdərris ayda bir dəfə imtahan təşkil etməli, dərslərini yaxşı oxuyan tələbələri başqalarına tanıtmalıdır[1].

Müdərrislər qarşısında da belə konkret vəzifələr qoyan fərman onun ardınca şagirdlərin də vəzifələrini aydınlaşdırmışdır. Şagirdlər fərmana görə aşagıdakı şərtlərə əməl etməli idilər: 1) Fənmanda göstərilən şərtləri həyata keçirən müdərrisi digərlərindən üstün tutmalıdırlar; 2) Elm, təhsil almaq istəyən şagird tənbəllik və səhlənkarlıqdan uzaq olmalıdır, dərsləri təkrar etməkdən yorulmamalıdır; 3) Dərs zamanı diqqətli olmalı, anlaşılmayan məsələyə dair sual verməkdən çəkinməməlidir; 4) Şagirdlər keçən dərsi mənimsəmədən yeni dərsə başlamamalıdır; 5) Şagirdlər yalnız elm təhsili ilə kifayətlənməyib, eyni zamanda, əxlaq təmizliyinə və doğruluğa da diqqət verməlidir[2].

Orta əsr ərəbdilli müəlliflərin əsərlərinin tekstoloji cəhətdən təhlili deməyə əsas verir ki, bu əsərlər son dərəcə kompilyativ xarakter daşıyır. Buna səbəb, məlum əsərlərin redaktə və şərh olunması yolu ilə yeni əsərlərin yaradılmasına imkan verən mövcud elmi biliklərin ötürülməsi ənənəsi idi. Orta əsrlərin təlim üsuluna, hədis elminin tədrisi ənənəsinə görə müəllim tələbəyə bilik tədris edərkən, öyrətdiyi elmin hansı mənbəyə əsaslandığını göstərməli idi. Həm də öyrənərək isnad etdiyi əsərin istifadə olunması üçün müəlliminin yazılı "icazəsi" olmalı idi. Beləliklə, "İcazətnamə" deyilən bu sənəd təlimin keyfiyyətli, doğru, məlu-

[1] Hacıfəxrəddin Səfərli. Orta əsrlərdə Naxçıvanın sosial-siyasi həyatında dini mərkəzlərin rolu. B., Elm, 2003, 319-320

[2] Yenə orada.

matın ötürülməsinin adekvat olmasının qarantı kimi bir növ diplom rolunu oynayırdı. Ona görə də, müəlliflər bir-birlərindən əxz etdikləri məlumatları redaktə edir, əsərlərdə olmayan məlumatları əlavə etməklə yeni mənbələr yaratmış olurdular.

# III FƏSİL

## Azərbaycanlı alimlərə dərs demiş azərbaycanlı müdərrislər və digər görkəmli təhsil xadimləri

Ərəbdilli müəlliflər Azərbaycanın bir sira elm və təhsil ocaqlarını ziyarət edərkən həm görkəmli müdərrislər, həm də mədrəsələr haqqında bilği vermişlər. Onlar azərbaycanlı alim müdərrislərin həyatında rolu olmuş bir sıra görkəmli təhsil xadimləri haqqında da məlumat vermişlər. İbn əl-Fuvati İmam əl-Mütəsim Billahın Təbrizdə Şəmsəddin Məhəmməd ibn Məhəmməd əl-Cuveyninin əsasını qoyduğu məktəbi ziyarət etməsi barədə yazmışdır. Qeyd etmək lazımdır ki, imam Cuveyni (ö. 478/1086) Nişapurdakı Nizamiyyənin ilk rəhbəri olmuşdur.

Gəncə və onun Nizamiyyə mədrəsəsini ziyarət etmiş xilafət alimləri arasında əs-Siləfini (1085-1180) də qeyd etmək olar. O, Gəncə mədrəsəsində fəaliyyət göstərmiş qazı Əbu Abdulla Məhəmməd ibn Əli ibn Məhəmməd ət-Təbəri kimi müdərrislə görüşmüşdü. Oradakı təhsilə rəhbərlik etmiş “parlaq zəkalı” bu şəxs haqqnda məlumat verərək onun Gəncədə Nizamulmülkün onun atası üçün tikdirdiyi mədrəsədə müdərris vəzifəsində çalışdığı haqqında məlumat vermişdir. Əlavə olaraq göstərmişdi ki, o, fiqh və ədəb elmi fənlərinin müdərrisi olmaqla yanaşı həm də burada təhsilə başçılıq etmişdir. Əbu Abdulla ət-Təbəri həmin mədrəsədəki tədrisə rəhbərlik edərkən yaxşı işləmiş, onun idarəçilik qabiliyyəti daha da artmışdı .

Alim, şeyx İbn Makula da Gəncə və onun kitabxanasını ziyarət edən alimlər arasında adı çəkilir. Əs-Siləfi məlumat verərək göstərir ki, İbn Makula Gəncədə olarkən oranın məscidini və kitabxanasını ziyarət etmişdir. Müəllif kitabxananın qoruyucusu naxçıvanlı Xodadad ibn Asim haqqında da oxucusunu məlumatlandırır.

Orta əsrlərdə yazb-yaratmş ərəbdilli müəlliflərdən əs-Səmani həmyerlilərimizlə onalrın müəllimləri olmuş görkəmli təhsil xadimləri ilə Bağdadda görüşərək məlumat vermişlər.Urmiyadan çıxmış və fiqh elmini Əbu İshaq əş-Şirazidən öyrənmiş alimimiz Əbu Bəkr Məhəmməd ibn əl-Hüseyn əl-Urməvinin özü də müəlliminin yolunu gedərək Nizamiyyədə fiqhdən dərs demişdir.

Urmiyalı müdərrislə Bağdaddakı Dərbüs-silsilə məhəlləsindədəki evində görüşən əs-Səmani ona istinadən imam Əbu İshaq əş-Şirazinin söylədiyi iki beyt yazmışdır. İkinci şeir parçası isə İmam Əbu İshaq əş-Şiraziyə aiddir. ƏbuİshaqFəqih Əbu Bəkr Məhəmməd əl-Urməvinin müəllimi olmuşdur. Əs-Səmani Əbu İshaq əş-Şirazinin saf dostluq haqqında şerindən bir beyti yadında saxlamış tələbəsi əl-Urməviyə istinadən yazmışdır.

Orta əsr müəllifləri Nizamiyyə mədrəsəsində təhsil alan digər bölgə alimlərinin yetişməsində əslən azərbaycanlı olan müdərrislərdəndə söz açırlar. İranın Kəzarun şəhərindən çıxmış alimlərdən Əhməd ibn Mənsur əl-Kəzaruni 539/1144-45-ci ildə Bağdada gəlib, burada Əbül-Fəzl ibn Ömər əl-Urməvinin yanında şafii məzhəbi üzrə mütəxəssis kimi yetişmişdir.

Ərəb ədəbiyyatında azərbaycanlılara fiqhi öyrədən daha bir neçə müəllimin də adları çəkilir. Məhəmməd ibn Yəhya əz-Zəhli, imam Müvəffəq ibn Əbdülkərim əl-Hərəvi və Əsəd ibn Əbu Nəsr əl-Yəməni[1]. Onlardan hər üçü Bərdə, Dərbənd və Sührəverddən olan həmyerlilərimizə (Harun ibn Ravh əl-Bərdəi əl-Bərdici, Həkim ibn İbrahim ibn Həkim əl-Ləkzi əl-Xunaliqi əd-Dərbəndi, sufi şeyx Əbunnəcib Əbülqahir ibn Abdulla əs-Suhrəvərdiyə) fiqh fənnini tədris etmişlər. Bunlar Harun ibn Ravh əl-Bərdəi əl-Bərdiciyə fiqhi öyrətmiş Məhəmməd ibn Yəhya əz-Zəhli[2] və Həkim ibn İbrahim ibn Həkim əl-Ləkzi əl-Xunaliqi əd-Dərbəndiyə Mərvdə fiqhə aid bilik vermiş imam Müvəffəq ibn Əbdülkərim əl-Hərəvi və sufi şeyx Əbunnəcib

---

[1]Əs-Səmani, I c., s. 328-329; Əs-Səmani, III c., s.325-326.
[2] Əs-Səmani, Ənsab, I c., s.328-329.

Əbülqahir ibn Abdulla əs-Sührəvərdiyə bir müddət Nizamiyyədə dərs demiş Əsəd ibn Əbu Nəsr əl-Yəmənidir[1].

### *3.1. Əbu İshaq əş-Şirazi*

Əbu Həmid əl-Qəzali, əl-Kiyə əl-Hərrasi, Əbuttayyib ət-Təbəri kimi nəhəng din xadimləri ilə bərabər Əbu İshaq əş-Şirazinin (1003-1088) də azərbaycanlı ziyalıların elmli, bilikli fəqih kimi yetişməsində böyük əməyi olmuşdur. Şafii məzhəbi məktəblərindən birinin əsasını qoyan əşari Camaləddin Əbu İshaq İbrahim ibn Əli ibn Yusif Firuzabadi əş-Şirazi (v.e. 476/1083) fiqhə aid bir çox əsərlərin müəllifidir. Səlcuqların baş vəziri Nizamülmülklə sıcaq əlaqələri sayəsində Bağdadda böyük təsirə malik idi. Əşərizmin mərkəzi olan Bağdad Nizamiyyə mədrəsəsində 17 ildən çox fiqh fənnini tədris etmişdir. Əbu İshaq Nizamiyyə mədrəsəsinin ilk müdiri kimi uzun müddət ona başçılıq etmişdir. Bağdada gəlmiş azərbaycanlılardan Əbülqasim Mahmud Yusif ibn Hüseyn əl-Bərzəndi ət-Tiflisi,Əbulvəfa Xəlil ibn Möhsün ibn Məhəmməd əl-Mərəndi, urməvilərdən Əbulqənaim Qanim ibn Hüseyn və Əbülfəzl Məhəmməd ibn Ömərə fiqhi o öyrətmişdi[2]. Bağdadda qazı Əbuttayyib ət-Təbəridən fiqhi mənimsəmiş Qazı Əbülhəsən Əli ibn Həsən ibn Əli əl-Məyanəci ilə fiqhi birgə tədris etmişlər. Əs-Səmani onların münasibəti üçün səciyyəvi olan maraqlı bir fakt haqqında belə yazır: ”Şeyx Əbu İshaq əş-Şirazinin qazı əl-Məyanəciyə göndərdiyi bir məktub gördüm. Sərlövhəsində yazılmışdı: “Fikirlərinə şərik olan, onunla fəxr edən və ona duaçı olan İbrahim ibn Əli əl- Firuzabadi”[3].

Əbu İshaqın şəriət fənnindən dərs dediyi tələbələrdən Əbülfəz Məhəmməd əl-Urməvi Aqul[4] şəhərində məhkəmə işlərini idarə etmişdir.

[1]Əs-Səmani, Kitab əl-Ənsab,III c., s. 325-326.
[2]Əs-Səmani. Ənsab,IVc.,s. 333;I c., s. 144-145; V c., s. 23-24.
[3] Əs-Səmani. Ənsab,V c., s. 321.
[4] Aqul-Dəclə sahilində Bağdaddan 15 fərsəx aralıda şəhər.

Fiqhi məsələlərdə imam sayılan Əbubəkr Zəncəvinin dərs yoldaşı şeyx Əbu İshaq Şirazi olmuşdur. Fiqhi Bağdadda Qazı Əbutəyyib ət-Təbəridən öyrənmişdir. Bu fəxr etmək üçün yetər.

"Azərbaycanın böyüklərindən olan" (əimmətu əshab əş-şafiiyyə) olan Əbu-r-ruh Fərəcibn Übeydullah ibn Xələf əl-Xoyi şafii əshabələrinin imamlarından idi. O,Bağdadda Əbu İshaq əş-Şirazidən təhsil alandan sonra öz şəhərinə qayıtmış və orada mədrəsə açmışdı. Əs-Siləfi yazır ki, əshabələrdən bir qrup fəzilətli insan mədrəsədə təhsil alaraq(nəbəğə) irəli getmişdir[1].

### *3.2. Əbu Həmid əl-Qəzali*

Əbu Həmid əl-Qəzalinin adı əl-Kiyə əl-Hərrasi, Əbuttayyib ət-Təbəri, Əbu İshaq əş-Şirazı kimi nəhəng din xadimləri ilə bərabər çəkilir. Qədim Yunanıstan, eləcə də şərq filosoflarının əsərlərini mükəmməl öyrənmiş Əbu Həmid əl-Qəzali islam teologiyasını məntiq əsasında işləyib hazırlamışdı. Əbülhəsən Əş'əri məntiq müddəaları ilə sünnənin vəhdətini yaratdığı kimi, Əbu Həmid Qəzali də Əbülqasim əl-Quşeyridən sonra mötədil sufizm ilə ortodoksal islamı yaxınlaşdırmağa, barışdırmağa çalışmış və buna ilk dəfə məhz o, müvəffəq olmuşdur .

1091-ci ildə səlcuq vəziri Nizam əl-Mülk onu özünün Bağdadda təsis etdiyi Nizamiyyə mədrəsəsinə fiqh üzrə müdərris təyin etmişdi. 1095-ci ildə Nizamülmülkün ismaililər tərəfindən öldürülməsindən sonra Əbu Həmid əl-Qəzali Nizamiyyədə tədrisi tərk edərək Bağdaddan Beytü-l-Müqəddəsə köçmüşdü. Bu zamanlar onun artıq zahıdə çevrildiyi dövrdür. İslamın yayıldığı ilk əsrlərdə bu cərəyanın tərəfdarlarını "zahid" ("asket"), "abid" adlandırırdılar. Yaşayış tərzi, ətrafa, maddi nemətlərə biganəliyi və s. cəhətdən zahid ilə sufi eyni mövqedə dururdular. Amalları, qayələri etibarı ilə isə bir-birindən fərqlənirdilər; əgər zahid öz alminə çəkilərək, tənhalaşırsa, sufi əksinə, öz-özlüyündə deyil, Allahla mövcudluğunu ön plana çəkirdi. Yalnız X əsrdən sonra onlar sufi adlandırılmağa başladılar. Təsəvvüf təcrübəsi sufinin

---

[1] Əs-Siləfi mucəm əs-səfər, s. 183

heç olmasa ən azı bir dəfə səfərə çıxmasını zəruri hesab edirdi. Digər tərəfdən, səfərlər zahidin formalaşması üçün vacib şərt sayılırdı. Adətən təhsil müəssisəsi olmayan yerlərdə sığınacaq və qida tapan səyyah-alimlər orada arzu olunan qonaqlar kimi qəbul edilirdilər, çünki öz biliklərini səfərlərdə yaya bilirdilər. Əvvəl qeyd etdiyimiz kimi h. 489(1095)-ci ildə Nizamülmülkün ismaililər tərəfindən öldürülməsindən sonra Əbu Həmid əl-Qəzali Nizamiyyədə tədrisi tərk edərək Bağdaddan Beytü-l-Müqəddəsə köçmüşdü. Bu zamanlar onun artıq zahıdə çevrildiyi dövrdür. Ribatda olarkən onun yanına camaat toplaşır, onu dinləyirdilər. Qeyd etmək lazımdır ki, kəndlərdə onların ətrafına toplaşanlar onlara cüzi də olsa toxunmaqla bir qisim bərəkə (xeyir-dua) almaq arzusuna çatırdılar. Onlar adətən zahidlərə suallar yağdırır, qohum-əqrəbalarına dua etməyi xahiş edir, onlardan məsləhət alır, qonaq dəvət edirdilər. Məsələn, əs-Səmani kimi tanınmış elm adamı bir neçə dəfə sufi Əbunnəcib Sührəvərdinin yanında olmuş, söhbətlərini dinləmiş, ondan xeyir-dua almışdı.

Klassik sufizm terminini işlədən Avropa şərqşünasları Əbu Həmidin adını çəkirlər.Onlar bu ifadə ilə cərəyanın yaranmasından Əbu Həmid əl-Qəzalinin "imamlıq" zirvəsi qazanmış əsərlərlərinin meydana gəlməsinədək uzun bir inkişaf mərhələsini əhatə edən dövrü nəzərdə tuturlar. Bu dövr ilk sufiləri də özündə birləşdirir.

Əl-Qəzalinin dövründə müsəlman cəmiyyətində dini-hüquqi, ehkamçılıq, dini-siyasi və digər baxışlar bir-birinə qarışmışdı. Müsəlman ilahiyyatçısı eyni vaxtda həm şafii (hüquq məsələlərində), həm əşari ( ehkam məsələsində), həm də mistik (sufi) ola bilərdi. Son dərəcə mürəkkəb və çoxcəhətli olan sufilik Müsəlman Şərqi ölkələrində ictimai-siyasi hadisələrin kəskinləşdiyi şəraitdə yeni bir fikir cərəyanı kimi meydana çıxmışdı. İslam dini zəminində formalaşmış sufilik - mistik baxışlar sistemi kimi müsəlman cəmiyyətinin ən geniş təbəqələrini, yəni bu dini təlimə münasibət məsələsində fikir ayrılığı olan müxtəlif dini-hüquqi məktəblərin nümayəndələrini də əhatə edirdi. VIII əsrdə sufiliyin zahidi-mistik cərəyanı kimi yaranmış təsəvvüf, artıq XI-XII əsrlərdə fəlsəfi təlim kimi formalaşmışdı.

Əbu Həmid tədrisi üç il tərk etmişdi, sonra qayıdaraq, həcc ziyarətinə getmiş, daha sonra vətəninə qayıtmışdı. "İhya" kitabını da bu müddətdə yazmışdı .Əbu Həmidin tədrisi tərk etdiyi 3 il ərzində artıq qardaşı tədrisdə onun adından çıxış etmişdi. Tədris vaxtı Bağdada təhsil almağa yollanmış bir çox azərbaycanlı onun yanında təhsil alaraq elm öyrənmişdir.Xaric olandan üç il sonra qayıdaraq, həcc ziyarətinə getmiş, daha sonra vətəninə qayıtmışdı. Onun "İhya ulum əd-din" əsərinin əlyazmasının Respublikanın Əlrazmalar İnstitutunda mühafizə olunması Azərbaycan elmi mühitində bu əsərin öz payının olmasını göstərir .

Əbəbdilli ədəbiyyatda Əbu Həmid əl-Qəzalidən elm öyrənmiş bir çox azərbaycanlı haqqında məlumat verilir. Onun dərs dediyi tələbələr arasında Həkim ibn İbrahim ibn Həkim əl-Ləkzi əd-Dərbəndinin də adı çəkilir. Həmyerlimiz onun yanında fiqhi öyrənmişdir.

«Kamal» ləqəbi ilə tanınan Əbulfütuh Nəsrulla ibn Mənsur ibn Səhl əd-Duveyni əl-Xeyri fəqih, əməlisaleh, saf bir adam idi. Bağdadda Əbu Hamid əl-Qəzalidən fiqhi öyrənmişdi[1]. Görkəmli nəzəriyyəçi, ilahiyyatçı fəqih Əbu Həmid Məhəmməd ibn Məhəmməd ət-Tusi (1058-1111) Tusda (Xorasan) doğulmuş, Nişapurda əş'əri əl-Cuveyninin tələbəsi olmuşdur. Qədim Yunanıstan, eləcə də Şərq filosoflarının əsərlərini mükəmməl öyrənmiş Əbu Həmid əl-Qəzali islam teologiyasını məntiq əsasında işləyib hazırlamışdı. Əbülhəsən Əşəri məntiq müddəaları ilə sünnənin vəhdətini yaratdığı kimi, Əbu Həmid Qəzali də Əbülqasim əl-Quşeyridən sonra mötədil sufizm ilə ortodoksal islamı yaxınlaşdırmağa, barışdırmağa çalışmış və buna ilk dəfə məhz o, müvəffəq olmuşdur[2].

1091-ci ildə səlcuq vəziri Nizam əl-Mülk onu özünün Bağdadda təsis etdiyi Nizamiyyə mədrəsəsinə fiqh üzrə müdərris təyin etmişdi. 1095-ci ildə Nizamülmülkün ismaililər tərəfindən öldürülməsindən sonra h. 488-ci ildə zül-qadə ayında (1095) Əbu Həmid əl-Qəzali Nizamiyyədə tədrisi tərk edərək Bağdad-

---

[1]Əs-Səmani, Ənsab, V c.,s. 574.
[2]Məmmədov Z.C.Azərbaycan fəlsəfəsi tarixi. Bakı: İrşad, 1994.

dan Beytü-l-Müqəddəsə köçmüşdü. Bu zamanlar onun artıq zahidə çevrildiyi dövrdür. Xaric olandan üç il sonra qayıdaraq, həcc ziyarətinə getmiş, daha sonra vətəninə qayıtmışdı. "İhya" kitabını bu müddətdə yazmışdı. Ribatda onun yanına camaat toplaşır, onu dinləyirdilər[1]. Bağdada təhsil almağa yollanmış Həkim ibn İbrahim ibn Həkim əl-Ləkzi əd-Dərbəndi də onun yanında fiqhi öyrənmişdir[2].Onun "İhya ulum əd-din" əsərinin əlyazmasının Respublikanın Əlrazmalar İnstitutunda mühafizə olunması Azərbaycan elmi mühitində bu əsərin öz payının olmasını göstərir[3] .

### *3.3. İlkiya əl-Hərrasi*

Azərbaycanlı fəqihlərin müəllimlərindən biri də Nizamiyyə mədrəsəsində dərs demiş əl-Kiya əl-Hərrasi olmuşdur. Sufi şafii əşari alim əl-Kiya əl-Hərrasi kimi məşhur olan Şəms əl-İslam İmadəddin Əbülhəsən Əli ibn Məhəmməd ət-Təbəri (v.e.504/ 1110) Əbu Bəkr Məhəmməd ibn Üşeyr əş-Şirvaniyə fiqhi öyrətmişdir[4]. O, Nişapurdakı Nizamiyyə mədrəsəsinin ilk rəhbəri məşhur imam əl-Cuveyninin (ö. 478/1086) tələbəsi olmuşdur. əl-Kiya əl-Hərrasi Nizamiyyə mədrəsəsində əl-Qəzali ilə birlikdə fiqhdən dərs demişdir. Özünün "Təlxis" əsərində Təbəristan haqqında məlumat verən Əl-Bakuvi əl-Kiya əl-Hərrasini oradan mənşəyini götürmüş məşhur alimlərdən biri kimi təqdim edir. Əl-Bakuvi yazır ki, ləyaqətli insan olan alim şeyx əl-Kiya əl-Hərrasi Əbu Həmid əl-Qəzalinin davamçısı olmuşdur[5].

Bağdaddakı Nizamiyyə mədrəsəsində əməlisaleh fəqihlərdən olan Əbu Bəkr Məhəmməd ibn Üşeyr ibn Məruf əş-Şirvani İlkiya əl-Hərrasidən fiqhi öyrənmişdir. Əbu Bəkrə istinadən Müqri Əbulxeyr Mübarək ibn Hüseyn Qəssal əs-Səmaniyə hədis nəql etmişdir[6].

---

[1] İbn Kəsir. Əl-bidəyə va-n-nəhayə.VI c., s. 540.
[2]Əs-Səmani, Ənsab, V c.,s. 19.
[3] Каталог арабских рукописей / редактор-составитель д.ф.н. М.М.Адилов. 2-ое изд. Т. I. Баку: Нурлан, 2008, с. 45.
[4] Əs-Səmani, Ənsab, III c., s. 443.
[5] Ал-Бакуви Абу ар-Рашид. Китаб талхис ал-асар ва аджаиб ал-малик ал-каххар / пер. и комм. З.М.Буниятова. М.: Наука, 1971, с. 76.
[6] Əs-Səmani, Ənsab, III c., s. 443.

Mahmud ibn Əli ibn İsmayıl ibn Yusif ət-Təbrizi (719/1319) "əş-Şafiiyyə" mədrəsəsində dərs demiş, "Davadariya" xanəgahının şeyxi olmuşdur.[1] Dəməşq Universitetində təhsil almış İbn əs-Sabuni xəbər verirdi ki, Əbül-Qasım ibn Ruvaha əl-Ənsari kimi alim şeyx Azərbaycanın Şirvan bölgəsindən olan Əbül Həsən əl-Müfəddidin tələbəsi olmuşdur[2]. Əbül-Həsən ona qiraətdən dərs demişdi. İbn əs-Sabuninin özünün Dəməşqdə mühazirələrini dinlədiyi digər azərbaycanlı ziyalı h.560/1164-cü ildə anadan olmuş Əbu Şəfa Xəlil ibn Əhməd ibn Xəlil ət-Təbrizi 655/1257-ci ildə vəfat edənə qədər burada qalaraq fəaliyyətini davam etdirmiş, Dəməşqdə, sufilərin qəbirstanlığında dəfn edilmişdir[3].

Bioqrafik mənbələrdən əz-Zəhəbinin "Müxtəsər Tarixi-İbnu-d-Dübeysi" əsərində şafii məzhəbli fəqih, dövrünün əyanlarından, fəzilətli və nüfuzlu şəxslərindən olan Qazı Sədrəddin Əbu Bəkr Məhəmməd ibn Abdulla ibn Əbdürrəhman əl-Marağının (1143-1175) Bağdaddakı mədrəsələrdə təhsil alması, müəlliminin isə Şeyx Əbül-Bərəkat İsmayıl ibn Əbu Səadın olması vurğulanır. Əsərdə qeyd edilir ki, o, müəlliminin hədis dərslərində iştirak etmişdi[4].

### *3.4. Əbutayyib ət-Təbəri*

Mənbələrdə tez-tez Əbuttayyib ət-Təbərinin azərbaycanlı zayalıların müəllimi kimi adı çəkilir. Azərbaycanlı ziyalılar arasında fiqhi məsələlərdə imam sayılan Əbu Bəkr Zəncəvi, fiqhi Bağdadda Qazı Əbutayyib ət- Təbəridən öyrənmişdir. Əs-Siləfi qeyd edir ki, onun dərs yoldaşı şeyx Əbu İshaq Şirazi olmuşdur. Müəllif əlavə olaraq bildirir ki, bu, fəxr etmək üçün yetər[5].

---

[1] Буниятов З.М. Новые материалы о видных деятелях Азербайджана в эпоху средневековья (статья четвертая) // Изв.АН Аз.ССР. Серия истории, философии и права, 1980, №3, s. 64.
[2] İbu əs-Sabuni, s. 316
[3] İbn əs-Sabuni, s. 55.
[4] Əz-Zəhəbi Şəmsəddin Əbu Abdullah Məhəmməd ibn Əhməd. Müxtəsər Tarixi-İbnu-d-Dübeysi, s. 33 /www.balligho.com.; Nəsirov E.Orta əsrlərdə yaşamış azərbaycanlı alimlər.Nurlar, Bakı, 2011, s.150.
[5] Əs-Siləfi, 132 saylı məqalə.

Zəmanəsinin məşhur və fəzilətli adamlarından biri sayılan Qazı Əbülhəsən Əli ibn Həsən ibn Əli əl-Məyanəci Bağdada gələrək fiqh elminə vaqif olmaq üçün qazı Əbuttayyib Təbəriyə üz tutmuşdur. Hərtərəfli biliyə malik olan fəqih dilçiliyi və ədəbiyyatı da mükəmməl bilirdi.

Alimlərin həqiqəti üzə çıxarmaq məqsədilə keçirdiyi diskussiyalar bu mədrəsələrə başqa ölkələrin nümayəndəlri ilə yanaşı Azərbaycan alimlərini də cəlb edirdi. Onlar mədrəsədə müxtəlif vəzifələrdə çalışaraq onun davamlı fəaliyyətində yaxından iştirak edirdilər. Təsadüfi deyil ki, mədrəsənin tikintisi başa çatan kimi Nzamülmülk bu dövrdə dərin bilikli, ərəb dili sahəsində kamil əsərləri olan azərbaycanlı Xətib Təbrizini mədrəsə kitabxanasının müdiri, eyni zamanda İ.Y.Kraçkovskinin təbirincə desək, onu ədəbiyyat kafedrasının «professoru» təyin edir. Nizamülmülk Bağdada gələrkən mədrəsə ilə tanış olmaq istəmişdi. Əyanlar və ölkənin tanınmış adamları onun xidmətində idi. Onun gəlişini təntənəli bayram edənlərlə mədrəsədə oturmuşdu. şairlər onun şərəfinə və şəninə təriflər deyirdilər. Nizamülmülk mədrəsənin nəzarətçisindən soruşdu: “Əbu Zəkəriyyənin maaşı nə qədərdir?” O dedi: “On dinar”. Nizamülmülk dedi: Əgər özünün dediyi kimi on dinar çatmırsa maaşını istədiyi kimi 15 dinara qaldırın”[1]. Bu, vəzirin mədrəsə işçilərinə, o cümlədən həmyerlimizə göstərdiyi qayğıdır. Azərbaycanlı alimlər bu mədrəsədə özünəməxsus mövqe tutmuşlar. Ziyalılarımız mənəvi qidanın artırılması məqsədilə uzun yollar dəf edərək Nizamiyyə mədrəsəsini ziyarət edirdilər. Burada yığışaraq elmi mübadilə aparır, həqiqəti üzə çıxarmaq istəyirdilər. Onlar elmi yaradıcılıqla bərabər tədrislə də məşğul olurdular. Mənbələrdə haqqında məlumat verilən, lakin günümüzədək gəlib çatmayan “Tarixu Azərbaycan” əsərinin müəllifi təbrizli Fəxrəddin Əbülfəz İsmail ibn əl-Müsannə Bağdaddakı Nizamiyyə mədrəsəsində mühazirələr oxumuş, 580/1185-ci ildə Təbrizdə vəfat etmişdir. Urmiyadan çıxmış və fiqh elmini Əbu İshaq əş-Şirazidən öyrənmiş alimimiz

[1]Zəkəriyyə əl-Qəzvini,Əsəru-l-biləd va əxbər əl-`İbad, Beyrut, 1960, s. 49.

Əbu Bəkr Məhəmməd ibn əl-Hüseyn əl-Urməvi də Nizamiyyədə fiqhdən dərs demişdir. Bağdadda müəllim köməkçisi olan Əbu Məhəmməd Cəfər ibn Məhəmməd ibn Cəfər əl-Ərdəbili müəllimlik fəaliyyəti ilə yanaşı hədis nəql etməklə məşğul olmuşdur.

Belə nəticəyə gəlmək olar ki, Yaxın və Orta Şərq xalqları ilə birlikdə azərbaycanlı alimlərin aparıcı qüvvələrinin böyük bir hissəsinin formalaşmasının da başa çatmasında Nizamiyyə mədrəsələrinin çox mühüm və məhsuldar rolu olmuşdur.

Azərbaycanda Səlcuqlar dövründə yaradılmış mədrəsələr VII/XIII yüzildə monqolların hücumu vaxtı böyük zərər çəkmişdi. Lakin, Elxanilər zamanında Qazan xan mədrəsələri yenidən canlandırdı. Qazan xanın Təbrizdə yaratdığı Qazaniyyə külliyəsində hənəfi və şafii mədrəsələri də özünəməxsus yer tutmaqda idi. Qazan xandan sonra gələn bir çox dövlət adamı da mədrəsələr inşa etdilər. Onlardan Olcaytunun vəziri Tacəddin Əli Şah Gilaninin Təbrizdə inşa etdirdiyi camidə mədrəsə və zaviyə də var idi.

Beləliklə, Azərbaycanın özündə mədrəsələrin fəaliyyəti göstərir ki, təhsil müəssisəsi müharibə vaxtı zərər çəksə də tezliklə bərpa edilib inkişaf etdirilirdi. Bu isə onu göstərir ki, Azərbaycanın təhsil ənənəsinin möhkəm bazası, yerliçilik ənənələri olmuşdur.

Əs-Səmani qələmə aldığı azərbaycanlı alimlərin bir çoxu ilə şəxsən tanış olmuş, onlarla xoş ünsiyyət bağlamışdır. Bu görüşləri zamanı o, ziyalılarımızı yaxından tanımağa, onlar haqqında çox məlumat toplamağa çalışmışdır. Bu ünsiyyətdən əs-Səmani də onlardan faydalanmış, onlarla birlikdə hədisləri dinləmiş, nəql etdikləri hədisləri öyrənmiş, özü də onlara hədis öyrətmişdir. Azərbaycanlı alimlərlə təmasda olan müəllif nəinki onların özləri, eləcə də onların ölkələri, elmi öyrəndikləri mədrəsələri və müəllimləri haqqında da bilgi əldə etməyə çalışmışdır.

Xilafətin müxtəlif bölgələrinin alimləri Nişapurla yanaşı Qahirə, İsgəndəriyyə, Bağdad kimi şəhərləri ziyarət edərək burada öz elmi potensiallarını nümayiş etdirərək daha da məşhurlaşmış, ən böyük elm mərkəzlərində qalaraq elmin zirvələrini fəth etmiş, bəziləri müdərris olmaq təklifləri alaraq bu elm məbədlərində

qalıb fəaliyyət göstərmişlər. Bu mərkəzlər içərisində, IX əsrin ortaları - X əsrlərdə tərəqqi dövrünü keçirmiş Bağdadın artıq XI-XII əsrlərdə xüsusi çəkisi xeyli artmışdı. Sözsüz ki, bu missiyanın yerinə yetirilməsində bölgədəki Nizamiyyə mədrəsəsinin əvəzolunmaz rolu qeyd olunmalıdır. Bu mədrəsədə Şirvan alimləri özünəməxsus yer tutmuşlar. Ziyalılarımız elmi-mədəni səviyyələrini artırmaq məqsədilə Nizamiyyə mədrəsəsini ziyarət edərək burada elmi mübadilə aparır, həqiqətin dərkinə çalışırdılar. Bağdada səfər edən şirvanlı şair Xaqani (1126-1199) Bağdad alimlərinin elmi məclislərində iştirak etmişdir. Onun ərəbcə oxuduğu xütbəni Bağdad alimləri dərindən alqışlamışdır. Şairimizə «Dəbiri-ərəb» ləqəbi verilmişdir[1]. Bağdad xəlifəsi ona öz yanında qalıb dəbir (münşi) olmağı təklif etdikdə öz ana yurdunu sevən vətənpərvər şair ona demişdi: ”Mən dəbir deyil, vəzir olmağa belə razı deyiləm, Şirvanda anam məni gözləyir” – deyə, bu təklifi qəbul etməmişdı[2]. Bağdada təriflər yağdıran şairimiz Bağdada həsr etdiyi şeirində Misirlə müqayisədə üstünlüyü Bağdada vermişdir. Bagdada köçərək Nizamiyyə mədrəsəsində fəaliyyət göstərən şirvanlı alimlərdən Məhəmməd ibn Uşeyr (Aşir ?) ibn Məruf Əbu Bəkr əş-Şirvani (ö. 547/1152) haqqında məlumat verən əs-Safadi onu dövrünün Hibbətullah ibn Mübarək ibn əs-Sakti kimi görkəmli alimi ilə yanaşı qoyur. O qeyd edir ki, Əbu Bəkr əş-Şirvani dövrünun digər alimləri ilə yanaşı Şirvan alimlərindən elm öyrənmişdir[3].

Maraqlıdır ki, elm mərkəzlərinə toplaşan tanınmış şəxslər bir-birlərinə elmi məclislərdə həmin vaxt iştirak etməyən soydaşları haqqında məlumat vermiş, fikir mübadiləsi aparmışlar. Şirvanlı vaiz Əbül-Həsən Əli ibn Əhməd Əli əl-Mufaddid haqqında

[1] Kəndli Q. Xaqani Şirvani. Həyatı, dövrü, mühiti. Bakı: Elm, 1988, s. 42.
[2] Xaqani Ş. Ürək döyüntüləri (seçilmiş əsərləri) / Tərtib, müqəddimə, lüğət və şərhlər Məmmədağa Sultanovundur Bakı: Yazıçı, 1979, s. 5
[3] Буниятов З.М. Новые материалы о видных деятелях Азербайджана в эпоху средневековья (статья третья) // Изв.АН Аз.ССР, Серия истории, философии и права, 1980, №2, 61; Əs-Sübki. Tabaqat əş-şafiiyyə əl-kubra.Hələb, 1958, IV c., s.149.

ibn əs-Sabuni yazır: «Mən Dəməşq universitetində təhsil alarkən onun haqqında bizə ondan qiraəti öyrənmiş alim şeyxlərdən biri Əbül-Qasım Abdulla ibn əl-Hüseyn əl-Ənsari məlumat verib. Qahirədə təhsil aldığım vaxt isə Əbül-Həsən Əli ibn İsmayıl ibn İbrahim ibn Cubara əl-Kindidən aşağıdakı məlumatı almışam: əl-Hafiz əbu Tahir Əhməd əs-Siləfi əl-İsfahani İsgəndəriyyədə tələbə olarkən belə bir əhvalat danışıb: «Şirvanda kəramət sahibi olan və əz-Zərəndi kimi tanınan qazı Əbül- Qasım əl- Həsən ibn Mümtaz əl- İsfahani varid olanda qazı Əbu Bəkr Əhməd ibn Səhl ibn Sirri əl-Həmədani öz fətvasından əl çəkdi və dedi: «O bunda məndən üstündür». Bu və buna yaxın mənadakı sözlər Şirvanda əl-Mufaddiddən eşitdiyim kəlamlardır»[1]. Əl-Mufaddid əş-Şirvaninin bu məlumatı Şirvanda fəaliyyət göstərmiş ruhani təbəqəsi nümayəndələrilə tanış etməklə yanaşı Şirvanda kəramət sahiblərinə göstərilən böyük ehtiramı da qeyd edir.

[1] İbn əs-Sabuni, 1958, s. 17

# NƏTİCƏ

Tarixi ədəbiyyatda Azərbaycan şəhərlərinin XI-XIII əsrlər siyasi və iqtisadi vəziyyəti daha geniş şəkildə öyrənilmişdir. Lakin o dövrdəki mədəni mühit dərindən öyrənilmədən şəhərlərimizin Xilafətin daxilindəki oynadığı rolu tam şəkildə üzə çıxarmaq çətindir. Bu cəhətdən Azərbaycan şəhərlərinin Yaxın və Orta Şərqin müxtəlif mədəniyyət ocaqları ilə əlaqələrinin öyrənilməsi barədə ərəbdilli mənbələrin verdiyi məlumat mühüm əhəmiyyət kəsb edir. Coğrafi və tarixi xronikaların öyrənilməsi sahəsində daha böyük nailiyyətlər əldə edilməsinə baxmayaraq bioqrafik mənbələrin bir qisminin öyrənilməsinə baxmayaraq onların digər hissəsi ayrı-ayrı məqalələrdə istifadə edilmiş və ya bir çoxu istifadəsiz qalmışdır. Monoqrafiyada azərbaycanlı alimlərin Nizamiyyə mədrəsəsində özünəməxsus mövqeyinə aydınlıq gətirilərək göstərilir ki, ziyalılarımız mənəvi qidanın axtarışında uzun yollar dəf edərək məscidləri, hədis evlərini, kitabxanaları, elm ocaqlarını və s.-ni ziyarət edir, burada yığışaraq elmi mübadilə aparır, həqiqəti üzə çıxarmaq istəyirdilər. Onlar elmi yaradıcılıqla bərabər tədrislə də məşğul olurdular. Onlardan bəziləri mühəddis olmaqla bərabər həm də müdərris idi. Bağdadda müəllim köməkçisi olan Əbu Məhəmməd Cəfər ibn Məhəmməd ibn Cəfər əl-Ərdəbili müəllimlik fəaliyyəti ilə yanaşı hədis nəql etməklə də məşğul olmuşdur.

Mənbələrdə haqqında məlumat verilən, lakin günümüzədək gəlib çatmayan “Tarixu Azərbaycan” əsərinin müəllifi təbrizli Fəxrəddin Əbülfəz İsmail ibn əl-Musanna Bağdaddakı Nizamiyyə mədrəsəsində mühazirələr oxumuş, 580/1185-ci ildə Təbrizdə vəfat etmişdir. XIII əsr müəllifi, Marağa rəsədxanasının kitabxanasına başçılıq etmiş “Mu´cəm əl-əlqabın” müəllifi İbn əl-Fuvati (1244-1326) onun haqqında yazırdı: “Mən Təbrizdə sözün əsil mənasında görkəmli olan şəxs barəsində soruşanda, mənə İbn əl-

Musannəni nişanə verdilər. Mən soruşdum: İkinci belə bir adam varmı? Onlar cavab verdilər: O, bircədir və ikincisi yoxdur".

Qeyd etmək lazımdır ki, Nizamiyyəyə ən layiqli, kamil biliyə malik olan mütəxəssislər işə götürülürdü. Bu sahədə Azərbaycanın Gəncə və Naxçıvan bölgələri ilə birlikdə Şirvan xüsusilə fərqlənmişdir. Şirvanın elmi-ədəbi məktəbinin yetişdirmələrinə xüsusi nüfuz sahibləri kimi baxırdılar. Şamaxıda doğulmuş və vətənində təhsil almış Yusif ibn Mənsur ibn İbrahim Əş-Şirvani (ö. 1258) Şirvan elmi-ədəbi məktəbinin yetişdirməsi kimi məşhurlaşdığı üçün Nizamiyyə mədrəsəsinə dərs deməyə dəvət olunmuşdu. Elmi-asami (onamastika) sahəsində əsərlərin müəllifi, müqayisəli qrammatika üzrə məşhur alim fəlsəfədən də dərs demişdir.

Şirvanın digər müdərrisi alim, şeyx, çox sayda təfsirləri bilən fəqih, disput aparmaq məharətinə malik olan Şirvan qazısı Məcdəddin Əbü-l-Məcd ibn Səncər əş-Şirvani gecə-gündüz elmlə məşğul olurdu.

Qeyd etmək lazımdır ki, orta əsrlərdə islam dini elmləri – Quranın təfsiri, hədis və fiqh ən ləyaqətli elmlərdən sayılırdı. Artıq XI əsrdə ilahiyyat elmi müsəlman ideologiyasının aparıcı qüvvəsi olduğundan bu dövrün ərəbdilli bioqrafik ədəbiyyatının nümayəndələri öz əsərlərində ilahiyyatçılara xüsusi örnək vermişlər. İlahiyyatçılar, fəqihlər mədrəsələrdə çalışan müəllim və şagirdlər rəsmi ideologiya olan islamın daşıyıcılarına çevrilirdilər[1].

Beləliklə, Yaxın və Orta Şərq xalqları ilə yanaşı azərbaycanlı alimlərin aparıcı ziyalı qüvvələrinin bir hissəsinin formalaşmasında digər mədəniyyət mərkəzləri ilə yanaşı qaynar elmi-mədəni həyatı ilə fərqlənən Yaxın və Orta Şərq ölkələri şəhərlərindəki elmi mühitin böyük rolu olmuşdur. Azərbaycandan olan alimlər buradakı alimlərlə qaynayıb qarışmış, bu ölkələrdəki məşhur şəxslərdən dərs almış, bir tərəfdən orada elmi potensialını artırmış, onlardan öyrənmiş, digər tərəfdən orada yaşayıb fəaliyyət

[1] Мирзоева Э. Городское управление Азербайджана (XI-XIII века). Баку: Нурлан, 2002, s. 51

göstərən ziyalılarla ədəbi və dini baxışlar haqqında müxtəlif mühazirələrlə çıxış etmiş, elmi mübadilələr etmiş, bəziləri isə orada məskunlaşaraq fəaliyyətini davam etdirmişdir.Beləliklə, müsəlman elmi mühitində qarışmış və ümumi ərəb-islam mədəniyyətinin inkişafında özünəməxsus yeri olmuş həmyerlilərimizin həyat və yaradıcılığının izlənməsi, onlar haqqında məlumat verən ensiklopedik lüğətlər bu elm və din xadimlərinin Yaxın və orta Şərq mərkəzlərində bəzi hallarda aparıcı mövqe tutduqlarını göstərir.

# ƏLAVƏLƏR

## Müdərrislər

1. Fəxrəddin Əbülfəzl İsmayıl ibn əl-Müsənnə ət-Təbrizi
2. Xətib Təbrizi
3. Əbülfəzl Mahmud ibn Əhməd ibn Məhəmməd əl-Ərdəbili
4. Əminəddin Müzəffər ibn Əbu Məhəmməd ibn Əli ət-Təbrizi
5. Tacəddin Əbülfəzail Məhəmməd ibn əl-Hüseyn ibn Abdulla əl-Urməvi
6. Əbül- Xeyr əl-Varani ət-Təbrizi (558/1162-621/1224)
7. Umdətəddin Əbu MənsurMəhəmməd ibn Əsəd ibn Məhəmmədibn İmadəddin Əbdül-Həmid ibn Məhəmməd ət-Təbrizi
8. Əbu Həfs Ömər ibn Osman ibn Şüeyb əl-Cənzi (v.e. h. 550/1155-ci ildə Mərvdə)
9. Qəvaməddin Əbu Nəsr Yunis ibn Mənsur ibn İbrahim Əş-Şirvani (ö. 1258)
10. Müzəffər ibn Əbu Xeyr ibn İsmayıl əl-Varani
11. Əbu Abdulla Məhəmməd ibn Əli ibn Məhəmməd ət-Təbəri
12. Camal əl-Quda Əbu-l-Həsən Əli ibn Məhəmməd ibn Məhəmməd ət-Təbəri
13. Safiyuddin Əbu Abdulla Məhəmməd ibn Əbdürrəhim ibn Məhəmməd əl-Hindi əl-Urməvi əş-Şafii
14. Məcdəddin Əbü-l-Məcid ibn Səncər əş-Şirvani
15. Əbu Bəkr ibn Səadaveyh əl-Bərdəi
16. Əbülabbas Əhməd ibn əl-Xəlil ibn Səadə ibn Cəfər ibn İsa əl-Xuveyyi
17. Kəmaləddin Əbu Abdallah Məhəmməd əl-Qəzvini əl-Marağİ
18. Əbülvəfa əl-Buxari
19. Tac əd-Din Musa ibn Məhəmməd ibn Musa əl-Marağİ
20. Əla əd-Din Əbülhəsən Əli ibn Nurəddin Əbülfida İsmayıl ibn Yusif əl-Kunəvi ət-Təbrizi

21. Kəmaləddin Ömər Əbu Həfs ibn Bəndər ibn Ömər ət-Tiflisi
22. Şəmsəddin Əbül-Abbas Əhməd ibn əl-Xəlil ibn Səadə ibn Cəfər ibn İsa əl-Xoyi
23. Əbu-Nəcib əs-Sührəvərdi
24. Nurəddin Əbu Məhəmməd əl-Fərəc əl-Ərdəbili
25. Əminəddin Müzəffər ibn Əbu Məhəmməd ibn Əli ət-Təbrizi
26. Şəmsəddin Əbu Abdulla Məhəmməd ibn Hüseyn ibn Məhəmməd əl-Ələvi əl-Hüseyni əl-Urməvi əl-Mısri
27. Tacəddin Əbu Əhməd Məhəmməd ibn Hüseyn əl-Urməvi
28. Əbu-r-Ruh Fərəc ibn Übeydullah ibn Xələf əl-Xoyi
29. Fərəc ibn Abdulla ibn Xələf əl-Xuveyyi
30. İmadəddin Əbu Zülfəqqar Məhəmməd ibn əl-Əşrəf əl-Mərəndi
31. Səfiyəddin Əbdülmömin ibn Yusif fəxir əl-Urməvi
32. Müyyəddin Əbu Məhəmməd Həsən ibn Məhəmməd ibn Abdulla əl-Maraği
33. Kamal əd-Din Əbu Məaz ət-Təbrizi
34. Kamal əl-Din(Sərab qazısı)
35. Əfzələddin Əbu Abdulla Məhəmməd əl-Xunəci
36. Şərəf əd-Din Əbu-l-Həsən əl-Urməvi
37. Kafiyəddin Ömər ibn Osman əs-Şirvani
38. Əbu Turab Əbdülbaqi ibn Yusif ən-Nərizi əl-Marağİ
39. Məhəmməd ibn Əbu Məhəmməd ət-Təbrizi
40. Əbunnəcib əs-Sührəvərdi
41. Mahmud ibn Əli ibn İsmayıl ibn Yusif ət-Təbrizi
42. Əbü-l- Həsən əl-Müfəddid əs-Şirvani
43. Əbu Şəfa Xəlil ibn Əhməd ibn Xəlil ət-Təbrizi
44. Əbu Bəkr Məhəmməd ibn əl-Hüseyn əl-Urməvi
45. Əbu Məhəmməd Cəfər ibn Məhəmməd ibn Cəfər əl-Ərdəbili
46. Şəms əl-İslam İmadəddin Əbülhəsən Əli ibn Məhəmməd ət-Təbəri
47. Mahmud ibn Əli ibn İsmayıl ibn Yusif ət-Təbrizi
48. Yusif ibn Mənsur ibn İbrahim əş-Şirvani
49. Məcdəddin Əbü-l-Məcd ibn Səncər əş-Şirvani
50. Əbu Bəkr Məhəmməd ibu Useyr ibu Məruf-əs Şirvani

***Ərəb alimlərinin nüfuzlü azərbaycanlılar haqqında dediklərindən:***

**İbn Əbi Useybiyə:** Şəmsəddin Xoylu"hikmət elmlərində zəmanəsinin yeganəsi,şəriət işlərində dövrünün görkəmli alimi, tibbin əsaslarının bilicisidir.

**Əs-Safadi:** Məhəmməd ibn Uşeyr ibn Məruf Əbu Bəkr əş-Şirvani (ö. 547/1152) dövrünün Hibbətullah ibn Mübarək ibn əs-Sakti kimi görkəmli alimi ilə bir sıradadır.

**İbn əl-Fuvati:** Mən Təbrizdə sözün əsil mənasında görkəmli olan şəxs barəsində soruşanda, mənə İbn əl-Musannəni nişanə verdilər. Mən soruşdum: İkinci belə bir adam varmı? Onlar cavab verdilər: O, bircədir və ikincisi yoxdur.

**Əl-Əsnəvi:** Əbu-r-Ravh əl-Urməvi Azərbaycanın ürəyi kimi tanınırdı.

**Orta əsrlərdə Azərbaycandan kənarda Xilafət ərazilərində dəfn edilən Azərbaycan alimləri**

1. Əbu Şəfa Xəlil ibn Əhməd ibn Xəlil ət-Təbrizi 655/1257-ci ildə vəfat edənə qədər Dəməşqdə qalaraq fəaliyyətini davam etdirmiş, Dəməşqdə, sufilərin qəbirstanlığında dəfn edilmişdir .
2. İmadəddin Əbu Zülfəqqar Məhəmməd ibn əl-Əşrəf əl-Mərəndi (596-680/1199-1200-1281) "Müstənsəriyyə" mədrəsəsinin fəqihi h. 680(1281)-cı ildə vəfat etmiş və imam Musa ibn Cəfərin yanında dəfn edilmişdi .
3. Mədrəsədə dərs deyən din xadimi də Şeyx Əllamə Qazı-əl-quzat (qazılar qazısı), "əsrin fəridi" Əla əd-Din Əbülhəsən Əli ibn Nurəddin Əbülfida İsmayıl ibn Yusif əl-Kunəvi ət-Təbrizi Konyada h. 668-ci ildə (1269) anadan olmuş h. 693 (1293)-cü ilin əvvəlində Dəməşqə gəlmiş və orada h.729 (1328)-cu ildə vəfat etmişdir. O, Dəməşqdə Qasiyun dağının ətəyində dəfn edilmişdir.

4. Firuzabadlı Şəmsəddin h. 652(1254)-ci ilə qədər Dəməşqdə qalmış, Qasiyun dağının ətəyində dəfn olunmuşdur .
5. Şamda yüksək vəzifə tutmuş “hikmət elmlərində zamanəsinin yeganəsi, şəriət işlərində dövrünün görkəmli alimi, tibbin əsaslarının bilicisi” Misiridən sonra Şamda baş qazı vəzifəsini tutmuş Şəmsəddin Xoylu 7 şə′ban 637-ci (2 mart 1240-cı) ildə vəfat etmiş və Dəməşqdə Qasiyun dağının ətəyində dəfn olunmuşdur.

**Görkəmli alimlərə dərs demiş azərbaycanlı müdərrislər**

1. Dəməşq Universitetində təhsil almış İbn əs-Sabuni xəbər verirdi ki, Əbül-Qasım ibn Ruvaha əl-Ənsari kimi alim şeyx Azərbaycanın Şirvan bölgəsindən olan Əbül Həsən əl-Müfəddidin tələbəsi olmuşdur. Əbül-Həsən ona qiraətdən dərs demişdi.
2. Gökəmli ensiklopedik alim Yaqut əl-Həməvi Xətib Təbrizinin kitabından qiraət üsulu ilə ərəb dilini öyrənmişdi.
3. Şeyx əs-Şiləfi Xətib Təbrizidən ərəb dilinin qrammatikasını öyrənmişdi.

## İSTİFADƏ EDİLMİŞ MƏNBƏ VƏ ƏDƏBİYYAT

### I. MƏNBƏLƏR:


| | |
|---|---|
| ***İbn əs-Sabuni*** | Kitab təkmilət ikməlil-ikməl fi-l-ənsab va-l əsma’ va-l əlqab. İraq: Mustafa Cavadın nəşri, 1377/ 1957. |
| ***İbn Əbi Üseybiə*** | Uyun əl-ənba fi təbəqat əl-ətıbbə. I-II, Misir, h.1299. |
| ***İbn Əbi Useybiyə*** | Uyun əl-ənbiyə fi təbaqati-l-ətıbbə. Beyrut, 1998. |
| ***Əl-Əsnəvi*** | Təbəqat əş-şəfiiyyə. I h., Bağdad, 1390. |
| ***İbn əl-Fuvati*** | Təlxis məcm'i-l-ədəb fi mu'cəmi-l-əlqab. Lahor, 1936, IV c. |
| ***Əs-Siləfi*** | Mucəm əs-Səfər, № 958 / www.al-mostafa.com |
| ***Əs-Səmani*** | Əbdülkərim. Kitab əl-Ənsab. Beyrut, 1998. |
| ***Əl-Xatib*** | Əl-Kifayə fi ilmi-r-rivayə. Qahirə. |
| ***Yaqut əl-Həməvi*** | Mu'cəm əl-Buldən. Beyrut, 1977, V c. |
| ***Yaqut əl-Həməvi*** | İrşad əl-Ərib. VII c, Misir, 1925. |
| ***İbn Şammə əl-Müqəddəsi*** | Kitab əl-Murşid əl-vaciz. Ankara, 1982. |
| ***Ət-Təbəri Əbu Cəfər ibn Cərir*** | Tarix ər-rusul val-muluk. Ən-nəşru-s-səni, əl-Qahirə, dərul- mə’arif, 1970, IV c. |
| ***Ət-Təbəri*** | Tərix ər-rüsul va-l-müluk. Azərbaycanın ərəb işğalları dövrü tarixinə aid çıxarışlar / Ərəbcədən tərcümə edəni, ön söz, qeyd və şərhlərin müəllifi C.İsgəndərli // Qaynaqlar. Bakı: Nurlan, 2005. |
| ***İbn əl-Əsir.*** | Kibab əl-kamil fit-tarix, Beyrut, 1980. |
| ***İbn Həcər əl-Əskəlani*** | Əd-Durər, IV c., s. 142. |
| ***İbn Xəllikan*** | Kitabu vəfayət əl-əyan va ənbə`u -z-zaman. Qahirə, 1981. |

***İbn Kəsir*** Əl-bidəyə va-n-nihayə. Dər ət-taqva. Mədinə Munavvara. Mədinə Münəvvarə, 2004.

***İbn Makula*** Əl-İkməl fi raf`i-l-irtiyab ani-l-mutənif va-l-muxtəlif fi-l-əsmə va-l-kunə va-l-ənsab. Beyrut, 1990.

***İbn ən-Nədim*** Əl-Fihrist, Misir, h. 1348.

***İbn Nöqtə*** Ət-Təqyid li-məarifəti ruvatis-sünən vəl-məsanid, nşr. Kamal Yusif əl- Hut. Beyrut, 1408/1998. I c.

***Yaqut əl-Həməvi*** Mucəm əl-Buldən. Beyrut, 1977, I-V c.

***Yaqut əl-Həməvi*** İrşad əl-Ərib ilə mərifəti əl-ədib.Leyden-London ,1907-1927, I-VII c.

***Куфи Ахмад ибн Асам*** Книга завоеваний /пер. З.Буниятова. Баку: Элм, 1981

***Мас'уд ибн Намдар*** Сборник рассказов, писем и стихов. Факсимиле текста, предисловие и указатели В.М.Бейлиса. М.: Наука, 1970, арабс. текст, 170 с.

***Xaqani Şirvani*** Ürək döyüntüləri (seçilmiş əsərləri) / Tərtib müqəddimə, lüğət və şərhlər Məmmədağa Sultanovundur Bakı: Yazıçı, 1979

***Əl-Bağdadi-ibn Əbu Bəkr Əhməd*** Əli əl-xətib Tarixu Bağdad. Qahirə, 1938.

***əs-Sübki*** Əbu Nasr Əbdülvahhab (1327-1370). Tabəqat əş-şafiiyyə əl-kubra. Hələb, IV c., 1958.

***Haşim Zəkəriyyə*** Fadlu əl-hadara əl-islamiyyə əl-arabiyyə fi-l-aləm. Qahirə, 1970.

***Hinduşah Naxçıvani*** Təcəribu-s-Sələf. Naşir Abbas İqbal. Tehran, 1313, s. 270.

| | |
|---|---|
| ***Ал-Бакуви*** | Абу ар-Рашид. Китаб талхис ал-асар ва аджаиб ал-малик ал-каххар / пер. и комм. З.М.Буниятова. М.: Наука, 1971. |
| ***Əz-Zəhəbi*** | Şəmsəddin Əbu Abdullah Məhəmməd ibn Əhməd. Müxtəsər Tarixi-İbnu-d-Dübeysi, s. 33 / www.balligho.com. |

## II. ƏDƏBİYYAT:

### A) Azərbaycan dilində

| | |
|---|---|
| **Abuzərov N** | Hədislərin mətn baxımından təhlili məsələsi. Bakı Dövlət Universiteti İlahiyyat fakültəsinin "Elmi məcmuəsi", № 12, sentyabr (eylül) 2009. |
| **Azərbaycan tarixi üzrə qaynaqlar** | S. Əliyarlının redaktəsi ilə. Bakı, Çıraq, 2007. |
| **Azərbaycan tarixi** | II c Bakı, 1998, (III-XIII əsrlər). Məsul redaktor Nailə Vəlixanlı. |
| **Aşurbəyli S** | Şirvanşahlar dövləti. Bakı: 1997. |
| **Bünyadov Z.M** | Azərbaycan VII-IX əsrlərdə. Bakı, Azərnəşr, 1965. |
| **Bünyadov Z.M** | Azərbaycan Atabəyləri dövləti (1136-1225) Bakı: Elm, 1984. |
| **Ciddi Hüseyn** | Şamaxıda aşkar olunmuş Nizami dövrünə aid mədrəsə, Nizami Gəncəvi. Almanax.Bakı: 1991. |
| **Dostiyev T.M** | VIII-XII əsrlərdə Azərbaycan Şərq ölkələri ilə qarşılıqlı mədəni əlaqələrdə. II Bakı Beynəlxalq simpoziumunun materialları. Bakı: Elm, 1997. |
| **Hacıfəxrəddin Səfərli** | Orta əsrlərdə Naxçıvanın sosial-siyasi həyatında dini mərkəzlərin rolu. B: Elm, 2003. |

| | |
|---|---|
| **Həsənli Hacı Sabir** | İslam mədəniyyətində elm. B., Elm və həyat nəşriyyatı. 1998. |
| **Hüseynzadə Ə** | Naxçıvan mədrəsələrinə dair bir Elxani fərmanı. Azərbaycan EA Məruzələri, 1960, XVI cild, № 12. |
| **Əhmədov Q. M** | Orta əsr Beyləqan şəhəri. Bakı: Elm, 1979. |
| **İslam: tarix, fəlsəfə, ibadətlər** | Məsul redaktorları akad. Z.Bünyadov və fəls. e.d.R.Əliyev Bakı, 1994. |
| **Q.E.Fon Qrünebaum** | Klassık islam (600-1258) / rus dilindən tərcümə Ş.H.Hənifəzadə. Müqəddimə Maqsud Fərhadoğlunun, ön söz V.V.Naumkinindir. Azərbaycan Ensiklopediyası"nəşriyyat poliqrafiya birliyi. B., 1998. |
| **Əliyeva N.A.** | Yaqut əl-Həməvi Azərbaycanın müsəlman ölkələri ilə mədəni əlaqələri haqqında. Azərbaycan beynəlxalq çoxtərəfli qarşılıqlı əlaqələrdə // İkinci Bakı Beynəlxalq simpoziumu. Bakı: Elm, 1997, s. 179-182. |
| **Əliyeva N.A.** | Azərbaycan mədəniyyət xadimlərinin adlarının dəqiqləşdirilməsində "Kitab əl-müstərik" əsərinin rolu // Azərbaycan Tarixi Muzeyi-2003, Bakı: Elm, 2003, s. 166-169. |
| **Əliyeva N.A.** | Yaqut əl-Həməvi və Azərbaycan. Bakı, Çaşıoğlu, 1999. |
| **Əliyeva N.A.** | Əbu Tahir əs-Siləfi və Şirvanın bəzi görkəmli şəxsiyyətləri // Azərbaycan Tarixi Muzeyi – 2006, Bakı: Elm, 2006. |
| **Əliyeva N.A.** | İbn əs-Sabuni Azərbaycanın orta əsr görkəmli şəxsiyyətləri haqqında // Azərbaycan Tarixi Muzeyi-2002. Bakı: Elm, 2002. |

**Kəndli Q.** Xaqani Şirvani. Həyatı, dövrü, mühiti. Bakı: Elm, 1988.

**Mahmudov Y.M.** Azərbaycan tarixi. Erkən İntibah dövrü (IX əsrin ikinci yarısı-XIII əsrin əvvəlləri). Bakı: Aspoliqraf, 2008.

**Məşədixanım N.** Sədərək məscidi // Elm və Həyat jurnalı, 1991.

**Məmmədov Z.C.** Azərbaycan fəlsəfəsi tarixi. Bakı: İrşad, 1994.

**Məmmədov Z.C.** Azərbaycanda XI-XIII əsrlərdə fəlsəfi fikir. Bakı, Elm, 1978.

**Məmmədov Z.C.** Azərbaycan fəlsəfəsi tarixi. Bakı:"Şərq-Qərb" nəşriyyatı, 2006.

**Mehrəliyev E.Q.** Şirvan Elmlər Akademiyası (X-XIII əsrlər), Bakı: Çaşıoğlu, 2000.

**Mollayev İ.** Orta əsr Azərbaycan mütəfəkkirləri təlim-tərbiyə haqqında. Bakı, Maarif, 1996.

**Nəsirov E.** Orta əsrlərdə yaşamış azərbaycanlı alimlər. Bakı:Nurlar, 2011.

**Qasımov X.** Orta əsrlərdə Azərbaycan mədəniyyəti. Bakı: Azpoliqraf, 2008.

**Rzayev N.** Köhnə Gəncədə "İmamzadə" türbəsi // Azərbaycan Tarixi Muzeyinin əsərləri. Bakı: Az.SSR EA-nın nəşriyyatı, 1957.

**Onullahi S.M.** Təbrizin maarif və məktəb tarixindən(XIV-XV əsrlər) Azərbaycan EA Xəbərləri. Tarix, fəlsəfə, hüquq seriyası, 1966, №4.

**Tərbiyət Məhəmmədəli.** Danışməndani Azərbaycan. Görkəmli elm və sənət adamları. Bakı: Azərnəşr, 1987.

**Vəlixanlı N.M.** VII-XII əsrlər Azərbaycan elmi-ədəbi mühiti və onun dili məsələsinə dair. "İpək yolu" jurnalı, №1-2, 1998.

**Vəlixanlı N.M.** Ərəb xilafəti və Azərbaycan. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1993.

***Ahmet Önkal -Nebi Bozkurt*** Cami. İslam Ansiklopedisi. 7-ci cilt, s. 46-56.


**B) Türk dilində**


***Mehmet Altay Köymen.*** Alp Arslan və zamanı, Ankara, 1983.

***M.Yaşar Kandemir.*** Ebu Zur'a ed-Dimaşki. İslam ansiklopedisi. İstambul, c. 10. 1994.

***Nuri Topaloğlu.*** İbn Makula. İslam Ansiklopedisi, İstanbul, c. 20. 1999, s. 57-60.

***Abdulla Aydemir.*** Beytü-l-hikme. İE., İstanbul, c. 6, 1992, s. 88.

***Nəbi Bozqurt***. Medrese. 1. A., Ankara, c. 28, 2004.

***Sümer F.*** Eski tüklerde şehercilik. Ankara, 1994.


**B) Rus dilində**
**C)**


***Абу Саид Майхани***. Исламский энциклопедический словарь. М.: Наука, 1991.

